RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 103 (9558) 18 may 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Qarabağın növbəti ali qonağı Belarus prezidenti oldu



Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri davam edib.

Prezident Aleksandr Lukaşenko mayın 17-də Füzuli rayonuna gəlib. Füzuli Beynəlxalq Hava Limanında qarşılanma mərasimindən sonra Azərbaycan və Belarus prezidentləri Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin baş planı ilə tanış olublar .

İlham Əliyev və Aleksandr Lukaşenko Şuşa şəhərinə səfər ediblər. Avtobusla şəhəri gəzən Belarus Prezidentinə Şuşada görülən işlər barədə məlumat verilib.

Sonra Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko Azərbaycan ilə Belarusun birgə istehsalı olan avtobusa və Belarus Prezidentinin hədiyyə etdiyi traktorlara baxıblar.

Dövlət başçıları Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllələbaran edilmiş heykəllərinə baxıblar.

Prezident İlham Əliyevə və Prezident Aleksandr Lukaşenkoya Şuşanın baş planı barədə məlumat verilib.

Prezidentlər daha sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxıblar.

Sonra prezidentlər Bülbülün ev-muzeyində olublar.

Azərbaycan və Belarus prezidentləri Cıdır düzündə də olublar. Daha sonra dövlət başçıları Şuşa qala divarlarını ziyarət ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko Şuşada birgə nahar etdilər.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycan Respublikasına dövlət səfəri mayın 17-də başa çatıb.

2-6

## İlham Əliyev Kasım-Jomart Tokayevi ad günü münasibətilə təbrik edib



Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.

Prezident İlham Əliyev Kasım-Jomart Tokayevi ad günü münasibətilə təbrik edib, ona cansağlığı və dövlətçilik fəaliyyətində uğurlar arzulayıb.

Kasım-Jomart Tokayev göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı yüksəksəviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə xidmət etdiyi vurğulanıb, bu baxımdan bir müddət əvvəl Qazaxıstan Prezidentinin ölkəmizə səfərinin önəminə toxunulub.

Dövlət başçıları Azərbaycan ilə Qazaxıstan arasında dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildiriblər, əməkdaşlığın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## *Aleksandr LUKAŞENKO:*
## "Torpaqlarınızı qaytarmağınız və dirçəltməyiniz əsrlərboyu yaddaşlarda qalacaq"

### Belarus da işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasında iştirak edəcək

Bu dirçəliş dövründə Belarus bizə dost kimi dəstək olacağını, Qarabağın və Şərqi Zəngəzurun yenidən tikilib qurulmasına qoşulacağını da bəyan etdi. Belə ki, Prezident Lukaşenko azad etdiyimiz ərazilərdə, xüsusilə aqrar torpaqlarda Belarus təcrübəsi üzrə aqroşəhərciklər və bütün infrastrukturu yaratmağa, iş yerləri açmağa, yəni komplekslər tikməyə, həmçinin fermer təsərrüfatları yaratmağa hazır olduqlarını bildirdi. Meşələrlə zəngin olan Belarusda taxta-şalban materialı boldur. Bu ölkədə taxta evlər tikmək təcrübəsi geniş yayılıb. Belarus dostlarımız Qarabağ və Şərqi Zəngəzur üçün də belə evlər qura biləcəklərini dedilər. Belə ki, Belarusda bu evlərin ayrı-ayrı hissələri lazım olan ünvanlara gətirilir və bir həftə ərzində bünövrəsi üzərində tikilib quraşdırılır. Əgər uyğundursa, bizim işğaldan azad olunmuş ərazilərimizdə bu cür evlər tikməyə hazırdırlar.

14

# İlham Əliyevin qurduğu yeni Laçın

## Artıq işğal gününü deyil, Zəfər və şəhər günlərini qeyd edirik

Laçın rayonu ilə bağlı diqqəti çəkən əsas məqam odur ki, həm rayonun özü, həm Laçın şəhəri, eləcə də Zabux və Sus kəndləri işğaldan nisbətən gec azad edilsələr də, artıq bu yerlərin sakinləri öz evlərinə geri qayıdıblar. Və hazırda Laçın 3 yaşayış məntəqəsinə sakinlərinin qayıdışı olduğu rayondur.

İşğal dövründə ermənilər tərəfindən Laçın şəhərinin böyük hissəsi tamamilə viran qoyulmuş, dağıdılmış, bəzi yerlərdə isə qanunsuz məskunlaşma aparılmışdı. İşğaldan azad edildikdən sonra şəhərdə dərhal bərpa və yenidənqurma işlərinə başlanıldı. Prezident İlham Əliyev 2022-ci il sentyabrın 21-də Laçından bəyan etmişdi ki, şəhərin bərpası ilə bağlı hazırlıq işləri görülür: "Mən avqustun 26-dan dərhal sonra buraya bir neçə qrup göndərmişəm, bütün yaşayış fondunun təhlili, uçotu aparılacaqdır, dəymiş ziyan hesablanacaqdır. Eyni zamanda təxirəsalınmaz işlərin görülməsi üçün təkliflər hazırlanacaqdır. Laçın şəhəri, Zabux kəndi, Sus kəndi ilk növbədə, yenidən qurulacaq. Əminəm ki, biz buna tez bir zamanda nail olacağıq".

Həmin vaxtdan sonra Laçın şəhərinin bərpasına başlanılıb, qısa müddətdə genişmiqyaslı quruculuq layihələri həyata keçirilib. Belə ki, cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub, 764 ailənin yaşaya bilməsi təmin olunub. Laçın şəhərinə ilk köç isə bir il əvvələ - 2023-cü ilin may ayına təsadüf edib. Ötən il mayın 28-də Prezident İlham Əliyev Laçın şəhərinə ilk qayıdan sakinlərlə görüşüb, evlərin açarlarını onlara təqdim edib. Bundan sonra laçınlılar mərhələli şəkildə doğma yurda geri dönüblər. İndiyədək Laçın şəhərində 493 ailənin, yəni 1838 nəfərin, Zabux kəndində 217 ailə olmaqla 823 nəfərin daimi məskunlaşması təmin edilib. May ayının 10-da isə Sus kəndinə 20 ailə (75 nəfər) qayıdıb.



11

# Cinayətkar və işğalçı ölkə

## Yeni Kaledoniyada kanak xalqına qarşı törətdiyi əməllərə görə Fransanı başqa cür adlandırmaq mümkün deyil

Uzun illərdir ki, Fransa hökuməti minlərlə miqrantı qanunsuz yolla Yeni Kaledoniyaya yerləşdirərək yerli sakin olan kanakları assimilyasiya edir və bu yolla adanı müstəmləkəsi altında saxlamağa çalışır. Azadlıq istəyən kanakları azlığa çevirmək üçün hazırda Makron hakimiyyəti Yeni Kaledoniya Konqresinin və xalqının iradəsinə zidd olaraq, bu ölkənin seçki qanunvericiliyini dəyişmək qərarına gəlib. Fransa hökuməti miqrantlara səs hüququ verməklə ölkənin əsarətdə saxlanılmasına dair referendumda üstünlük qazanmağa çalışır.

Burada bir paralel aparmaq yerinə düşər ki, Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu dönəmdə məhz Fransanın dəstəyi ilə Suriyadan və digər ölkələrdən olan ermənilər qanunsuz olaraq Qarabağa yerləşdirilir, onların yerli sakinlər kimi qələmə verilməsinə çalışılırdı. Amma Azərbaycanın qələbələri ilə Parisin bu çirkin niyyəti yerlə bir edildi.

Fransa indi də eyni iyrənc ssenarini Yeni Kaledoniyada tətbiq edir, burada seçki kütləsinin sayının qanunsuz genişləndirilməsinə çalışır. Kanakların dəfələrlə etdikləri xəbərdarlıqlara, dialoq çağırışlarına baxmayaraq, hökumət layihəni artıq Fransa Parlamentinin hər iki palatasında zorla qəbul etdirib və hazırda Yeni Kaledoniya xalqının boynuna son əsarət ilgəyini atmağı planlaşdırır.



Ancaq kanak xalqı əsarətdən, Fransa zülmündə əzilməkdən qurtulmaq üçün ayağa qalxıb haqq səsini ucaldır, etirazlar edir, Yeni Kaledoniyaya aid qərarların kaledoniyalıların iştirakı olmadan qəbul edilməsini əsla tanımayacaqlarını bildirir.

8

◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

# Qarabağın növbəti ali qonağı Belarus prezidenti oldu

## Füzuli Beynəlxalq Hava Limanında qarşılanma








**Azərbaycan Respublikasında dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 17-də Füzuli rayonuna gəlib.**

AZƏRTAC xəbər verir ki, Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Samir Rzayev Belarus Prezidentinə Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları barədə məlumat verdi.

Bildirildi ki, "Qarabağın hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanı 2021-ci il oktyabrın 26-da istifadəyə verilib. Ən müasir səviyyədə inşa olunan bu aeroport istənilən tip hava gəmisini qəbul etmək imkanına malikdir. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinə xidmət etməyə imkan verir. Zəngilan Beynəlxalq Hava Limanının açılışı 2022-ci il oktyabrın 20-də olub. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edir. Təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının inşasının bu il tamamlanması planlaşdırılır. Hava limanının uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Bu hava limanları bölgəyə səfərə gələnlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş ərazilərimizdə aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verməklə, ümumilikdə Qarabağın və Şərqi Zəngəzurun sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.

# Azərbaycan və Belarus prezidentləri Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin baş planı ilə tanış olublar





Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin baş planı ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Belarus Prezidenti Aleksandr Lukaşenkoya işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları, həmçinin şəhərin baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verdi.

**Emin Hüseynov:** Hörmətli cənab prezidentlər, sabahınız xeyir, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Bu regiondakı xüsusi nümayəndədir.

**Prezident Aleksandr Lukaşenko:** Üç rayonda?

**Prezident İlham Əliyev:** Bəli, üç rayonda. Füzuli haqqında danış.

**Emin Hüseynov:** Füzuli bir vaxtlar əhalinin sıx yaşadığı, çiçəklənən şəhər idi. Şəhər azad ediləndən sonra biz onun xarabalıqlarını tapdıq. Bu, şəhərin əsas yaşayış massivlərinin və ictimai binaların olduğu tarixi mərkəzidir. Tağın olduğu yerdə sovet dövründə məşhur "Araz" qəzetinin redaksiyası yerləşib. Yaxınlıqdakı üçbucaqlı bina Mədəniyyət evi olub. Sonra prokurorluğun binası gəlir.

**Prezident İlham Əliyev:** Sizin burada gördüklərinizin hamısı, bütün bu ərazidə olanlar, dediyim kimi, Livanın ərazisindən 1,5 dəfə çoxdur, təxminən 15 min kvadratkilometrdir. Hamısı xarabalığa çevrilib. Təkcə onların qanunsuz məskunlaşdığı iki-üç yerdə tikililər hələ də qalırdı. Amma bu zona - Füzuli-Ağdam tamamilə yerlə yeksan edilib.

**Prezident Aleksandr Lukaşenko:** Amma burada heç nə bərpa olunmayacaq?

**Prezident İlham Əliyev:** Yox, bir hissəsini xatirə kimi saxlayacağıq. Bu hissə hamının buraya gəlməsi və bu vəhşiliyi görməsi üçün konservasiyada qalır. Şəhərin özü isə bu hissədə salınır, birinci məhəllə tikilir. Orada isə böyük park olacaq.

**Emin Hüseynov:** Bunlar şəhərin aşkar etdiyimiz bəzi fotoşəkilləridir. Biz Füzuli şəhərini bu vəziyyətdə gördük, faktiki olaraq o, yer üzündən silinmişdi. Bizim səkkiz belə şəhərimiz var.

**Prezident Aleksandr Lukaşenko:** İlham Heydər oğlu deyir ki, ən başlıcası bunlar döyüşlər zamanı deyil, işğal dövründə baş verib. Sadəcə, məqsədyönlü şəkildə dağıdırdılar.

**Emin Hüseynov:** 30 il ərzində sistemli şəkildə hər şeyi - bizim milli, tarixi, mədəniyyət obyektlərimizi dağıdıb, talayıb və məhv ediblər.

**Prezident İlham Əliyev:** Qəbiristanlığı yerlə yeksan ediblər. Qəbiristanlıqlarda kənd təsərrüfatı məhsulları əkib-becəriblər.

**Emin Hüseynov:** Bu, təkcə islam dininə, tarixinə və mədəniyyətinə aid obyektlər deyil. Orada pravoslav kilsələri də var.

**Prezident İlham Əliyev:** Pravoslav kilsəsini də dağıdıblar. Bunun fotoşəkilləri var.

**Prezident Aleksandr Lukaşenko:** Bu, su anbarıdır?

**Prezident İlham Əliyev:** Bəli, su anbarıdır, biz oradan keçdik.

**Emin Hüseynov:** Bu, Sizin təyyarənizin endiyi aeroportdur. Buradan şəhərin mənzərəsi görünür.

**Prezident İlham Əliyev:** Bu isə şəhərdir.

**Prezident Aleksandr Lukaşenko:** Bu, şəhər olacaq?

**Emin Hüseynov:** Bu, birinci məhəllədir. İkinci məhəllə iki hissədən ibarətdir. Üçüncü məhəllədə isə artıq tikilmiş 1 nömrəli məktəb var.

**Prezident Aleksandr Lukaşenko:** Aşağıda çay axır.

**Emin Hüseynov:** Bu çay Çaykənd adlanır.

**Prezident İlham Əliyev:** Orada çay, su anbarı var. Həmin çay birbaşa parkın ərazisindən keçəcək.

**Emin Hüseynov:** Bu hissə şəhər parkıdır, şəhərin mərkəzi parkı, bu isə cənab Prezidentin dediyi kimi, memorial parkdır. Şəhərdə yeganə yerdir ki, biz gələcək nəsillərə çatdırılması üçün bu xarabalıqları qoruyacaq, konservasiya edəcəyik.

**Prezident Aleksandr Lukaşenko:** Daha sonra yenə şəhər olacaq?

**Emin Hüseynov:** Yaşayış massivləri, binalar olacaq. Sonra ikimərtəbəli, üçmərtəbəli bloklu binalar və özəl tikililər gəlir. Bura isə bizim inzibati mərkəzimizdir.

**Prezident İlham Əliyev:** Necə görünəcəyini slaydlarda göstər.

**Emin Hüseynov:** Bax, bu, qarşımızdakı, gözlərimizin önündəki tikilmiş birinci məhəllədir. Burada artıq 822 ailə məskunlaşıb. Onlar çox razıdırlar, xoşbəxtdirlər və çalışırlar.

**Prezident Aleksandr Lukaşenko:** İşləyirlər?

**Emin Hüseynov:** Bəli, onların hamısı işlə təmin edilib, əsasən tikintidə, amma həm də dövlət və özəl müəssisələrdə işləyirlər.

**Prezident İlham Əliyev:** Məktəbdə, Yaradıcılıq Mərkəzində, polisdə, tibb sahəsində, yəni dövlət müəssisələrində və sahibkarlıq üzrə.

**Emin Hüseynov:** Artıq 300 müraciət var, onlardan 100-nü seçmişik.

**Prezident İlham Əliyev:** İctimai, ticarət, xidmət obyektləri.

**Emin Hüseynov:** Bu, belə görünür. Yaxınlıqda isə artıq ikinci kompleksdir. Onun tikintisinə ilin sonunda başlayacağıq, layihələndirmə işləri aparılır. Kompleks iki hissədən ibarətdir, ümumilikdə 653 mənzil olacaq. Burada 2288 nəfər yaşayacaq.

**Prezident İlham Əliyev:** İndi nə qədərdir?

**Emin Hüseynov:** İndi 3127. Onun yaxınlığındakı üçüncü məhəllədir. Burada 863 mənzil olacaq. Sentyabra qədər 3 mindən çox sakin köçürüləcək.

**Prezident Aleksandr Lukaşenko:** Sonra yekunda 10 min nəfərə yaxın olacaq.

**Emin Hüseynov:** Füzuli şəhərində təxminən 10 min nəfər. Ümumilikdə Füzuli rayonunda isə təqribən 25 min sakin məskunlaşacaq.

**Prezident İlham Əliyev:** Biz hazırda kəndləri də bərpa edirik. Bu rayonda yalnız 10 kənd var.

**Prezident Aleksandr Lukaşenko:** Bu, Füzuli şəhəridir, bəs başqa şəhərlər?

**Prezident İlham Əliyev:** Digər şəhərlər - Laçın tam məskunlaşdırılıb, orada proses gedir, artıq 450 ailə köçüb. Ağdam indi tikilir. Növbəti ildə təhvil verəcəyik.

**Emin Hüseynov:** Bu ilin sonunadək üç kəndi təhvil verəcəyik.

**Prezident İlham Əliyev:** Bu yaxınlarda ilk dəfə keçmiş köçkünlər, qaçqınlar Şuşada məskunlaşıblar. Başqa yerlərin hamısında tikinti işləri gedir. Bu il Cəbrayılda, həmçinin Kəlbəcərdə də. Yəni bu il 20 minə yaxın insanı yerləşdirəcəyik.

**Prezident Aleksandr Lukaşenko:** Beş rayon var idi və 2-si qismən işğal edilmişdi?

**Prezident İlham Əliyev:** Bəli, üstəlik keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti də.

**Prezident Aleksandr Lukaşenko:** Deməli, bu beş rayonda rayon mərkəzləri var idi.

**Prezident İlham Əliyev:** Bax, Füzuli rayonunun mərkəzi onlardan biridir.

**Prezident Aleksandr Lukaşenko:** Beş rayonun hamısında tikinti işləri gedir?

**Prezident İlham ƏLİYEV:** Yeddisində.

**Prezident Aleksandr Lukaşenko:** Yeddisinin hamısında, üstəlik keçmiş vilayətin daxilində...

**Prezident İlham Əliyev:** Keçmiş Dağlıq Qarabağda. Orada azərbaycanlılar da yaşayırdılar. Məsələn, onların soyqırımı törətdikləri Xocalı şəhəri. Orada kəndləri bərpa edirik. Yəni ilin sonunadək 20 min nəfərə yaxın, 2026-cı ilin sonuna qədər isə 140 min nəfərə yaxın sakini yerləşdirməyi planlaşdırırıq. Bu, bizim minimum planımızdır. Amma daha çox ola bilər. 1993-cü ilə qədər bizdə 8 milyon insana bir milyon qaçqın və köçkün düşürdü.

**Emin Hüseynov:** Ən böyük əmsaldır...

**Prezident İlham Əliyev:** Adambaşına düşən ən böyük əmsaldır. Onlar çadırlarda, vaqonlarda, uşaq bağçalarında, yataqxanalarda yaşayırdılar. Biz 2007-ci ildə çadır şəhərciklərini ləğv etdik, lakin hələ də yataqxanalarda yaşayan insanlar var. Buna görə də onları oradan buraya köçürürük. Hər şey pulsuzdur. Onlar burada yaşayırlar.

Bildirildi ki, baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa ediləcək Füzuli işğaldan azad edilmiş ərazilərdə ən böyük şəhərlərdən biri olacaq. Füzuli şəhərinin dayanıqlı inkişafına, sakinlərin və sahibkarların rifahına töhfə verəcək rəqəmsal həllərdən istifadə etməklə, ənənəvi şəbəkə və xidmətlərin daha səmərəli olmasının təmin edilməsi məqsədilə hazırlanmış "Ağıllı şəhər" konsepsiyası irəli sürülüb. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Burada şəhərsalmanın bütün müasir tələblərinə cavab verəcək üç yaşayış kompleksi inşa olunur. Komplekslərdə ümumilikdə 2462 mənzil olacaq. Baş plana əsasən, təxminən 22,5 hektar ərazidə Mərkəzi park yaradılacaq. Parkda istirahət zonaları, botanika bağı, sıx meşə zonası, piknik və idman meydançaları, "Poeziya" meydanı, amfiteatr, kafe-restoranlar və s. fəaliyyət göstərəcək. Tikiləcək Füzuli Memorial Kompleksində dağıdılmış binaların xarabalıqları olduğu kimi qorunub saxlanılacaq. Kompleksdə İşğal və Zəfər muzeyləri yaradılacaq. Füzulidə müayinə və müalicənin yüksək səviyyədə aparılması üçün ən müasir tibbi avadanlıqla təchiz ediləcək 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanası inşa olunacaq.

Həmçinin bildirildi ki, 2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam-Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır. Bərdə-Ağdam avtomobil magistralının davamı olan bu yolun uzunluğu 64,8 kilometrdir.

◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

# Qarabağın növbəti ali qonağı Belarus prezidenti oldu

## Şuşa şəhəri ilə tanışlıq Belarus Prezidentində dərin təəssürat doğurub









**Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Şuşa şəhərinə səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçıları Şuşada birinci yaşayış kompleksində olublar.

Buraya avtobusla gələn dövlət başçılarına Şuşa rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov kompleks barədə məlumat verdi.

**Aydın Kərimov:** Hörmətli cənab Prezident qarşı tərəfdə bu yaxınlarda üçüncü kompleksin təməlini qoyub. 2026-cı ilin sonunadək Böyük Qayıdış proqramı üzrə şəhərdə 111 çoxmərtəbəli ev tikiləcək. Bunlar dördmərtəbəli, beşmərtəbəli, altımərtəbəli evlər olacaq. Biz artıq onlardan 23-nü tikmişik.

Bura isə Bayraq meydanımızdır. Bu bayrağı cənab Prezident ucaldıb. Burada Zəfər muzeyi, həmçinin digər yaşayış kompleksi tikiləcək.

**Prezident İlham Əliyev:** Biz birinci yaşayış kompleksinə yaxınlaşırıq.

**Aydın Kərimov:** Bu, XIX əsrə aid memarlıq abidəsidir, gimnaziya olub.

**Prezident İlham Əliyev:** Bunlar yeni evlərdir, Şuşa şəhərinin ənənəvi memarlıq üslubunda tikilib.

**Aydın Kərimov:** Üzləmədə yerli daşdan istifadə olunur.

**Prezident İlham Əliyev:** Qədim Şuşa evləri əsasən bu daşlarla tikilib.

**Aydın Kərimov:** Buraya artıq 244 nəfər - 58 ailə köçüb.

Ali qonaq kompleksdə və mənzillərdə yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Kompleksin təməli 2021-ci il avqustun 29-da qoyulub. Yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olan 450 mənzildən ibarətdir. Mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə birinci yaşayış kompleksinin açılışı olub. Artıq yaşayış kompleksinə köç qrafikinə əsasən 58 ailə olmaqla 244 nəfər köçürülüb.

* * *

Avtobusla şəhəri gəzən Belarus Prezidentinə Şuşada görülən işlər barədə məlumat verildi.

**Prezident İlham Əliyev:** Burada, Şuşada xüsusi memarlıq üslubu mövcuddur. Vəhşilər gəldilər, hər şeyi dağıdıblar. Soldakı "Qarabağ" mehmanxanasıdır. Mənim atamın vaxtında tikilib. Biz buraya qayıdanda o, artıq yarıdağılmış vəziyyətdə idi, vur-tut iki mərtəbəsi fəaliyyət göstərirdi. Biz onu əsaslı şəkildə təmir etdik. "Saatlı" məscidi də dağıdılmışdı, bax, soldadır. Biz onu da bərpa etdik.

**Aydın Kərimov:** Keçmiş baş poçtun binasıdır, indi bura dövlət xidmətləri mərkəzi olacaq. Bu park isə şuşalıların sevimli istirahət yeri olub.

**Prezident İlham Əliyev:** Meriyanın binası, Şuşanı azad edən vaxt bizim bayrağımız burada ucaldılıb. İndi biz oranı da əsaslı şəkildə bərpa etmişik.

* * *

Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko Azərbaycan ilə Belarusun birgə istehsalı olan avtobusa və Belarus Prezidentinin hədiyyə etdiyi traktorlara baxdılar.

* * *

Dövlət başçıları Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllələbaran edilmiş heykəllərinə baxdılar.

Bildirildi ki, işğal zamanı ermənilər həmin heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər Prezident İlham Əliyevin göstərişi ilə əvvəlki yerlərinə qaytarılıb.

**Aydın Kərimov:** Qıraqdakı iki heykəldən birincisi Azərbaycan klassik musiqisinin banisi, müsəlman Şərqində ilk operanın müəllifi Üzeyir Hacıbəylinindir. Sonuncu isə Polad Bülbüloğlunun atası, məşhur xanəndə Bülbülün heykəlidir. Ortadakı isə Xan qızı Natəvandır. O, Qarabağ xanının sonuncu varisidir. Baxın, bu heykəllər 1992-ci ilədək burada - Mədəniyyət evinin qarşısındakı bağın yaxınlığında yerləşirdi.

**Prezident İlham Əliyev:** Mədəniyyət evi dağıdılıb.

**Aydın Kərimov:** Mədəniyyət evi yerlə yeksan edilib, heykəllər isə vandalizmə məruz qalıb. Siz onların üzərində güllə yerlərini görə bilərsiniz. Onları güllələbaran ediblər.

**Prezident Aleksandr Lukaşenko:** Qoy, elə bu cür də qalsın.

**Prezident İlham Əliyev:** Bəli, məhz bu cür də qalır.

**Prezident Aleksandr Lukaşenko:** Qoy, hamı görsün.

**Prezident İlham Əliyev:** Bax, görürsünüz, mən bunları 2021-ci ilin yanvarında buraya gələndə gətirtmişəm. Onları əridilməyə göndərmişdilər, sonra isə Polad Bülbüloğlu heykəllərin əridilmək üçün ermənilər tərəfindən Gürcüstana göndərildiyini öyrəndi. Onda o atama müraciət etdi və biz onları satın aldıq, ölkəyə gətirtdik, şəhərin mərkəzindəki İncəsənət Muzeyinin həyətində yerləşdirdik, onlar demək olar ki, 30 il orada qaldı.

**Prezident Aleksandr Lukaşenko:** "5-45" avtomatıdır.

**Aydın Kərimov:** Daha sonra isə Polad Bülbüloğlu cənab Prezidentə müraciət etdi ki, onlar orada daha nə qədər qalacaqlar, gəlin onları Bakı şəhərindəki gözəl parklardan birinə qoyaq. Prezident bildirdi ki, qəti surətdə olmaz, biz onları Şuşadakı öz yerlərinə qaytaracağıq.

**Prezident Aleksandr Lukaşenko:** Düzdür.

**Aydın Kərimov:** Bu, 11-12 il bundan əvvəl olub.

**Prezident İlham Əliyev:** Şuşaya ilk dəfə gələndə mən onları buraya gətirtdim və olduqları yerə qoydurdum. O, (Üzeyir Hacıbəyli - red.) bizim himnimizin müəllifidir. Baxın, indi səslənən həmin himn budur. Ən maraqlısı odur ki, bu, 1918-ci il Azərbaycan Demokratik Respublikasının himnidir, bu dahi bəstəkar həm də sovet Azərbaycanının himninin müəllifidir. O, çox istedadlı bəstəkar, bənzəri olmayan insan olub. Üzeyir Hacıbəyli iki himn bəstələyib, həm Azərbaycan Demokratik Respublikası üçün, həm də Azərbaycan Sovet Sosialist Respublikası üçün. O, əslən Şuşa şəhərindəndir.

**Aydın Kərimov:** Onların hamısı Şuşa şəhərindəndir. Şuşa bir çoxlarının, onlarla məşhur insanın vətənidir.

**Prezident İlham Əliyev:** Bu, Qarabağın qurucusunun nəticəsi şairə Natəvandır. Onun həm də barmağını sındırmışdılar. Arxadakı bina isə onun sarayıdır, vaxtilə yaşadığı kompleksdir. O, dağıdılıb. Bu isə bizim məşhur müğənnimiz Bülbüldür, ona bülbül quşunun adı verilib.

**Prezident Aleksandr Lukaşenko:** Bülbül?

**Prezident İlham Əliyev:** Bu onun təxəllüsüdür. Onun da heykəli vandalizmə məruz qalıb. O da Şuşada doğulub.

**Aydın Kərimov:** Şuşada doğulub və böyüyüb.

**Prezident Aleksandr Lukaşenko:** Bunlar danışan heykəllərdir. Maraqlı şəhərdir.

**Prezident İlham Əliyev:** Bəli, qaya üzərində yerləşir.

**Aydın Kərimov:** Dəniz səviyyəsindən 1400-1600 metr hündürlükdədir. Aşağıda qala divarının və Natəvanın sarayının qalıqları görünür.

* * *

Prezident İlham Əliyevə və Prezident Aleksandr Lukaşenkoya Şuşanın baş planı barədə məlumat verildi.

Qeyd edildi ki, şəhərin baş planı hazırlanarkən onun tarixi simasının qorunub saxlanılması əsas götürülüb. Azərbaycanın mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulub. Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşası, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binaların və abidələrin yerləri əksini tapıb. Hazırda baş plan əsasında Şuşada bərpa və yenidənqurma işləri davam etdirilir.

*Ardı 4-cü səh.*

◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

# Qarabağın növbəti ali qonağı Belarus prezidenti oldu

## Şuşa şəhəri ilə tanışlıq Belarus Prezidentində dərin təəssürat doğurub









*Əvvəli 3-cü səh.*

**Aydın Kərimov:** Bu, 20 illik perspektiv üçündür. Burada şəhər inşa edəcəyik, gördüyünüz kimi onu çox yükləməyəcəyik.

**Prezident İlham Əliyev:** Yükləməyəcəyik ki, yer çox olsun, sərbəstlik olsun.

**Prezident Aleksandr Lukaşenko:** Tamamilə doğrudur.

**Aydın Kərimov:** Tarixi məhəllələr çoxdur. Əlbəttə, bütün bu işlərə başlamaq üçün, cənab Prezidentin göstərişi ilə əvvəlcə Zəfər yolu, tunellər tikildi. Siz bu gün həmin yoldan keçdiniz. Bu, böyük həcmdə işdir - 9 viaduk, 7 tunel. Bu, bizim Füzulidən Şuşaya rahat getməyimiz üçündür. İlk işlər infrastrukturun bərpası üzrə aparılıb. Burada hər şey dağıdılmışdı. Hətta istilik şəbəkəsi çəkdik, indi də şəhərə qaz çəkilib. Bizdə yaşayış kompleksində mərkəzləşdirilmiş istilik sistemi var. Orada artıq istilik və isti su verilir. Su təchizatı üçün dağlarda sututarlar yaratmışıq ki, daimi suyumuz olsun, su çatışmazlığını hiss etməyək. Küçə-yol şəbəkəsi. Bu, 56 kilometr uzunluqda şəhərdaxili yol şəbəkəsi, 81 küçə və müxtəlif kateqoriyalar - 10-12 metr enindən dar yollaradək. Təbii ki, şəhər mədəniyyət paytaxtıdır. Hazırda bizdə rəsmi olaraq 196 abidə var. Lakin təəssüf ki, gördüyünüz kimi, onların əksəriyyəti, demək olar, hamısı bu vəziyyətdədir. Cənab Prezidentin və hörmətli Mehriban xanımın səyləri sayəsində biz onlardan bəzilərinin bərpasına başlamışıq. Biz bu məhəllədə bir neçə binanın konsepsiyasını hazırlayırıq.



**Prezident Aleksandr Lukaşenko:** Pis olmazdı.

**Prezident İlham Əliyev:** Çünki onun möhkəmliyinə də, necə istifadə olunmasına da baxmaq lazımdır. Dağılmış evlərin bir hissəsi belə də qalacaq. Konservasiya olunaraq, burada nələrin baş verməsi barədə xatirə kimi saxlanılacaq.

**Aydın Kərimov:** Bu, bərpa olunmuş abidələrdən nümunələrdir - Mehmandarovların malikanəsi, "Saatlı" məscidi, Yuxarı məscid, Xalça evi, Vaqifin məqbərəsi.

**Prezident İlham Əliyev:** Şair Vaqifin məqbərəsi, onun köhnə şəkilləri yoxdur, yəqin ki, buradadır. O da tamamilə dağıdılmışdı. İlk bərpa etdiyimiz abidələrdən biridir.

**Aydın Kərimov:** Bulaqlar bərpa olunur. Hər məhəllədə, - burada 16 məhəllə olub, - məscid, bulaq və hamam olub. Hamamlardan yalnız biri qalıb, bulaqların hamısı demək olar ki, yararsız vəziyyətə salınıb. Əsas binaların yerləşəcəyi ümumi planlaşdırma belədir. Bəziləri artıq tikilib, bəziləri tikilir. Azad olunanda bu mərkəz belə görünüşdə idi. Beşmərtəbələr köhnə və əsasən dağılmış vəziyyətdədir. Yeni baş plana uyğun olaraq, belə görünəcək. Bu yay onu təhvil verəcəyik. Tarixi ərazidə belə kiçik evlər olacaq. Bax, orada gözəl terraslı, yaşıllıqların olduğu belə kompleks tikiləcək. Həm ofislərin, həm mağazaların olduğu biznes-rayonun, habelə digər ərazinin də salınması nəzərdə tutulub. Bu, Sizinlə indicə olduğumuz həmin yaşayış kompleksidir. O, belə planlaşdırmaya malikdir. Bu isə şəhər məktəbimizdir. Artıq tikilib və sentyabrda öz şagirdlərini qəbul etməyə hazırdır, 300-ə yaxın şagird burada təhsil alacaq.

**Prezident İlham Əliyev:** Təxminən 1000 nəfərlik olacaq.

**Aydın Kərimov:** Şəhər xəstəxanamız 90 çarpayılıqdır. Payıza qədər onun tikintisi başa çatacaq. O, şəhərin yuxarı hissəsində yerləşir. Bu, "realnı" məktəbinin binasıdır, o, musiqi və incəsənət kolleci kimi fəaliyyət göstərəcək. Hazırda sahəsinə görə Şuşada ən böyük abidədir. Bu isə poçt binası və dövlət xidmətləri mərkəzidir.

*Ardı 5-ci səh.*

◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

# Qarabağın növbəti ali qonağı Belarus prezidenti oldu

## Şuşa şəhəri ilə tanışlıq Belarus Prezidentində dərin təəssürat doğurub









*Əvvəli 4-cü səh.*

**Prezident İlham Əliyev:** O, əvvəl belə idi.

**Aydın Kərimov:** Sovet modernizmi. Yəni olduğu kimi.

**Prezident İlham Əliyev:** Biz onu olduğu kimi, həmin üslubda bərpa edirik.

**Prezident Aleksandr Lukaşenko:** Bəli, bu, gözəldir.

**Aydın Kərimov:** "Qarabağ", "Şuşa" mehmanxanaları. Bu, "Yasəmən" mehmanxanasıdır. Belə butikli tarixi hotel. Şuşanın yaxınlığında Daşaltı kəndi var.

**Prezident İlham Əliyev:** Bax, bu, Şuşadır. Yuxarı qayanı görürsən, bax, o, həmin qayanın üstündədir. Üç tərəfdən dik qayalardır.

**Aydın Kərimov:** Burada isə ətəkdə kənddir. Həmin kənd hazırda özəl sektor tərəfindən turizm obyekti kimi tikilir.

**Prezident İlham Əliyev:** Orada mehmanxana da olacaq.

**Aydın Kərimov:** Bu yaxınlarda cənab Prezident bizim rayonda Şuşa ilə Laçın arasında tikiləcək ilk qəsəbənin təməlini qoydu, buradan 18 kilometr məsafədədir. Turşsu qəsəbəsi. Çox gözəl mənzərəli yerdir, 323 ev, yəni ailə. İlk 50 ailə artıq noyabr ayında köçəcək.

**Prezident İlham Əliyev:** Bu il.

* * *

Prezidentlər daha sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxdılar.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlət başçılarına mərkəz və sərgi barədə məlumat verdi.

Bildirildi ki, Yaradıcılıq Mərkəzi Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra ötən il mayın 10-da istifadəyə verilib. Bina ölkə əhəmiyyətli memarlıq abidələri siyahısındadır. "Heydər Əliyev və Qarabağ" sərgisində Ulu Öndərin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf sahələrindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Həmçinin sərgidə Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, burada keçirdiyi görüşlərə, müxtəlif tədbirlərə aid fotolar yer alıb.

Məlumat verildi ki, 1969-cu ildən etibarən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev mürəkkəb tarixi şəraitdə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu.

1979-cu il yanvarın 12-də Ümummilli Liderin iştirakı ilə Ağdam-Xankəndi dəmir yolu açıldı. Bu, Ulu Öndər Heydər Əliyevin Qarabağın Azərbaycanın digər rayonları ilə təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi. Ulu Öndər Şuşanın inkişafına da xüsusi əhəmiyyət verir və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirirdi.

* * *

Sonra prezidentlər Bülbülün ev-muzeyində oldular.

Muzey barədə məlumat verən Polad Bülbüloğlu bildirdi ki, Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında keçmiş Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi 1982-ci il 31 avqust tarixli qərarı ilə Bülbülün doğulduğu və yaşadığı evin muzeyə çevrilməsi barədə qərar qəbul edib. Bina 1982-1983-cü illərdə təmir olunub, muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Şuşa işğaldan azad olunduqdan sonra isə Bülbülün ev-muzeyində də bərpa işləri aparılıb və 2021-ci il avqustun 29-da muzeyin açılışı olub.

**Polad Bülbüloğlu:** Aleksandr Qriqoryeviç, sovet dövründə Heydər Əliyevin göstərişinə əsasən burada Bülbülün muzeyi yaradılıb. Atam SSRİ-nin Xalq artisti, ümumittifaq mükafatları laureatı olub.

**Prezident Aleksandr Lukaşenko:** Bilirəm, mənə artıq bu barədə deyilib.

**Polad Bülbüloğlu:** Təsəvvür edirsiniz, belə bir vandallıq törədilib və güllələr heykəlin çənə hissəsində qalıb.

**Prezident Aleksandr Lukaşenko:** İkonalara və heykəllərə atəş açanlar vəhşidirlər.

**Polad Bülbüloğlu:** Onlar bizim görkəmli şairəmiz Natəvanın, bəstəkarımız Üzeyir Hacıbəylinin heykəllərini sürüyə-sürüyə aparmışdılar, daha sonra Heydər Əliyev bununla bağlı lazımi tədbirlər gördü, onları geri qaytarmağa nail oldu. Sonra İlham Heydər oğlu onları gətirdərək öz yerlərinə qoydurdu. Xudmani evdir. Bu evdə mənim atam anadan olub. Evin divarlarının qalınlığına baxın. Divarlar qalın olduğuna görə, ev qışda isti, yayda sərin olur. Burada ötən illərin xatirələri toplanıb. İnsanlar bax, belə yaşayıblar. Bu, sadəcə, etnoqrafik nöqteyi-nəzərdən də maraqlıdır.

**Prezident İlham Əliyev:** Fotoşəkillərdə həmin dövrün ruhu əks olunub.

**Polad Bülbüloğlu:** Baxın, bu qardaşımdır, bunlar isə qohumlardır. Bu şəkildə isə atam 7-8 yaşındadır, onu artıq şənliklərə mahnı oxumağa dəvət edirdilər. Həmin məclislərdən sonra o, müğənnilik etməyə başlayıb. Daha sonra onu Gəncəyə dəvət edirdilər. Sonra isə Tbilisiyə. Beləliklə, o, çox məşhur müğənni oldu. Burada biz beş dildə yazılmış belə bir lövhə hazırlamışıq. Atama mərkəzi küçədə abidə ucaltmışıq.

**Prezident İlham Əliyev:** Onun adını daşıyan küçədə.

**Polad Bülbüloğlu:** Aleksandr Qriqoryeviç, qeyd etmək istərdim ki, 1926-cı ildə Bakıda artıq rus dilində afişalar var idi. Bu, bizim dahi bəstəkarımız Üzeyir Hacıbəylidir. Bu şəkildəki isə başqa bir məşhur Qarabağ xanəndəsi Cabbar Qaryağdıoğludur, o, 80 yaşına qədər zil səslə oxuyub. O, məşhur xalq mahnılarının və muğamlarının bilicisi olan bənzərsiz insan idi. Bu abidə İlham Heydər oğlunun sayəsində Bakıda onun xatirəsini yad etmək məqsədilə ucaldılıb. Baxın, burada elə soyadlar var ki, onların hamısını bütün dünya tanıyır, hətta onlar Bülbül haqqında xoş sözləri ni ifadə ediblər. Budur, Şostakoviç, Rostropoviç və dünyada məşhur olan digər incəsənət xadimləri.

**Prezident İlham Əliyev:** Stanislavski.

**Polad Bülbüloğlu:** Bəli, Stanislavski. Onlar sovet dövrünün elitası idi. Bu isə yeri gəlmişkən, atamın Böyük Teatrda 1959-cu ildəki sonuncu çıxışıdır. Moskvada Azərbaycan dekadası keçirilirdi. Bu isə xalq qəhrəmanımız Koroğlunun obrazıdır. O vaxt Heydər Əlirza oğlu da çıxışlarının birində qeyd etmişdi ki, biz Koroğlu deyəndə gözlərimizin önünə Bülbül gəlir, Bülbülün adı çəkiləndə isə mütləq gözlərimizin önündə böyük xalq qəhrəmanımızın obrazı canlanır.

Bu isə çox nadir əl yazısıdır, mən belə deyərdim, Heydər Əliyevin avtoqrafına tez-tez rast gəlmək mümkün olsa da, İlham Heydər oğlunun anası Zərifə Əziz qızı Əliyevanın imzası olduqca nadirdir. Çox gözəl əl yazısıdır. Onlar Bülbülün ev-muzeyində ayrı-ayrı vaxtlarda olsalar da, hər ikisi öz xatirə yazısını qeyd etməyi unutmayıblar və mən hər zaman İlham Heydər oğluna deyirəm ki, biz bu yazıları göz bəbəyimiz kimi qoruyuruq. O, hər zaman mənə və Müslümə (Maqomayev - red.) himayədarlıq edib. Eləcə də yaradıcılıqla məşğul olmağa başlayan hər kəsə kömək göstərib. Özü fortepianoda çox gözəl ifa edirdi. Mən canlı şahidiyəm, Zərifə xanım ifa edirdi, Heydər Əlirza oğlu isə oxuyurdu.

* * *

Azərbaycan və Belarus prezidentləri Cıdır düzündə də oldular. Prezident Aleksandr Lukaşenkoya məlumat verildi ki, Cıdır düzü Şuşanın rəmzlərindən biri, tarixən cıdır yarışlarının və Qarabağ xanlığı dövründən yerli türk əhalinin Novruz bayramını və digər el şənliklərini keçirdiyi ərazidir.

*Ardı 6-cı səh.*

◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

# Qarabağın növbəti ali qonağı Belarus prezidenti oldu

## Şuşa şəhəri ilə tanışlıq Belarus Prezidentində dərin təəssürat doğurub






*Əvvəli 5-ci səh.*

Daha sonra dövlət başçıları Şuşa qala divarlarını ziyarət etdilər.

Belarus Prezidentinə Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verildi. Bildirildi ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq rəmzi olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko Şuşada birgə nahar etdilər.

* * *

Qeyd edək ki, ali qonaqların Qarabağa səfərləri artıq ənənə halını alıb. Bu, qonaqlara işğalçının törətdiyi vandalizm aktlarını, Azərbaycan dövlətinin quruculuq siyasətini və sülh gündəliyini nümayiş etdirmək imkanı verir.

Mədəniyyət paytaxtı Şuşa ilə tanışlıq Belarus Prezidentində dərin təəssürat doğurub.





## Belarus Prezidentinin Azərbaycana dövlət səfəri başa çatıb

**Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycan Respublikasına dövlət səfəri mayın 17-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Aleksandr Lukaşenkonu Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və digər rəsmi şəxslər yola saldılar.



# Baş nazir Əli Əsədov Efiopiya Baş nazirinin müavini ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 16-da Efiopiya Federativ Demokratik Respublikası Baş nazirinin müavini Temesgen Tirunehin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanın Afrika dövlətləri, o cümlədən Efiopiya ilə əlaqələrin inkişafına əhəmiyyət verdiyi bildirilib. İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlıqdan məmnunluq ifadə olunub.

İkitərəfli səviyyədə münasibətlərin möhkəmləndirilməsi üçün mövcud imkanlardan istifadə edilməsinin önəmi vurğulanaraq, xüsusilə dövlət xidmətlərinin göstərilməsi və sosial innovasiyalar sahəsində əməkdaşlığın son vaxtlar yaxşı dinamika nümayiş etdirdiyi qeyd olunub.

Efiopiya Baş nazirinin müavininin səfəri çərçivəsində imzalanmış və "ASAN xidmət" konsepsiyası əsasında bu ölkədə dövlət xidmətlərini həyata keçirəcək mərkəzlərin yaradılmasını nəzərdə tutan Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Görüşdə Azərbaycan-Efiopiya əlaqələrinin bir sıra istiqamətlərdə genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

# Milli Məclislə Parlamentlərarası İttifaq arasında memorandum imzalanıb

**İsveçrənin Cenevrə şəhərində Azərbaycan Respublikası Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində Parlament görüşünün təşkili ilə əlaqədar Anlaşma Memorandumu imzalanıb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sənədi Milli Məclisin Sədri Sahibə Qafarova və Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq imzalayıblar.

İmzalanma mərasimində çıxış edən Milli Məclisin Sədri imzalanan sənədin əhəmiyyətini qeyd edərək deyib ki, Parlament görüşü COP29 çərçivəsində keçiriləcək tədbirlərə parlament platformasında dəstək verəcək. Onun sözlərinə görə, bu tədbir parlamentarilərə fikir mübadiləsi aparmağa və iqlim dəyişikliyi ilə mübarizədə təkliflərlə və yeni fikirlərlə çıxış etməyə imkan verəcək. Spiker Azərbaycan Milli Məclisi və Parlamentlərarası İttifaqın birgə səyləri ilə görüşün yüksək səviyyədə keçiriləcəyinə əminliyini bildirib.

Azərbaycanın COP29 kimi mötəbər tədbirə evsahibliyi etməkdən qürur duyduğunu söyləyən spiker Sahibə Qafarova qeyd edib ki, bu, ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə təkcə milli deyil, həm də regional və qlobal miqyasda göstərdiyi səylərin tanınmasının göstəricisidir.

Martin Çunqonq Azərbaycana səfəri və Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırladaraq, verdiyi dəstəyə görə Azərbaycanın dövlət başçısına təşəkkür edib. O, bu sənədin Milli Məclis ilə aparılan danışıqlar nəticəsində ərsəyə gəldiyini bildirərək, Parlament görüşünün parlament diplomatiyası və qlobal çağırışlara qarşı birgə mübarizə baxımından da tarixi bir hadisə olacağını söyləyib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Azərbaycan BMT və onun institutları ilə yaxından əməkdaşlıq edir

**Mayın 17-də Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Təşkilat Komitəsinin 1-ci iclasında iştirak etmək məqsədilə Cenevrədə işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova BMT-nin Cenevrədəki Ofisinin Baş direktoru Tatyana Valovaya ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata əsasən, BMT-nin Cenevrədəki Ofisində "Azərbaycan otağı"nda keçirilən görüşdə bu təşkilatla ölkəmiz arasında münasibətlərə dair müzakirələr aparılıb. Qeyd edilib ki, Azərbaycan BMT və onun institutları ilə yaxından əməkdaşlıq edir. Görüşdə müasir qlobal çağırışların həllində parlament ölçüsünün əhəmiyyəti diqqətə çatdırılıb.

"Azərbaycan otağı"nın Heydər Əliyev Fondu tərəfindən bərpa olunduğu vurğulanaraq, fondun çoxşaxəli fəaliyyəti yüksək qiymətləndirilib, o cümlədən Heydər Əliyev Fondunun BMT-nin layihələrində fəal iştirakı təqdir edilib.

Söhbət zamanı Milli Məclisin Sədri bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 haqqında da məlumat verib. O, ölkəmizin belə mühüm beynəlxalq tədbirə evsahibliyi etməsinin Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə göstərdiyi səylərin tanınmasının nəticəsi olduğunu diqqətə çatdırıb. Sahibə Qafarova bu sessiya çərçivəsində Parlamentlərarası İttifaqla Milli Məclisin birgə təşkilatçılığı ilə keçiriləcək parlament konfransı haqqında da məlumat verib.

Spiker Sahibə Qafarova qarşı tərəfə Azərbaycan parlamenti və onun beynəlxalq fəaliyyəti haqqında da danışıb. Həmçinin İsveçrəyə səfər və Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Təşkilat Komitəsinin 1-ci iclası haqqında məlumat verib.

Görüşdən məmnunluğunu bildirən BMT-nin Cenevrədəki ofisinin Baş direktoru Tatyana Valovaya Azərbaycanın BMT üçün bir sıra istiqamətlərdə əməkdaşlıq baxımından mühüm tərəfdaş olduğunu diqqətə çatdırıb.

Bakıya səfərini və səfər çərçivəsində keçirdiyi görüşləri, o cümlədən, Milli Məclisin Sədri Sahibə Qafarova ilə görüşünü məmnunluqla xatırlayan Tatyana Valovaya, bu təşkilatla Azərbaycan arasında münasibətlərə dair faydalı müzakirələr apardığını bildirib.

Baş direktor Azərbaycanın COP29-a evsahibliyi etməsindən məmnunluğunu ifadə edərək, ölkəmizin "yaşıl enerji" sahəsində atdığı uğurlu addımların əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Görüşdən sonra Milli Məclis Sədrinin başçılıq etdiyi parlament nümayəndə heyəti Azərbaycanın BMT-yə üzv qəbul edilməsinin 25-ci ildönümü münasibətilə BMT-nin Cenevrə Bölməsində Millətlər Sarayının qarşısında yerləşən Ariana parkında ucaldılan "Düşüncələr və arzular" adlı abidəyə baş çəkib.

*"Azərbaycan"*

# Azərbaycan və Ermənistan parlament sədrlərinin növbəti görüşü keçirilib

**2024-cü il mayın 16-da Cenevrədə keçirilən Parlament Sədrlərinin VI Ümumdünya Konfransının Təşkilat Komitəsinin 1-ci İclası çərçivəsində Azərbaycan və Ermənistan parlamentlərinin sədrlərinin ikinci görüşü keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqları fonunda iki ölkənin parlamentlərinin sülh prosesinə necə dəstək verə biləcəyi ilə bağlı məsələlərin müzakirəsi davam etdirilib.

Görüş konstruktiv atmosferdə keçib. Tərəflər parlamentlər arasında dialoqun davam etdirilməsi barədə razılığa gəliblər.

*"Azərbaycan"*

# Siyasi partiyalarla dövlət orqanlarının konstruktiv əməkdaşlığının inkişaf etdirilməsi məsələləri müzakirə olunub





Siyasi partiyalarla dövlət orqanları arasında konstruktiv əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məqsədilə Prezident Administrasiyası tərəfindən Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Hesablama Palatasının, Ədliyyə və Maliyyə nazirliklərinin, habelə 25 siyasi partiyanın nümayəndələrinin iştirakı ilə mayın 16-da görüş təşkil olunub.

Bu barədə AZƏRTAC-a verilən məlumatda qeyd olunur ki, görüşdə çıxış edən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev dövlət siyasətində demokratik prinsip və dəyərlərə daim sadiq qalan Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı olaraq müxtəlif siyasi qüvvələr arasında konstruktiv əməkdaşlıq, sağlam siyasi dialoq və ümummilli məsələlərdə həmrəylik mühitinin təşviq olunduğunu bildirib, bu istiqamətdə indiyədək görülmüş çoxsaylı işlər barədə ətraflı məlumat verib.

Şöbə müdiri siyasi partiyaların cəmiyyətdə artan rolunu ölkəmizdə formalaşmaqda olan yeni siyasi konfiqurasiyanın əsas elementlərindən biri kimi xüsusi vurğulayaraq təşkil olunmuş görüşün, həmçinin siyasi partiyaların mövcud potensialının dövlət siyasətinin və ictimai münasibətlərin daha da inkişafına yönəldilməsi imkanlarının genişləndirilməsinə xidmət etdiyini bildirib. Ə.Vəliyev sağlam əməkdaşlığın, milli həmrəyliyin sabitliyi və dayanıqlı inkişafı təmin edən amillərdən olduğunu diqqətə çatdırıb.

Sonra tədbirdə müxtəlif dövlət orqanlarının nümayəndələri çıxış edərək "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələlər barədə təmsil etdikləri orqanların aidiyyəti üzrə gördüyü işlər haqqında məlumat veriblər. Ədliyyə Nazirliyinin nümayəndəsi siyasi partiya üzvlərinin reyestrinin aparılması, siyasi partiyalarla iş üzrə fərdi kabinetdən istifadə, qanunvericiliyin pozulmasına görə məsuliyyət; Maliyyə Nazirliyinin nümayəndəsi siyasi partiyalarda mühasibat uçotunun aparılması, siyasi partiyalara dövlət maliyyə yardımının ayrılması; Mərkəzi Seçki Komissiyasının nümayəndəsi siyasi partiyaların maliyyə hesabatı, siyasi partiyalar tərəfindən ianələrin qəbul olunması; Hesablama Palatasının nümayəndəsi isə siyasi partiyalara dövlət büdcəsindən ayrılmış maliyyə yardımının xərclənməsinin yoxlanılması kimi məsələlərə aydınlıq gətiriblər.

Daha sonra siyasi partiyaların nümayəndələri çıxış edərək müzakirə olunan mövzulara münasibətlərini bildiriblər. Cəmiyyəti narahat edən məsələlərin daha təkmil həlli yollarının müəyyənləşdirilməsində siyasi partiyaların mühüm rol oynaya biləcəyi nəzərə çatdırılaraq milli maraqlar və milli birliyin qorunması naminə ölkənin bütün vətənpərvər və intellektual qüvvələrinin səfərbər olmasının vacibliyi, habelə mövcud dialoq mühitinin qorunub saxlanılmasının əhəmiyyəti vurğulanıb.

Tədbir dövlət orqanlarının təmsilçiləri tərəfindən siyasi partiya nümayəndələrinin çoxsaylı suallarının cavablandırılması və müzakirələrlə davam edib.

İştirakçılar bu qəbildən olan tədbirlərin mütəmadi təşkilinin və hər bir siyasi qüvvənin belə təşəbbüslərdə fəal iştirak etməsinin faydalı olacağını diqqətə çatdırıblar.

Tədbirdə aşağıdakı siyasi partiyaların nümayəndələri iştirak ediblər:

*Yeni Azərbaycan Partiyası*
*Vətəndaş Həmrəyliyi Partiyası*
*Ana Vətən Partiyası*
*Ədalət, Hüquq, Demokratiya Partiyası*
*Böyük Quruluş Partiyası*
*Demokratik İslahatlar Partiyası*
*Vəhdət Partiyası*
*Azərbaycan Demokratik Maarifçilik Partiyası*
*Milli Cəbhə Partiyası*
*REAL Partiyası*
*Haqq Ədalət Partiyası*
*Azərbaycan Milli İstiqlal Partiyası*
*Azərbaycan Ümid Partiyası*
*Azərbaycan Demokrat Partiyası*
*Azərbaycan Xalq Partiyası*
*Böyük Azərbaycan Partiyası*
*Ədalət Partiyası*
*Klassik Xalq Cəbhəsi Partiyası*
*Milli Dirçəliş Hərəkatı Partiyası*
*AĞ Partiyası*
*Azad Vətən Partiyası*
*Müasir Müsavat Partiyası*
*Gələcək Azərbaycan Partiyası*
*Yeni Zaman Partiyası*
*Müsavat Partiyası.*

# İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı dinlənilib

**Mayın 17-də keçirilən Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı müzakirəyə çıxarılıb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc tədbiri açaraq bildirib ki, insan alverinə aid olan cinayətlər formasına görə cinsi istismar, məcburi əmək, məişət köləliyi, orqan alveri, məcburi cinayət və dilənçilik hesab olunur. Bu cinayət növünə qarşı mübarizə üzrə öhdəliklərə onun qarşısının alınması, qurbanlara yardım və onların müdafiəsi, cinayətkarların təqibi, beynəlxalq əməkdaşlığın həyata keçirilməsi aiddir.

Komitə sədri çıxışında insan alveri ilə mübarizə sahəsində bir sıra risk faktorlarından bəhs edib, bəzi statistik rəqəmləri nəzərə çatdırıb.

İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı barədə fikirlərini açıqlayıb.

Sonra Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Həzi Aslanov İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatını təqdim edib. İdarə rəisi ölkəmizdə insan alverinə qarşı hərtərəfli mübarizə üçün əlverişli mexanizmin yaradıldığını, İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət planlarının uğurla icra edildiyini söyləyib. O, illik məlumatın Ağır Cinayətlər məhkəmələrinin, Baş Prokurorluğun, Ombudsman Aparatının, beynəlxalq təsisatların, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, Daxili İşlər Nazirliyinin struktur qurumlarının müvafiq sahə üzrə Milli Fəaliyyət Planından irəli gələn tədbirlərin yerinə yetirilməsinin və apardıqları monitorinqlərin nəticələri, təhlilləri nəzərə alınmaqla hazırlandığını deyib. Qeyd edib ki, məlumatda insan alverinə qarşı mübarizə fəaliyyəti ilə bağlı qanunvericilik, profilaktika, maarifləndirmə, təlim və treninqlər, beynəlxalq əməkdaşlıq, məcburi əməyin qarşısının alınması sahəsində tədbirlər, cinayət təqibi və qurbanlarla iş qarşıda duran vəzifələr kimi istiqamətlərdə görülən işlər öz əksini tapıb.

DİN-in idarə rəisi insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə cəlb olunması sahəsində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri barədə məlumat verib.

Müzakirələrdə deputatlar Fəzail Ağamalı, Azay Quliyev, Elman Nəsirov, Naqif Həmzəyev, Tural Gəncəliyev, Elşad Mirbəşiroğlu, Əminə Ağazadə, Bəhruz Məhərrəmov, Kamal Cəfərov və qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxış ediblər. Çıxışlarda ölkəmizdə insan alverinə qarşı mübarizə sahəsində görülən işlər, əldə edilən nailiyyətlər təqdirəlayiq hesab olunub.

DİN-in İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Həzi Aslanov qaldırılan məsələlərə münasibət bildirib.

İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin bəyanatı

**Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi 2024-cü il mayın 16-da Lüksemburqun Deputatlar Palatasının qərəzli və obyektivlikdən uzaq qətnamə qəbul etməsinə qəti etirazını bildirir və ölkəmizi hədəf alan bu hərəkəti şiddətlə qınayır.**

Sözügedən qətnamədə Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı həqiqət və faktlar nəzərə alınmamış, regionda mövcud olmuş münaqişənin kökündə dayanan Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qoyulması tamamilə diqqətdən kənar buraxılmışdır. Ermənistanın ölkəmizə qarşı 30 il ərzində törətdiyi hərbi işğal nəticəsində 4000-ə yaxın itkin düşmüş azərbaycanlının aqibətinin gözardı edilərək, itkin düşmüş ermənilərin vurğulanması ölkəmizə qarşı sərgilənən ikili standartların bariz nümunəsidir.

Eyni zamanda Azərbaycanın 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin məram və məqsədləri təhrif edilərək, ölkəmizə qarşı əsassız iddialar səsləndirilmişdir. Bu mənada, həmin tədbirlərin Azərbaycana qarşı davam edən hərbi təhdidlərin aradan qaldırılmasına və qanunsuz hərbi birləşmələrin mövcudluğuna son qoyulmasına yönəldiyi qətiyyən nəzərə alınmamışdır. Həmçinin Qarabağ regionunun erməniəsilli sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyası istiqamətində atılan uğurlu addımlara lazımi qiymət verilməmiş və regiondakı gələcək davamlı sülh üçün əlavə maneələr yaradılmışdır.

Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesinin irəliyə aparılması üçün tədbirlərin görüldüyü, ikitərəfli danışıqlar formatının müsbət şəkildə irəlilədiyi, xüsusən sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində uğurlu nəticələrin əldə edildiyi dövrdə Lüksemburq Deputatlar Palatasının və onun havadarlarının məqsədi həmin ikitərəfli danışıqlar formatını və sülh prosesini pozaraq regiona müdaxilə etməkdir.

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi olaraq, ölkəmizə qarşı nümayiş etdirilən bu ədalətsiz yanaşmanı qətiyyətlə rədd edir və bunu Lüksemburq Deputatlar Palatasının daxilində reallığı dərk etmək qabiliyyətinin və istəyinin olmamasının bariz nümunəsi kimi qəbul edirik.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## XİN: Fransa tərəfi Azərbaycanla bağlı son açıqlamasına görə üzr istəməlidir

**Fransa tərəfindən Azərbaycana qarşı səslənmiş bu kimi fikirlər tamamilə qəbuledilməzdir və tərəfimizdən qətiyyətlə rədd olunub.**



İnsan hüquqlarının kobud şəkildə pozulduğu, baş verən iğtişaşlar zamanı aksiyaçıların öldürüldüyü, islamofobiya və müsəlmanlara qarşı hücum hallarının, eləcə də antisemitizmin geniş yayıldığı Fransadan fərqli olaraq, Azərbaycanda fundamental hüquq və azadlıqlar tam təmin edilir.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə Fransanın daxili işlər naziri Jerar Darmanin tərəfindən Azərbaycanın diktatura adlandırılması ilə bağlı yerli medianın sualına cavabında deyib.

O bildirib ki, Azərbaycan müstəqilliyini bərpa edəndən bəri daim demokratik dəyərlərə sadiq cəmiyyət kimi formalaşıb və inkişaf edib. Azərbaycan müxtəlif etnik və dini mənsubiyyətə mənsub insanların mehriban, təhlükəsiz şəraitdə yaşadığı ölkədir. Fransa tərəfi bu açıqlamaya görə üzr istəməlidir. Əks təqdirdə, bu, Azərbaycan-Fransa münasibətlərinə daha mənfi təsirlərə gətirib çıxaracaq.

## Fransa milyonlarla insanın həyatına qəsd edib

### Rəsmi Paris müstəmləkəçilik siyasətini bu günə qədər davam etdirir



**"Fransanın daxili işlər naziri özünə yaraşmayan müsahibə verib. Nazir Azərbaycanı guya ermənilərə qarşı soyqırımı həyata keçirməkdə ittiham edir".**

Milli Məclisin deputatı Anar İsgəndərov qəzetimizə açıqlamasında deyib ki, ermənilər Qarabağı tərk edərkən heç bir təcavüzə məruz qalmadıqlarını və könüllü şəkildə getdiklərini etiraf ediblər. Hətta ərzaqla, yanacaqla bağlı çətinlikləri olanda Azərbaycan tərəfinə müraciət ediblər və qarşılığını alıblar. Yüzlərlə televiziya kanalı ermənilərin Azərbaycan torpaqlarından çıxıb getmələrini kadra alıb, bunların heç birində Fransanın daxili işlər nazirinin iddialarına aid heç nə yoxdur. "Nazir iddia edir ki, Azərbaycan tərəfi guya Yeni Kaledoniyada yerli əhalinin fransızlara qarşı qızışdırılmasında iştirak edir. Əvvəla, sual yaranır: Fransa niyə Yeni Kaledoniyanı müstəmləkə şəklində saxlayır ki, əhali də ona qarşı çıxır? Hansı demokratik dövlət müstəmləkəçilik siyasətini bu günə qədər davam etdirir?" - deyə deputat əlavə edib.

A.İsgəndərov vurğulayıb ki, Fransa Afrikadakı ölkələri işğal etməklə milyonlarla insanın həyatına son qoyub və yaxud onlara işgəncə verib. Fransanın demokratiyadan danışmağa haqqı yoxdur. Mərakeşdə, Əlcəzairdə qanlı hadisələr törətdiklərinin, öldürdükləri müsəlmanların sayı-hesabı yoxdur. Fransa bununlamı öyünür? Fransanın Azərbaycanla bağlı dedikləri böhtandan başqa bir şey deyil. Bu ölkə Ermənistanı sanki qucağına alaraq onun üçün ağlayır. Azərbaycan torpaqları hesabına Ermənistanı böyütmək istəyir. Əgər ermənilərə bu qədər ürəyi yanırsa, Marsel başda olmaqla öz ərazisindən Ermənistana yer versin.

Deputat vurğulayıb ki, Fransa Azərbaycan cəmiyyətinin artıq ötən əsrin 90-cı illərinin xalqı olmadığını dərk etməlidir: "Bilməlidir ki, bu gün güclü, qalib Azərbaycan var. Azərbaycanın yolu haqq yoludur. Xalq bunu birmənalı olaraq dərk edir. Prezident İlham Əliyev heç bir dövlətin təhdidini qəbul etmir, qəbul etmək fikrində də deyil. Xalq da dövlət başçısının yanındadır və öz rəhbəri ilə fəxr edir".

A.İsgəndərov bildirib ki, Fransa kənardan nə qədər danışsa da, böhtan atsa da, bunların heç bir əhəmiyyəti yoxdur, çünki hamısı qarayaxmadır. Bu gün ermənilər də dərk edirər ki, iki qonşu dövlət arasında münasibətlərin tənzimlənməsi üçün üçüncü tərəfə ehtiyac yoxdur. Hətta vasitəçiyə ehtiyac olarsa belə, Fransa kimi ədalətsiz dövlət bu danışıqlarda iştirak edə bilməz.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Cinayətkar və işğalçı ölkə

### Yeni Kaledoniyada kanak xalqına qarşı törətdiyi əməllərə görə Fransanı başqa cür adlandırmaq mümkün deyil

**Dünyada Fransa kimi əli milyonlarla insanın qanına batan, silsilə qətliamlar törədən ikinci bir dövlət tapmaq mümkün deyil. Ən dəhşətlisi isə odur ki, Fransa bu gün də müstəmləkəsi altında saxladığı xalqların fundamental hüquqlarını kobud şəkildə pozur, azadlıq istəyənləri həbs edir, öldürür, həmçinin islamofob, türkofob, irqçi, antisemit siyasət yürüdür.**



Özünü insani dəyərlərə, xalqların müqəddəratlarına önəm verən ölkə kimi göstərən Fransa hazırda Yeni Kaledoniyada kanak xalqına divan tutur, qanlı əməllər törədir. Fransa hökumətinin ordunu adaya yeritməsi nətisəsində artıq 10-a yaxın kanak öldürülüb, 200-ə yaxın insan yaralanıb.

Kanak xalqının müstəqillik tələbini qanla boğmağa çalışan Makron hakimiyyətinin bütün baş verənlərə görə Azərbaycanı suçlaması, iftiralar atması isə sözün əsl mənasında bir ayrı yaramazlıqdır.

### Parisin iyrənc ssenarisi

Uzun illərdir ki, Fransa hökuməti minlərlə miqrantı qanunsuz yolla Yeni Kaledoniyaya yerləşdirərək yerli sakin olan kanakları assimilyasiya edir və bu yolla adanı müstəmləkəsi altında saxlamağa çalışır. Azadlıq istəyən kanakları azlığa çevirmək üçün hazırda Makron hakimiyyəti Yeni Kaledoniya Konqresinin və xalqının iradəsinə zidd olaraq, bu ölkənin seçki qanunvericiliyini dəyişmək qərarına gəlib. Fransa hökuməti miqrantlara səs hüququ verməklə ölkənin əsarətdə saxlanılmasına dair referendumda üstünlük qazanmağa çalışır.

Burada bir paralel aparmaq yerinə düşər ki, Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu dönəmdə məhz Fransanın dəstəyi ilə Suriyadan və digər ölkələrdən olan ermənilər qanunsuz olaraq Qarabağa yerləşdirilir, onların yerli sakinlər kimi qələmə verilməsinə çalışılırdı. Amma Azərbaycanın qələbələri ilə Parisin bu çirkin niyyəti yerlə bir edildi.

Fransa indi də eyni iyrənc ssenarini Yeni Kaledoniyada tətbiq edir, burada seçki kütləsinin sayının qanunsuz genişləndirilməsinə çalışır. Kanakların dəfələrlə etdikləri xəbərdarlıqlara, dialoq çağırışlarına baxmayaraq, hökumət layihəni artıq Fransa Parlamentinin hər iki palatasında zorla qəbul etdirib və hazırda Yeni Kaledoniya xalqının boynuna son əsarət ilgəyini atmağı planlaşdırır.

Ancaq kanak xalqı əsarətdən, Fransa zülmündə əzilməkdən qurtulmaq üçün ayağa qalxıb haqq səsini ucaldır, etirazlar edir, Yeni Kaledoniyaya aid qərarların kaledoniyalıların iştirakı olmadan qəbul edilməsini əsla tanımayacaqlarını bildirir.

Fransa isə kanak xalqının hüquqlarına hörmət etməyərək ordunu adaya yerləşdirib və etirazları yatırmaq üçün gücdən istifadə edir. Həmçinin Yeni Kaledoniyada törətdiyi vəhşilikləri örtbasdır etmək üçün sosial şəbəkələri bağlayır.

Azərbaycanda zərrəbinlə insan hüquqlarına dair pozuntu axtaran, olmayan "erməni problemləri"ni şişirdərək dünyaya üfürən "azad" fransız mediası isə Yeni Kaledoniyada olanlara susur və qanına-qəltan edilən kanakları görməzdən gəlir.

### Fransa üzr istəməlidir

Fransa Yeni Kaledoniyada baş verənlərə görə Azərbaycanın ünvanına absurd iddialar səsləndirir. Fransanın daxili işlər naziri Jerar Darmanin mayın 16-da "France-2" telekanalına müsahibəsində ölkəmizi iğtişaşlara "müdaxilə etməkdə" ittiham edib.

"Fransa tərəfindən Azərbaycana qarşı səslənmiş bu kimi fikirlər tamamilə qəbuledilməzdir və tərəfimizdən qətiyyətlə rədd edilib".

Bu sözləri Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə Fransanın daxili işlər naziri Jerar Darmanin tərəfindən ölkəmizin diktatura adlandırılması ilə bağlı fikrinə cavabında bildirib.

Qeyd edib ki, insan hüquqlarının kobud şəkildə pozulduğu, baş verən iğtişaşlar zamanı aksiyaçıların öldürüldüyü, islamofobiya və müsəlmanlara qarşı hücum hallarının, eləcə də antisemitizmin geniş yayıldığı Fransadan fərqli olaraq Azərbaycanda fundamental hüquq və azadlıqlar tam olaraq təmin edilir.

Azərbaycan müstəqilliyini bərpa edəndən etibarən daim demokratik dəyərlərə sadiq olan ölkə kimi formalaşıb və inkişaf edib. Azərbaycan müxtəlif etnik və dini mənsubiyyətə mənsub insanların mehriban və təhlükəsiz şəraitdə yaşadığı ölkədir: "Fransa tərəfi bu açıqlamaya görə üzr istəməlidir. Əks təqdirdə, bu, Azərbaycan-Fransa münasibətlərinə daha mənfi təsirlərə gətirib çıxaracaqdır".

Göründüyü kimi, Paris Yeni Kaledoniyada baş verən faciələrdən diqqəti yayındırmaq üçün manipulyasiyalar edir. Fransalı nazir ağ yalan danışaraq ölkəsinin törətdiyi cinayətləri başqasının boynuna yıxmağa çalışır. Halbuki 50 ildən artıqdır ki, kanak xalqı Fransanın kolonial siyasətinə qarşı hərəkata başlayıb və azadlıq mübarizəsi aparır. Lakin düz yarım əsrdir ki, Fransa bu xalqın hüquqlarını tapdalayaraq, müstəqilliklərinə imkan vermir və bu gün də adanı müstəmləkəsində saxlamaq üçün çirkin siyasət həyata keçirir, kanakların arzusu xilafına qanunlar qəbul edir.

### Müstəmləkə əməlləri ifşa olunur

Fransanın müstəmləkə əməlləri Bakı tərəfindən dünyada ifşa olunur. Bakı Təşəbbüs Qrupu XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə xüsusi dəstək verir. O cümlədən Yeni Kaledoniyada Makron hakimiyyətinin zülmünün dünyaya çatdırılmasına da BTQ öndərlik edir, kanak xalqının haqq səsini dünyaya çatdırır.

Bakı Təşəbbüs Qrupu Yeni Kaledoniyada kanakların həbs olunması və mülki şəxslərə qarşı zorakılığa dair bu il mayın 14-də bəyanat verib. Fransa hökumətindən kanak xalqının qərarının nəzərə alınmasını tələb edib.

Daha sonra, mayın 16-da BTQ və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinik, Qvadelupa və Korsikadakı müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat birgə bəyanat yayıb. Fransa tərəfindən Kanaki - Yeni Kaledoniyada seçki kütləsinin genişləndirilməsi lehinə qanunsuz dəyişikliyin zorla tətbiq edilməsi pislənilib, müstəqillik uğrunda ədalətli mübarizəsində kanak xalqına tam dəstək ifadə olunub: "BMT üzv dövlətlərini BMT Təhlükəsizlik Şurası vasitəsilə həyəcan təbili çalmağa, habelə bu ali qurumun toplaşaraq Fransa tərəfindən beynəlxalq hüququn pozulmasını pisləməsinə çağırış edirik!"

Göründüyü kimi, Fransa müstəmləkəçilik siyasətindən əl çəkməyərək artıq uzun müddətdir ki, müstəqilliyi uğrunda mübarizə aparan Yeni Kaledoniyanın azadlığını təmin etmir. Kanak xalqına qarşı zor tətbiq edir, azadlıq səsini ucaldanları öldürür.

Bununla bir daha sübut edir ki, tarixi soyqırımlar üzərində qurulan bu ölkə keçmiş iyrənc kolonializm siyasətini bu gün də davam etdirir.

Özünü "demokratiya beşiyi" adlandıran Fransa törətdiyi bu cinayətlərə, vəhşi əməllərə görə beynəlxalq hüquq qarşısında mütləq cavab verməlidir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Qərb utancverici işlərindən dərs almalıdır

**Mayın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin Şuşaya qayıdan ilk sakinlərə mənzillərin açarlarının təqdim etməsi mərasimində iştirakı və çıxışı nəinki Cənubi Qafqazda, dünyanın bir çox ölkələrində maraqla qarşılanıb. Görüş birbaşa televiziya ekranlarına çıxarılmaqla, analitik verilişlərə də geniş yayıldı.**





Fransanın Ermənistandakı səfiri Olivier Dekotini bir neçə gün əvvəl "Azadlıq" radiosunun erməni xidmətinə müsahibəsində Azərbaycana qarşı əsassız iddialar səsləndirmişdir. Fransa rəsmisi Bakını guya bölgədə aqressiv siyasət aparmaqda, Ermənistana təcavüz etməyi planlaşdırmaqda ittiham etmişdi. O, hətta Ermənistanın bunun qarşısını almaq üçün İrəvana hərbi texnika və silah göndərəcəyini də bildirmişdir.

Dövlətimizin başçısı həmişə olduğu kimi, Şuşada sakinlərlə görüşündə ölkəmizə qarşı haqsız siyasət yürüdən Qərbə, xüsusilə Fransaya mühüm mesajlar verdi, rəsmi Parisin Ermənistanı silahlandırması məsələsinə də toxundu.

Danılmaz həqiqətdir ki, dünyanın hansı qütbündən baxırsansa, bax: görünən odur ki, bu gün Cənubi Qafqazda əsas proseslərin müəllifi və istiqamətvericisi Azərbaycandır. Çünki Azərbaycan Prezident İlham Əliyevin müəllifliyi ilə regiondakı reallıqların əsas yaradıcısıdır. Nəyin necə baş verdiyini və ya verəcəyini dövlət başçısı özü müəyyənləşdirir və vaxtaşırı olaraq çıxışlarında buna yer verməklə həm də ictimaiyyətin ehtiyac duyduğu informasiyanı dolğunluğu ilə təmin edir. Mayın 10-da dövlətimizin başçısı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olduğu gündə Şuşada sakinlərlə görüşündə də bir çox məsələlərə toxunmaqla ictimai rəyi bir daha aydınlatdı. Dövlət başçısı çıxışında II Qarabağ müharibəsinə toxunaraq bildirdi ki, biz torpaqlarımızın, o cümlədən Şuşanın işğal altında qalması ilə barışmamışdıq və illərdir, bunun üçün hazırlaşırdıq, iqtisadiyyatımızı gücləndirir, güclü ordu potensialı yaradırdıq. Ən önəmlisi isə torpaqlarımızı öz canı-qanı bahasına alan yeni gənc nəsil yetişdirirdik. Və bu gün belə möhtəşəm qələbənin əldə olunmasını, ilk növbədə, şəhidlərimizə, qazilərimizə borcluyuq.

Prezident İlham Əliyev dəfələrlə olduğu kimi, yenə bu problemə toxundu ki, uzun illər mən Prezident kimi çalışırdım ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun və mənim fəaliyyətim göz qabağındadır, onlarla, bəlkə də, yüzlərlə görüşlər keçirilmişdir, danışıqlar aparılmışdır. Amma heç bir nəticə olmamışdır. Səbəbini isə dövlət başçısı belə açıqladı: "Çünki Ermənistan, bir daha demək istəyirəm, bizim torpaqlarımızı əbədi işğal altında saxlamaq istəyirdi. Onların arxasında duran, guya ki, vasitəçilik edən ölkələr isə bu işğalı əbədi etmək istəyirdilər".

Son günlərin ən aktual məsələlərindən olan Qazaxın 4 kəndinin qaytarılması ilə bağlı məsələyə münasibət bildirən Prezident dedi ki, bir tələbimlə Qazaxın dörd kəndi bizə qaytarılır, bax belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar.

Azərbaycan Prezidentinin çıxışında vaxtilə Minsk qrupunun üzvü olmuş Amerika və Fransanın hərəkətlərinə də qiymət verilib. Dövlət başçısı bildirib ki, biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik. Bizə müharibə yox, torpaqlarımız lazım idi. Minsk qrupunun 28 ildəki fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdir. Onların fəaliyyətsizliyi təsadüfi deyildi və məsələni həll etmək istəmirdilər. Çünki bu torpaqları ermənilərə vəd vermişdilər. Necə ki, sovet dövründə ermənipərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqların ermənilərə verilməsinə söz vermişdilər və Fransa da, Amerika da, həmçinin.

Hər iki ölkə arasında sərhəd xətlərinin müəyyənləşdirildiyi dövrdə Prezident İlham Əliyevin növbəti dəfə bu məsələyə toxunması və şərtləri qarşı tərəfə diktə etməsi də xüsusi vurğulanmalıdır: "İkinci Qarabağ müharibəsindən sonra biz Ermənistana demişik ki, gəlin sərhədi ədalətli müəyyən eləyək. Yox, istəmirsinizsə, onda biz deyəcəyik, harada istəyirik orada da sərhəd olacaq. Neyləyəcək, kimə zəng edəcək, lap 100 dəfə zəng etsin, nəticəsi nə olacaq? Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm".

Bu mesaj təkcə Ermənistana yox, həm də qonşu ölkədəki revanşist proseslərə rəhbərlik edən xarici güclərə, eyni zamanda Fransa və Amerikaya ünvanlanmış ən sərt xəbərdarlıqdır. Azərbaycanın dövlət başçısı bu fikirləri hansısa rəsmi dövlət məmurunun və ya medianın dili ilə yox, birbaşa özü çatdırır! Nəticəsinin nə olacağını da xəbərdar edir: burada söz sahibi bizik, bizimlə hesablaşmasalar peşman olacaqlar!

Görünən odur ki, Fransa rəsmilərinin siyasi oyunbazlığı bumeranq effekti yaradacaq. Vaxt gələcək Fransanın Cənubi Qafqazla bağlı xain planları Emmanuel Makron hakimiyyətinin özünə qarşı çevriləcək. Bütün bu reallıqlar fonunda rəsmi Parisin öz aqibəti barədə düşünməsi daha məqsədəuyğun olardı.

*Rəhman SALMANLI, "Azərbaycan"*

## Paris Azərbaycana qarşı gülünc doğuran addımlar atır

**Fransa rəzil hərəkət edərək Azərbaycanı Sakit okeandakı adaların işlərinə qarışmaqda günahlandırır. Bu barədə "Russia-news.ru" saytında məlumat verilir. Azərbaycan hakimiyyəti bununla bağlı hər hansı əlaqəsini və fransızların gülünc bəyanatlarını qəti şəkildə rədd edir və bunun böhtan olduğunu bildirir. Parisin iddiasına görə, Azərbaycan guya Yeni Kaledoniyada yerli, köklü kanak əhalisinin mitinqlərini dəstəkləyir və maliyyələşdirir.**

Xatırladaq ki, Yeni Kaledoniya adalarında Fransadan ayrılma tərəfdarlarının etiraz aksiyaları başlayıb, silahlı qüvvələr yerləşdirilib, ölənlər və yaralananlar var.

Komik açıqlamaları ilə tanınan Paris rəsmiləri iğtişaşlarda guya Bakının əli olduğunu iddia edirlər. Azərbaycan hakimiyyəti nümayişlərlə hər hansı əlaqəni inkar edir. Respublikanın Xarici İşlər Nazirliyi sosial şəbəkələrdə ittihamları "təhqiredici və əsassız bəyanatlar", baş verənləri isə "böhtan kampaniyası" adlandırıb.

"Russia news.ru" saytında "Makron sakitləşməyəcək: Paris Azərbaycan və Rusiyanı Yeni Kaledoniyada keçirilən etiraz aksiyalarında ittiham edib" sərlövhəli yazıda qeyd olunur ki, Fransa Prezidenti Emmanuel Makron özünü dünyaya Rusiyaya qarşı duran "böyük azadlıq döyüşçüsü" olduğunu göstərmək istəyir. O, bu dəfə Rusiya ilə normal münasibət saxlayan Azərbaycanı Yeni Kaledoniyada etiraz aksiyaları təşkil etməkdə ittiham etmək qərarına gəlib.

Xatırladaq ki, Yeni Kaledoniyada baş verən iğtişaşlara səbəb Fransa parlamentinin 10 ildir adalarda yaşayan Fransa sakinlərinin yerli seçkilərdə səs verə və namizədliyini irəli sürə bilməsi ilə bağlı mayın 14-də qəbul etdiyi qərar olub. Lakin yerli əhali olan kanaklar bu qanunla razılaşmadığını bildirib, çünki bu, onların hüquqlarının pozulmasıdır. Amma Paris onların fikrinə məhəl qoymur. Nəticədə kanaklar etiraz etmək üçün küçələrə çıxıblar, lakin polis onlara qarşı güc tətbiq edib. Müstəmləkəçi qarşıdurması ilə bağlı xəbərlərin Fransa üçün xoşagəlməz olduğunu anlayan Makron hər şeydə Moskvanı günahlandırmaq qərarına gəlib.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*



# Belarus daim Azərbaycanın yanında olduğunu nümayiş etdirir

**"Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə dövlət səfəri adından da göründüyü kimi, böyük məna və ciddi əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, dövlət səfərləri işgüzar və rəsmi səfərlərdən daha yüksəkdə dayanır. Bu səfər ikitərəfli münasibətlərimizin və dövlət liderləri arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu göstərir".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat söyləyib ki, səfərlərin əhəmiyyəti ilk növbədə imzalanmış sənədlərdə öz əksini tapır: "Bu səfər çərçivəsində də bir çox sahələr üzrə əməkdaşlığın genişləndirilməsinə və dərinləşdirilməsinə xidmət edən bir sıra sənəd imzalanıb. Görünür, dövlət başçılarının və xalqlarımızın tarixi dostluq əlaqələri nəticə etibarilə ikitərəfli münasibətlərimizin ən yüksək səviyyəyə qalxmasını şərtləndirib. Fundamental məsələlərdə hər iki dövlət, demək olar ki, ortaq mövqedən çıxış edir".

Deputat qeyd edib ki, Lukaşenko Azərbaycanın haqq işini müdafiə etdiyini dəfələrlə bəyan edib: "Azərbaycan da analoji addım ataraq Belarusa Avropa platformalarında dəstək nümayiş etdirib. Yəni iki ölkə arasında dostluq münasibətinin tarixi yeni deyil. Belə olan halda, bu səfər də bütün istiqamətlər üzrə əlaqələrimizin inkişafı üçün yeni imkanlar açır. Prezident İlham Əliyev də vurğuladığı kimi, biz bu gün tarixi zəfərə imza atmış, öz ərazi bütövlüyümüzü və suverenliyimizi əbədi təmin etmiş dövlət kimi işğaldan azad olunmuş torpaqlarımızın bərpasını qarşımızda yeni hədəf qoymuşuq və Belarus dövləti ilə bu istiqamətdə əməkdaşlığın qurulmasında maraqlıyıq. Yeri gəlmişkən, Lukaşenko da Qarabağ və Şərqi Zəngəzurun bərpası kimi şərəfli bir işdə Belarusun dəstəyi olacağından məmnunluğunu ifadə edib".



Elman Nəsirovun sözlərinə görə, Belarus həm İkinci Qarabağ müharibəsi zamanı, həm də postmünaqişə dövründə Azərbaycanın yanında olduğunu nümayiş etdirib. Hər iki dövlət başçısının səfərlə bağlı mətbuata verdiyi bəyanatlarda da bu məqam özünü bir daha təsdiqlədi. Elə bu qarşılıqlı dəstək nümayişi zaman-zaman ölkələrarası əməkdaşlığı gücləndirib. Bunun nəticəsidir ki, qarşıdakı illərdə mövcud əlaqələrin daha da dərinləşdirilməsi üçün səfər çərçivəsində yeni hədəflər müəyyən edilib.

"Belə ki, Lukaşenkonun Bakıya səfəri zamanı əldə edilmiş razılaşmaların icrası ilə bağlı məsələlər diqqət mərkəzində saxlanılacaq. Azərbaycanla Belarus arasında onsuz da yüksək səviyyədə olan ticarət dövriyyəsi, eləcə də nəqliyyat əlaqələri bundan sonra daha da inkişaf etdiriləcək. Həmçinin iki dövlət arasında birgə müəssisələrin təşkili işinə baxılacaq, maşınqayırma və digər sahələrdə təcrübə mübadiləsi aparılacaq. Bundan başqa, hərbi sənaye sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət ayrılacaq", - deyə müsahibimiz bildirib.

Deputat sonda vurğulayıb ki, bu səfər Azərbaycan-Belarus münasibətlərinin inkişafı ilə bağlı atılmış addımların təhlili və qiymətləndirilməsi, eləcə də bundan sonra atılacaq addımların müəyyən edilməsi baxımından əlamətdardır: "Dövlət başçılarının iki ölkə arasındakı münasibətlərin indiki səviyyəsindən razılığını ifadə etmələri də sevindirici haldır. Biz bir daha şahidi olduq ki, Azərbaycanla Belarusun dostluğu, qardaşlığı və strateji tərəfdaşlığı geniş potensiala malikdir".

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

# Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında əməkdaşlıq genişlənir

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Türk Dövlətləri Təşkilatının (TDT) ailə və sosial siyasətdən məsul nazir və digər qurum rəhbərlərinin birinci iclasında iştirak edib.**



"Qloballaşan dünyanın risklərinə qarşı: Ailəmiz gələcəyimizdir" mövzusunda İstanbul şəhərində keçirilən iclasın məqsədi türk dünyası ölkələrində ailənin qorunması və gücləndirilməsi istiqamətində əməkdaşlığın inkişaf etdirilməsidir.

İclasda çıxış edən Bahar Muradova türk dövlətlərinin daha möhkəm birliyi naminə təşkilatın fəaliyyətinə uğurlar arzu edib.

300 milyona yaxın insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edən türk dünyasının bir yumruq kimi birləşməsinin gərəkli olduğunu vurğulayan komitə sədri onu da əlavə edib ki, vaxtilə Ümummilli Lider Heydər Əliyev tərəfindən bütün Zirvə görüşlərində bu mövzu gündəmə gətirilib. Bu gün isə Prezident İlham Əliyevin fəaliyyətində türkdilli ölkələr arasında birliyin və koordinasiyanın artırılmasına böyük səy göstərildiyinin şahidi oluruq.

Bölgədəki Türkiyə-Azərbaycan tandeminə diqqət çəkən B.Muradova Qarabağın baş tacı olan Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsinin iki ölkə arasındakı qardaşlığı yeni bir mərhələyə qaldırmaqla yanaşı, bütövlükdə türk dövlətləri üçün də bir yol xəritəsi olduğunu deyib. Türk Dövlətləri Təşkilatının yalnız regional deyil, həm də daha geniş ərazi və ölkələrin maraq dairəsində olan çoxtərəfli əməkdaşlıq formatı kimi nüfuz qazandığını vurğulayan komitə sədri qurucu ölkələrdən biri kimi Azərbaycanın üzv və müşahidəçi ölkələrlə birgə məqsəd və qarşıdakı hədəflər uğrunda çalışdığını da əlavə edib.

O, TDT daxilində əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi, bu sıraya ailə və sosial siyasət mövzusunun daxil edilməsilə kollektiv səyləri və müxtəlif əhali qruplarına xidmət sahələrini hədəfləyən mövzularda tərəfdaşlığın gücləndirilməsinin dəstəkləndiyinə diqqət çəkib.

Çıxışının sonunda Azərbaycanın bu il COP29-a evsahibliyi etməsinə diqqət çəkən B.Muradova, böyük türk ailəsinin sağlam təməllər üzərində möhkəmlənməsi işinə töhfə vermək məqsədilə həyata keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə təkliflərini səsləndirib.

İclasda TDT-nin digər üzv və müşahidəçi dövlətlərinin çıxışları dinlənilib.

Yekunda Türk Dövlətləri Təşkilatının ailə və sosial siyasətdən məsul nazir və digər qurum rəhbərlərinin birinci iclasının Deklarasiyası qəbul edilib.

Sənəddə növbəti görüşün 2025-ci ildə Azərbaycanda keçirilməsi, eyni zamanda təklif edilən digər məsələlər öz əksini tapıb.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Delimitasiya region üçün xüsusi əhəmiyyət kəsb edir

## Ərazi mübahisələrinin həlli Cənubi Qafqazda daha geniş regional əməkdaşlığa yol açacaq

**"Azərbaycan və Ermənistan arasında sərhədin delimitasiyası prosesinin başlanması həm iki ölkə, həm də Cənubi Qafqaz regionu üçün xüsusi əhəmiyyət daşıyır".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat xatırladıb ki, iki ölkənin baş nazir müavinləri Ermənistan-Azərbaycan sərhədində görüşərək delimitasiya və digər məsələlər üzrə komissiya çərçivəsində işləməyə hazır olduqlarını təsdiq ediblər. Bu görüşdən təxminən iki il sonra 2024-cü il aprelin 23-də Azərbaycanla Ermənistan arasında sərhəddə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq koordinatların dəqiqləşdirilməsi prosesi çərçivəsində ilk dirək basdırılıb. Mayın 15-də iki ölkə arasında sərhəddə Baş nazir müavinləri Şahin Mustafayevin və Mqer Qriqoryanın sədrliyi ilə Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın doqquzuncu görüşü keçirilib. "Görüşün gedişində komissiyalar qəbul edilmiş 2024-cü il 19 aprel tarixli 8-ci görüşün protokoluna uyğun olaraq görülmüş işləri müzakirə edib və Sovet İttifaqı çərçivəsində onun süqutu dövründə mövcud olmuş hüquqi cəhətdən əsaslandırılan respublikalararası sərhədə uyğunlaşdırılması məqsədilə bilavasitə Bağanıs Ayrım (AR) - Bağanis (ER), Aşağı Əskipara (AR) - Voskepar (ER), Xeyrımlı (AR) - Kirants (ER) və Qızılhacılı (AR) - Berkaber (ER) yaşayış məntəqələri arasında sərhəd xəttinin hissələrinin 1976-cı il tarixli topoqrafik xəritəsinə uyğun olaraq yerdəki geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi nəzərə alınmaqla birgə tərtib olunmuş protokol-təsvirini razılaşdırıblar", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Ermənistanın daxilindəki qüvvələr bir həqiqəti dərk etməlidirlər ki, imtina, qarşıdurma, eskalasiya yolu artıq öz gücünü çoxdan itirib: "İndi köçəryanlar, sarkisyanlar azlıqda qalıblar. Onlar elə hesab edirlər ki, hakimiyyəti ələ keçirsələr, köhnə siyasətlərini yenidən həyata keçirmək imkanı qazana biləcəklər. Bu isə qəti şəkildə mümkün deyil. Təkcə ona görə yox ki, Azərbaycan buna heç vaxt imkan verməyəcək, eyni zamanda erməni xalqı da artıq oyanıb. Keçmiş hərbi xuntanın onların başına açdıqları oyunları, hərc-mərclikləri unutmayıblar. Ona görə də onların hakimiyyətə gəlməsinə mümkün qədər imkan verməyəcəklər. Göründüyü kimi, Ermənistanda indiki nəsillərin tələbləri, gözləntiləri başqadır".



K.Bayramov bildirib ki, tanınmış sərhədlər və sabit region hər iki ölkənin ticarət və investisiya imkanlarının artmasına səbəb olacaq: "Transsərhəd əməliyyatlarında daha çox əminlik yaranacaq ki, bu da iqtisadi fəallığın artması ilə nəticələnəcək. Ərazi mübahisələrinin həlli Cənubi Qafqazda daha geniş regional əməkdaşlığa yol açaraq infrastrukturun inkişafı, enerji, turizm və nəqliyyat kimi müxtəlif sektorlarda əməkdaşlıq təşəbbüsləri üçün əlverişli məkan yaradacaq. Aydın və təhlükəsiz sərhədlər regionda nəqliyyat marşrutlarını optimallaşdıraraq Avropa, Asiya və Yaxın Şərqi birləşdirən səmərəli tranzit dəhlizlərini inkişaf etdirəcək. Magistral və dəmir yolları, boru kəmərləri daxil olmaqla sadələşdirilmiş nəqliyyat marşrutları regionu əsas tranzit qovşağına çevirərək əlaqəni və rəqabət qabiliyyətini artıracaq".

Deputat hesab edir ki, bu məsələdə tələsən tərəf Ermənistan olmalıdır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupunun geniş tərkibdə iclası keçirilib

**Mayın 17-də "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupunun yeni rəhbərinin elan edilməsi və "Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi"nin layihəsinin müzakirəsi üzrə iclas keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasda Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyi, işçi qrupunun rəhbəri, Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin, Bakı Apellyasiya Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının əməkdaşları, İqtisadiyyat Nazirliyinin, Mərkəzi Bankın, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Mediasiya Şurasının nümayəndələri və işçi qrupun digər üzvləri, o cümlədən özəl sektorun nümayəndələri iştirak ediblər.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, komissiyanın katibliyinin rəhbəri Vüsal Şıxəliyev açılış nitqi ilə çıxış edərək "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupunun komissiyanın əsas işçi qruplarından biri olduğunu, işçi qrupun ötən illərdəki fəaliyyətində kifayət qədər uğurlu nailiyyətlərin olduğunu, yol xəritələrinin əsasən qanunvericilik aspektindən uğurla icra edildiyini bildirib. Daha sonra o, işçi qrupun yeni rəhbərini iclas iştirakçılarına təqdim edib.

İşçi qrupun rəhbəri, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Strateji planlaşdırma və monitorinq baş idarəsinin rəisi, Məhkəmə-Hüquq Şurasının üzvü Toğrul Hüseynov çıxış edərək, işçi qrupun fəaliyyətində ən son islahatlar, əldə edilmiş nailiyyətlər və qarşıda duran işlər barədə məlumat verib.

İclasın gündəliyinə uyğun olaraq "Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi"nin layihəsinin təqdimatı aparılıb və layihənin müzakirəsi həyata keçirilib, tədbir iştirakçılarının layihəyə dair təklifləri dinlənilib.

Layihədə məhkəmə qərarlarının icrası, bu sahədə şəffaflığın artırılması, məhkəmə sisteminin müxtəlif səviyyələrində kommersiya məhkəmə çəkişmələrinin rəqəmsallaşdırılmasının qiymətləndirilməsi, mübahisələrin alternativ həlli ilə əlaqədar xidmətlər, maarifləndirmə və təbliğat işlərinin aparılması və digər məsələlərlə bağlı tədbirlər nəzərdə tutulub.

Tədbir iclas iştirakçılarının sərbəst çıxışları və işçi qrupun fəaliyyəti üzrə müzakirələr şəklində davam etdirilib və iclasın nəticəsi üzrə qərarlar qəbul olunub.

Qeyd edək ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupuna rəhbərliyi Ədliyyə Nazirliyi həyata keçirir.

# Sərhədlərin delimitasiyası sülhlə bağlı nikbinliyi artırır

**"Mayın 16-da Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası üzrə protokolun imzalanması böyük siyasi uğurdur. Bu, bütövlükdə Cənubi Qafqazda dayanıqlı sülhün əldə edilməsi baxımından vacibdir. Sözügedən protokol, habelə iki ölkə arasında vasitəçisiz keçən danışıqlar sülhün bərpası imkanlarını və müqavilənin daha qısa zamanda imzalanması ehtimallarını yüksəldir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat qeyd edib ki, Azərbaycan ən qısa zamanda regionda sülhün əldə edilməsində maraqlıdır: "Azərbaycan postsovet məkanında münaqişəyə məruz qalmış, lakin ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən tək ölkədir. Ona görə də Azərbaycan bütövlükdə regionda sabitliyin formalaşmasına və inkişafına töhfə vermək, Ermənistanla sülh əldə etmək üçün bütün lazımi addımları atır. Təsadüfi deyil ki, Vətən müharibəsindən sonra sülh müqaviləsi şərtlərini ilk dəfə təqdim edən tərəf də məhz Azərbaycan olub".

Deputat qeyd edib ki, Azərbaycanla Ermənistan arasında sülh danışıqları məhz bizim təklif etdiyimiz beş bənd əsasında həyata keçirilir: "Sülh danışıqlarının predmeti hər iki ölkənin və bütövlükdə region ölkələrinin ərazi bütövlüyü, suverenliyi və təhlükəsizliyinin təminatı məsələsidir. Danışıqların və həyata keçirilən delimitasiya və demarkasiya işlərinin Alma-Ata protokoluna istinad edilməsi, eyni zamanda prosesin keçmiş SSRİ dövründəki sərhədlər əsasında və razılaşdırılmış sənədlər üzrə davam etdirilməsi təqdirəlayiqdir. Bütün bunlar region üçün sülh imkanlarını genişləndirir. Yeri gəlmişkən, mayın 15-də Azərbaycan ilə Ermənistan arasında sərhəddə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistanın baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların 9-cu görüşü də Cənubi Qafqazda sülhün bərqərar olmasına mühüm töhfələrdəndir".

Vüqar Bayramov onu da deyib ki, Azərbaycanın mövqeyi ondan ibarətdir ki, sülh davamlı və dayanıqlı olsun: "Biz regionda, bütövlükdə isə dünyada münaqişələrin əleyhinəyik. Azərbaycan Cənubi Qafqazın daha çox inkişaf etməsində, region ölkələrinin sülh və əmin-amanlıq şəraitində yaşamasında maraqlıdır. Həm də başa düşürük ki, sülh regional kommunikasiyaların bərpası ilə mümkündür. Ona görə də Zəngəzur dəhlizinin açılması, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru sərhədinin yenidən bərpa edilməsi dayanıqlı sülhün təminatı üçün çox vacibdir".

Deputat yekunda bildirib ki, sülhə səbəb olan amillərə nəzər yetirdikdə aydın olur ki, Azərbaycanla Ermənistan arasında birbaşa danışıqların aparılması, komissiyaların intensiv görüşlərinin keçirilməsi, protokolun imzalanması sülhün əldə edilməsi ilə bağlı nikbinliyimizi artırır.

***N.QAFARZADƏ, "Azərbaycan"***

# Azərbaycanın İrandakı səfirliyinin yeni məkanı artıq müəyyən edilib

Ötən ilin yanvarında səfirliyimizə qarşı törədilmiş terror hücumundan sonra İran tərəfi ilə danışıqların əsas istiqamətlərindən biri səfirliyin təhlükəsizliyinə tam təminatın verilməsi məsələsi ətrafında olub. Son bir neçə ay ərzində iki ölkənin rəsmi şəxsləri və aidiyyəti qurumları arasında təmaslar və danışıqlar çərçivəsində Azərbaycanın gözləntiləri qarşı tərəfə çatdırılıb. Səfirliyimizin daha təhlükəsiz və səfirlik üçün zəruri olan bütün tələblərə cavab verən yeni məkana köçürülməsi istiqamətində İran tərəfi ilə müvafiq iş aparılıb.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinin fəaliyyətinin bərpa edilməsi istiqamətində aparılan işlər barədə yerli medianın sualına cavabında deyib.

O bildirib ki, aparılmış iş nəticəsində səfirliyin yeni məkanı artıq müəyyən edilib: "Hazırda həmin məkan və binada səfirlik üçün zəruri şəraitin yaradılması məqsədilə müvafiq tədbirlər görülür. Qeyd edilən işlər yekunlaşandan sonra səfirliyin yeni məkanda fəaliyyətinin bərpa edilməsi planlaşdırılır".

# Erməni diasporunun regionda sülhə təhdid yaradan fəaliyyəti Bolqarıstan mediasında işıqlandırılıb

**Erməni diasporunun regionda sülh, sabitlik və əməkdaşlığa təhdid yaradan fəaliyyəti Bolqarıstan mediasında geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, yayılan məlumatlarda xaricdə yaşayan erməni diasporunun Ermənistan əhalisi arasında radikal millətçilik və revanşizm meyillərinin alovlandırmasında səylər göstərdiyi, ermənilərlə azərbaycanlılar arasında kin və nifrətin daim davam etməsinə çalışdığı, bölgədə sülh və rifah mühitinin yaranmasına mane olduğu ətraflı izah edilir, diasporun




nifaq və düşmənçilik siyasətinin ermənilər üçün tarixən fəlakətlərə səbəb olduğu vurğulanır. Erməni diasporunun 30 il ərzində Ermənistan hökumətinin etnik nifrət zəminində təcavüzkar siyasətini dəstəkləyərək azərbaycanlıların öz yurdlarından qovulmasına və ərazilərinin talan edilməsinə haqq qazandırdığı da məlumatlarda öz əksini tapır.

Bolqar mətbuatında, həmçinin erməni diasporunun fəaliyyət göstərdiyi ölkələrdə yerli media və sosial şəbəkələr vasitələri ilə bu dövlətlərin ictimai rəyinə və rəsmi mövqeyinə təsir göstərdiyi qeyd olunur və yerli hökumətlərin erməni diasporunun təxribatçı siyasətinə qarşı diqqətli olmasının əhəmiyyəti vurğulanır.

# Azərbaycanın baş prokuroru Düşənbədəki görüşlərdə həmkarlarını Qarabağdakı bərpa və quruculuq işləri barədə məlumatlandırıb



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Baş prokurorlarının 5-ci iclasında iştirak etmək məqsədilə Düşənbə şəhərində işgüzar səfərdədir.**

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, mayın 17-də keçirdiyi görüşlərdə baş prokuror Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə həmkarlarını məlumatlandırıb.

Tacikistanın baş prokuroru Yusuf Raxmonla keçirilmiş görüşdə qarşılıqlı hüquqi yardım sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, həm ikitərəfli, həm də çoxtərəfli formatda, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən danışılıb. Tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

İranın baş prokuroru Məhəmməd Azad Movahedi ilə keçirilmiş görüşdə prokurorluqlarımız arasında əlaqələrin dinamikası müsbət qiymətləndirilib. Kamran Əliyev iranlı həmkarını ölkəmizə rəsmi səfərə dəvət edərək əməkdaşlığın bundan sonra yüksələn xətlə inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Bundan başqa, baş prokuror İƏT-in Baş katibi Xosrov Noziri ilə görüş keçirib. Baş katib bildirib ki, baş prokurorların Düşənbə görüşü ötən ilin sentyabrında Bakıda keçirilmiş iclasın uğurundan bəhrələnir. Kamran Əliyev ölkəmiz tərəfindən İƏT-lə əlaqələrə hər zaman böyük önəm verildiyini qeyd edib.

Görüşdə təşkilatın işinin təkmilləşdirilməsi, təşkilata üzv olan dövlətlər arasında hüquqi müstəvidə qarşılıqlı münasibətlərin, cinayətkarlığa qarşı mübarizə, eləcə də qarşılıqlı beynəlxalq hüquqi yardım üzrə birgə fəaliyyətin inkişaf etdirilməsi, əməkdaşlığın gələcək perspektivləri mövzusunda müzakirələr aparılıb.

Həmçinin baş prokuror Pakistanın baş prokurorunun müavini Raşdin Navaz Kasuri ilə görüşüb. İki dost və qardaş dövlətlər arasında hərtərəfli əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə edilib, prokurorluqlarımız arasında əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb. Görüşdə hər iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya məsələləri müzakirə olunub.

Səfər çərçivəsində 2021-ci ilin noyabrın 1-də Bakıda təsis edilmiş Türk Dövlətləri Təşkilatının baş prokurorlarının görüşü keçirilib. Görüşdə TDT çərçivəsində gələcək əməkdaşlıq perspektivləri, o cümlədən cari ilin iyulunda Qırğızıstanda keçiriləcək Şuranın 3-cü iclası ilə bağlı təşkilati məsələlər müzakirə edilib.

Nümayəndə heyətinin Tacikistana səfəri başa çatıb.

# Türkiyə parlamentinin spikeri azərbaycanlı gəncləri qəbul edib

**Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuş Atatürkün anım günü və 19 may - Gənclər və idman bayramına həsr olunmuş təntənəli tədbirlərdə iştirak etmək üçün Ankaraya gələn Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti və Azərbaycandan olan gənclər qrupunu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Türkiyənin 81 vilayətinin hər birini görüşdə iki ali məktəb tələbəsi (oğlan və qız) təmsil edib. Bundan əlavə, salonda Azərbaycan və ŞKTC-dən olan iki gənc nümayəndə - ümumilikdə 166 nəfər olub.

Türk parlamentinin spikeri çıxışında vurğulayıb ki, gənclər cəmiyyətlərin gələcəyinin lokomotividir. "Türkiyə gənclər siyasətinin dövlətin prioritetlərindən biri olduğu ölkələrdəndir. Biz gənc nəslin potensialına səmimi-qəlbdən inanırıq", - deyə Kurtulmuş bildirib və iştirakçılar arasında gələcək parlamentarilərin olacağını da istisna etməyib.

TBMM-nin rəhbəri Ankaranın daha ədalətli dünya nizamı yaratmaq istəyini vurğulayaraq, Türkiyənin inkişafı məqsədlərinə və siyasətinə diqqəti cəlb edib.

"Ölkələrinizin gələcəyinə, hüquqları pozulan bütün xalqların hüquqlarının müdafiəsinə töhfə verilməsinə görə siz məsuliyyət daşıyırsınız", - deyə Kurtulmuş vurğulayıb.

# "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabat"ı təsdiqlənib

**Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərliyi ilə geniş tərkibdə kollegiya iclası keçirilib.**



Palatadan AZƏRTAC-a bildirilib ki, kollegiya iclasında "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabat"a Azərbaycan Respublikası Hesablama Palatasının rəyi müzakirə edilərək təsdiqlənib və Milli Məclisə göndərilməsi barədə qərar qəbul edilib.

Daha sonra Hesablama Palatasının fəaliyyəti ilə bağlı gündəlikdə dayanan digər məsələlərə baxılıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mayın 17-də elm və təhsil naziri Emin Əmrullayev Masallı rayonunda vətəndaş qəbulu keçirib.

Elm və Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, qəbulda Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad və Yardımlı sakinləri iştirak ediblər.

Qəbul zamanı vətəndaşlar müəllimlərin işə qəbulu, məktəb tikintisi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin ilk kollegiya iclası olub



**AZƏRTAC dövlət xidmətinə istinadla xəbər verir ki, iclası giriş sözü ilə açan kollegiyanın sədri İlqar Musayev Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 mart tarixli 55 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kollegiyasının tərkibi"nin təsdiq olunduğunu və hazırda kollegiyanın ilk iclasının keçirildiyini vurğulayıb.**

Xidmət rəisi müvafiq əmrlə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kollegiyası haqqında Əsasnamə"yə uyğun olaraq, kollegiyanın xidmətin fəaliyyətinin əsas istiqamətləri üzrə məsələlərə kollegial şəkildə baxaraq müvafiq qərarlar qəbul edən orqan olduğunu bildirib. Eləcə də, İ.Musayev kollegiyanın iclaslarında xidmətin fəaliyyətinin əsas istiqamətləri, döyüş hazırlığının və ictimai hazırlığın vəziyyəti, hərbi qulluqçuların attestasiyasının nəticələri, xidmətin maliyyə və təsərrüfat fəaliyyəti, icra intizamının vəziyyətinin müzakirə olunduğunu və müvafiq qərarlar qəbul edildiyini qeyd edib.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı məruzələr dinlənilib və müzakirə olunan məsələlər ətrafında kollegiya üzvləri və müstəqil qurum rəisləri çıxış ediblər. Kollegiya iclasına yekun vuran general-leytenant İlqar Musayev qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulan tapşırıqların icrası ilə bağlı müvafiq tapşırıqlar verib.

Azərbaycan Respublikasının Dövlət Mükafatına təqdim edilmişdir

# Müzəffər Ordunun qüdrətli döyüş arsenalı

## Müdafiə sənayesinin milli istehsalının elmi əsaslarının fundamental salnaməsi

**Azərbaycan Respublikasının Elm sahəsi üzrə 2024-cü il üçün Dövlət mükafatına təqdim olunan, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Həqiqi (akademik) üzvləri, texnika elmləri doktorları, professorlar Natiq Cavadov, Elçin İsgəndərzadə və Hikmət Əsədovun "Müasir hərbi döyüş sistemlərinin effektivliyinin yüksəldilməsi üzrə kompleks elmi tədqiqatlar" adlı fundamental tədqiqat işlərini qardaş Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində şücaət göstərən Azərbaycan Ordusu üçün böyük əhəmiyyətli töhfə olaraq qəbul etmək lazımdır.**




XIX-XX əsrlərdə hərb elmi sahəsində baş verən inqilablar böyük sayda mobil vasitələrdə - tanklarda, təyyarələrdə, gəmilərdə quraşdırılan avtomatik silahların icad olunması ilə nəticələnmişdir. Yeni texnologiya və silahlara keçid üçün çox böyük maliyyə vəsaitləri tələb olunduğundan, buna ancaq varlı ölkələr nail ola bildilər.

Bu gün bir sıra ölkələr, o cümlədən də Azərbaycan faktiki olaraq öz hərbi potensialını inkişaf etdirməkdədir. Son dövrün döyüşlərini hərbi mütəxəssislər kontaktsız müharibələr hesab edirlər. Nüvə, daha sonra isə istilik-nüvə silahının meydana çıxması müharibə dövrlərinin ardıcıl inkişafını pozmuşdur.

Azərbaycan 44 günlük Vətən müharibəsində müharibələr tarixinə yeni bir səhifə yazdı. Bu səhifə hərb sahəsində yüksək dəqiqliyə malik silahların yaranması ilə bağlıdır. Bura, eyni zamanda yeni fiziki prinsipli silahlar, informasiya silahı və radioelektron mübarizə vasitələri də daxildir.

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu tərəfindən tətbiq edilən pilotsuz uçuş aparatlarının (PUA) geniş tətbiq edilməsi hücum əməliyyatlarında şəxsi heyətin itkilərinin minumuma endirilməsi, süni intellektin tətbiq edildiyi PUA-lar üçün görünməyən düşmən obyektlərinin aşkara çıxarılması, onların avtomatik tanınması, müşayiət edilməsi və nəticədə vurulması üçün avtonom qərar qəbul olunması perspektiv istiqamət hesab edilir. Beləliklə, bir çox xüsusiyyətləri ilə yadda qalan "Dəmir yumruq" əməliyyatı dünya hərbi ekspertləri və hərbi elm tədqiqatçıları tərəfindən yeni nəsil müharibənin elementlərinin tətbiq edildiyi müharibə kimi qəbul olunur.

Yuxarıda şərh olunanlara əsasən, görkəmli alimlər, professorlar Natiq Cavadov, Elçin İsgəndərzadə və Hikmət Əsədovun "Müasir hərbi döyüş sistemlərinin effektivliyinin yüksəldilməsi üzrə kompleks elmi tədqiqatlar" adlı geniş profilli nəzəri və tətbiqi araşdırma işləri Azərbaycan hərb elminə əvəzolunmaz töfhədir. Kitabda təqdim olunan tədqiqatlar, elmi araşdırmalar Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsində vacib rol oynaya bilər. Təqdim olunan metod və texniki vasitələrdən Azərbaycan Respublikası Müdafiə Sənayesi nazirliyinin tabeliyində olan zavod və müəssisələrdə yeni növ və ya yeni texnologiyaya malik silahların istehsalında rəhbər texniki, texnoloji vəsait kimi istifadəsi mümkündür.

Kompleks tədqiqatlarda müəlliflər qarşıya qoyulmuş məsələlərin öhdəsindən gəlmiş, həm termal siqnaturların hesablanması üzrə, həm də yerüstü hərbi texnikanın düşmənin infraqırmızı kəşfiyyat qurğularından yayınma üsulları üzrə mövcud metodikaları müqayisəli təhlil etmişlər. Aparılmış tədqiqatlar nəticəsində aşkar edilmişdir ki, tankların və yerüstü texnikanın infraqırmızı siqnaturu səthin emissiya əmsalından asılı olaraq əks qanunla dəyişir ki, emissiya əmsalının artması əksetmə əmsalının azalması ilə müşayiət edilir.

Tədqiqatlarda, həmçinin atmosfer zəifləməsinin siqnaturun hesabı qiymətinə təsiri təhlil edilmiş, siqnaturun ölçmə metod və vasitələrinin xülasəsi verilmişdir. Eyni zamanda tüstü ekranı, kamuflyaj və örtük çəkilməsi metodlarından istifadə etməklə termal siqnaturunun azaldılması və bununla da hərbi texnikanın düşmənin infraqırmızı kəşfiyyat vasitələrindən yayınma üsullarının təhlili verilmişdir.

Yerüstü hərbi texnikanın infraqırmızı siqnaturunun yeni model hesablanması metodikaları işlənmiş, yaxın və uzaq məsafədən ölçülməsi üsulları təklif edilmişdir.

Görünən və infraqırmızı sahədə aşkarlanma əlamətləri və aşkarlanmadan qorunma üsullarının təsnifatı, yerüstü hərbi texnikanın termal şüalanmasının xarakteristikası, yaranma səbəbləri, görülməli olan əks-tədbirlər və əks-tədbir üsullarının təkmilləşdirilmiş və çox effektiv təsnifatı verilmişdir. Yerüstü hərbi texnikanın infraqırmızı kəşfiyyat vasitələrindən müxtəlif yayınma üsulları analiz və sintez edilmişdir. Belə hesab etmək olar ki, çox zəruri müvafiq nəticələr əldə edilmişdir.

Fundamental tədqiqatlar zamanı elektro-lüminessent və elektroxrom örtük materialları tətbiq edilmiş, dronlar üçün səmanın işıqlanma intensivliyinə görə monospektral, adaptiv, ampliyud üzrə idarəetmə ölçmə sisteminin əməliyyat alqotitmi, blok-sxemi və funksional sxemi yaradılmışdır.

Elektro-lüminessent və eketroxrom örtük materialı tətbiq edilmiş dronlar üçün səmanın işıqlanma intensivliyinə görə multispektral adaptiv idarəetmə - ölçmə sisteminin funksional əməliyyat alqoritmi, blok sxemi və funksional sxemi işlənilmişdir. Dronların işıqlanma intensivliyinin idarə edilməsi üsullarının effektivlik meyarları üzrə müqayisəsi optimallaşdırılmışdır.

Belə ki, elektrolüminessent və elektroxrom örtük materialları tətbiq edilmiş dronlar üçün səmanın işıqlanma rənginə görə multispektral adaptiv idarəetmə-ölçmə sisteminin mümkün yaradılma variantlarının ilk dəfə təsnifatı verilmiş, elektrolüminessent və elektroxrom örtük materialları tətbiq edilmiş dronlar üçün səmanın işıqlanma rənginə görə multispektral adaptiv idarəetmə-ölçmə sisteminin mümkün yaradılma variantlarının sayı müəyyənləşdirilmiş, təsnifat əlamətləri üzrə variantların reallaşdırılması məsələlərinə baxılmışdır.

Eyni zamanda multispektral adaptiv idarəetmə-ölçmə sisteminin əməliyyat alqoritmi işlənilmiş, sistemin blok-sxemi hazırlanmış, idarəetmə-hesablama qurğusunun funksional sxemi yaradılmış, rəngi ölçən qurğunun iki reallaşdırma variantı nəzərdən keçirilmişdir.

Tədqiqatlar zamanı hədəfi ləğv etmək üçün lazerin enerji miqdarının hesablanması metodikası işlənilmiş və lazerin ilkin tələb edilən gücü hesablanmış və optik lifli lazer silahı qurğusunun tərkibi müəyyənləşdirilmişdir.

Aydınlaşdırılmışdır ki, stratosferin orta zonası homogen mühit kimi lazer şüasının tədqiqi üçün daha çox uyğundur, optik şüa temperaturunun dəyişikliyinin lazer silahının effektivliyinə güclü təsiri vardır. Həmçinin lazer şüasından qorunma metodu işlənilmiş, bu metodun reallaşdırılmasının əməliyyat alqoritmi, sistemin blok-sxemi, funksional sxemi tərtib edilmiş və zəruri hesabat metodikaları yaradılmışdır.

Ümumilikdə götürdükdə Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi tərəfindən Azərbaycan Respublikasının Elm sahəsi üzrə Dövlət mükafatına təqdim olunmuş "Müasir hərbi döyüş sistemlərinin effektivliyinin yüksəldilməsi üzrə kompleks elmi tədqiqatlar" adlı fundamental nəzəri və tətbiqi tədqiqat işi öz aktuallığı və innovativliyi baxımından çağdaş dünya elminin uğurlu nailiyyətlərindən biri olub, həmin mükafatı almağa tam layiqdir.

***Hayrettin İVGİN,***
***akademik, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının prezidenti***

# Əlahiddə Ümumqoşun Orduda bütün növ silah və texnikalara mövsümə uyğun texniki qulluq göstərilir





Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) birləşmə, hissə və bölmələrində bütün növ silah və texnikalara mövsümə uyğun texniki qulluq göstərilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələrində silah və texnikaların saz vəziyyətdə saxlanması, təlimata uyğun istifadə və istismar olunması, həmçinin mövsümə uyğun texniki qulluğun göstərilməsi ilə bağlı məşğələlər keçirilib.

Məşğələlər zamanı keçirilən dərslərdə bölmələrin döyüş gücünü artırmaq məqsədilə hər bir silah və hərbi texnikadan düzgün istismar qaydalarına əməl olunmasının vacibliyi diqqətə çatdırılıb. Mövsümi tələblərə uyğun olaraq silah və texnikalara texniki qulluğun göstərilməsi, həmçinin hissə və mexanizmlərin dəyişdirilməsi praktiki olaraq şəxsi heyətə göstərilib.

Məşğələlərdən sonra bölmələrdə avtomobil və zirehli texnikalara, aviasiya və hava hücumundan müdafiə vasitələrinə, rabitə avadanlıqlarına, raket-artilleriya silahlarına, atıcı silahlara və döyüş sursatlarına planlı şəkildə mövsümi qulluğun göstərilməsinə başlanılıb.

Qeyd edək ki, texnikalara vaxtında düzgün texniki qulluğun göstərilməsi bölmələrin yüksək döyüş qabiliyyətində saxlanılmasına imkan yaradır.





## “Böyük qayıdış” proqramı sürətlə icra olunur





◆Şərqi Zəngəzurdan reportaj



# İlham Əliyevin qurduğu yeni Laçın

## Artıq işğal gününü deyil, Zəfər və şəhər günlərini qeyd edirik

***Ötən il may ayında 31 illik ayrılıqdan sonra öz doğma sakinlərini qarşılamış Laçın şəhərində həyat artıq öz axarına düşüb. Azərbaycan dövlətinin gücünün, Prezident İlham Əliyevin qətiyyətinin nəticəsi olaraq qısa zamanda yenidən qurulan Laçın indi nəinki Qarabağ və Şərqi Zəngəzurun, bütövlükdə Cənubi Qafqaz regionunun ən gözəl şəhərlərindən birinə çevrilir, şöhrətini və ənənələrini özünə qaytarır.***

Bu günlərdə Laçına səfər edərək şəhərin yeni növraqı ilə elə yerindəcə tanış olduq. Öncə onu qeyd edək ki, Şuşadan Laçına doğru irəlilədikcə bütün yolboyu Qarabağın və Şərqi Zəngəzurun füsunkar təbiəti, gözoxşayan dağları, yaşıl meşələri insanı nə qədər məftun edirsə, Laçın şəhəri də öz ecazkarlığı ilə insanı bir o qədər ovsunlayır. Şəhərə çatanda birdən-birə sanki sehrli aləmə düşürsən. Və o anda həm də düşmənin vaxtilə xaraba qoyduğu Laçını ən qısa müddətdə yenidən quran, onu gözəl şəhərə çevirən dövlətimizin gücünə və qüdrətinə heyran olursan.

Laçın rayonu Vətən müharibəsindən sonra imzalanan üçtərəfli Bəyanata əsasən, 2020-ci ildə işğaldan azad edilən sonuncu rayon oldu. Vətən müharibəsindən sonra Qarabağda qalmış ermənilər Ermənistana Laçın yolu vasitəsilə gedib-gəldikləri üçün Laçın şəhəri, Zabux və Sus kəndləri 2022-ci il avqustun 26-da tam şəkildə Azərbaycanın nəzarətinə keçdi. Həmin gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev rəsmi "X" (tviter) səhifəsində bununla bağlı paylaşımında yazmışdı: "Bu gün, avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

Həmin il sentyabrın 21-də isə Müzəffər Ali Baş Komandan Laçın şəhərində Azərbaycan bayrağını ucaltdı.

Laçın rayonu ilə bağlı diqqəti çəkən əsas məqam odur ki, həm rayonun özü, həm Laçın şəhəri, eləcə də Zabux və Sus kəndləri işğaldan nisbətən gec azad edilsələr də, artıq bu yerlərin sakinləri öz evlərinə geri qayıdıblar. Və hazırda Laçın 3 yaşayış məntəqəsinə sakinlərinin qayıdışı olduğu rayondur.




İşğal dövründə ermənilər tərəfindən Laçın şəhərinin böyük hissəsi tamamilə viran qoyulmuş, dağıdılmış, bəzi yerlərdə isə qanunsuz məskunlaşma aparılmışdı. İşğaldan azad edildikdən sonra şəhərdə dərhal bərpa və yenidənqurma işlərinə başlanıldı. Prezident İlham Əliyev 2022-ci il sentyabrın 21-də Laçından bəyan etmişdi ki, şəhərin bərpası ilə bağlı hazırlıq işləri görülür: "Mən avqustun 26-dan dərhal sonra buraya bir neçə qrup göndərmişəm, bütün yaşayış fondunun təhlili, uçotu aparılacaqdır, dəymiş ziyan hesablanacaqdır. Eyni zamanda təxirəsalınmaz işlərin görülməsi üçün təkliflər hazırlanacaqdır. Laçın şəhəri, Zabux kəndi, Sus kəndi, ilk növbədə, yenidən qurulacaq. Əminəm ki, biz buna tez bir zamanda nail olacağıq".

Həmin vaxtdan sonra Laçın şəhərinin bərpasına başlanılıb, qısa müddətdə genişmiqyaslı quruculuq layihələri həyata keçirilib. Belə ki, cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub, 764 ailənin yaşaya bilməsi təmin olunub. Laçın şəhərinə ilk köç isə bir il əvvələ - 2023-cü ilin may ayına təsadüf edib. Ötən il mayın 28-də Prezident İlham Əliyev Laçın şəhərinə ilk qayıdan sakinlərlə görüşüb, evlərin açarlarını onlara təqdim edib. Bundan sonra laçınlılar mərhələli şəkildə doğma yurda geri dönüblər. İndiyədək Laçın şəhərində 493 ailənin, yəni 1838 nəfərin, Zabux kəndində 217 ailə olmaqla 823 nəfərin daimi məskunlaşması təmin edilib. May ayının 10-da isə Sus kəndinə 20 ailə (75 nəfər) qayıdıb.

Laçın şəhərini gəzərkən diqqətimizi çəkən yalnız abadlıq və ətrafdakı çoxsaylı gözəlliklər olmadı. Diqqətimizi cəlb edən həm də öz doğma yurdlarına qayıdan laçınlıların çöhrəsindəki qürur və sevincdir. Bəli, onlar üçün doğma və əzəli yurdda həyat yenidən başlayıb. Laçın şəhərində sakinlərin rahatlığı və asudə vaxtları mənalı keçirmələri təmin olunub. Şəhərdə yerləşən "İslimi" Xalçaçılıq Mərkəzində artıq xalçalar toxunur. "Kapital Bank"ın Laçın filialı, həmçinin kitabxana rayon sakinlərinin xidmətindədir. Şəhərdə atelye də fəaliyyət göstərir. Bütün bunlarla yanaşı, Laçında yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili, idman sahəsinə marağı və istedadı olanların aşkar edilməsi məqsədilə futbol klubu da yaradılıb. "Mərkiz" adlı klubun hədəfi Laçını futbol üzrə birinci liqada təmsil etməkdir. Öyrənirik ki, rayonda Laçın şəhəri-Zabux kəndi və Laçın şəhəri-Qarıkaha kəndi-"Zerti" Aqro-Sənaye Parkı müntəzəm marşrut xətləri də sakinlərin istifadəsinə verilib.

Şərqi Zəngəzurun bu dilbər ünvanı artıq mühüm, o cümlədən beynəlxalq tədbirlərə evsahibliyi edir. Aprelin 24-də "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" beynəlxalq forumu çərçivəsində Laçında 30 ölkədən 64 nüfuzlu ekspertin iştirakı ilə konfrans keçirilib. Mayın 11-də Şuşada başlayan "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalı isə mayın 13-də Laçında başa çatıb.

Şəhərdə əhalinin istirahətinin səmərəli təşkili istiqamətində də tədbirlər həyata keçirilir. Həkəri çayının sahilində yaradılan bulvar Laçın sakinlərinin və bura gələn qonaqların sevimli istirahət məkanlarındandır. Burada çay üzərində körpü inşa edilib, ətrafında yaşıllıqlar salınıb. Onu da qeyd edək ki, artıq vətəndaşlar fərdi minik avtomobilləri ilə Laçın şəhərinə səfər edə bilirlər. Laçın aeroportu istifadəyə verildikdən sonra buraya turist axınının çox olacağı gözlənilir.

Laçında əhalinin dayanıqlı məskunlaşmasında ən prioritet məsələlərdən biri məşğulluğun təmin edilməsidir. Sakinlər yeni yaradılan müəssisələrdə, o cümlədən Aqro-Sənaye Parkında işlə təmin edilirlər.

Bu gün Laçın rayonu özünün yeni dövrünə qədəm qoyub. İşğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasını, bərpasını xüsusi diqqətdə saxlayan Prezident İlham Əliyev indiyədək Laçına bir neçə dəfə səfər edib. Prezidentin hər səfəri rayonun həyatında əlamətdar hadisəyə çevrilib. Düşmənin Laçına vurduğu yaralar aradan qaldırılır, rayon öz doğma sakinləri ilə yenidən dirçəlir.

Vətən müharibəsinə qədər mayın 18-ni Laçının işğalı günü kimi qarşılayırdıq. Artıq bu gün, necə deyərlər, tarixə qovuşub. Həm də indi Laçının yeni əlamətdar günü var: Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" sərəncamına əsasən, avqustun 26-sı ölkəmizdə Laçın şəhəri günü kimi qeyd olunur.

Ecazkarlığı, gözəlliyi ilə hər kəsi məftun edən Laçından yüksək və xoş təəssüratlarla ayrıldıq. Bu şəhərdə gördüklərimizə görə həm qürurlandıq, həm də dövlətimizlə fəxr etdik. Laçının timsalında həm də bir daha əmin olduq ki, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə bütün Qarabağ və Şərqi Zəngəzura qayıdış tez bir zamanda tam təmin ediləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*Bakı-Laçın-Bakı*

# Böyük qayıdışa dair proqramın icrası ilə bağlı monitorinqlərin nəticələri müzakirə olunub



**Mayın 15-17-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatının rəhbəri Rüfət Məmmədovun rəhbərliyi ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı 2023-cü ildə və 2024-cü ilin 4 ayı ərzində aparılan monitorinqlərin nəticələrinə dair müşavirə keçirilib.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, Nazirlər Kabinetində keçirilən müşavirədə Dövlət proqramının icrası ilə bağlı aidiyyəti dövlət qurumlarının rəhbərlərinin müavinləri və digər məsul şəxslər iştirak ediblər.

Tədbirdə 2023-cü il və cari ilin 4 ayı üzrə monitorinq hesabatları təqdim olunub, təkliflər dinlənilib və Dövlət proqramının növbəti mərhələdə qarşıda duran vəzifələrinin icrasına dair müzakirələr aparılıb.

Müzakirələr zamanı müşahidə olunan əsas çətinliklər və növbəti müddətdə diqqət yetirilməli istiqamətlər vurğulanıb, Dövlət proqramının icrası müddətində həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr, aparılan quruculuq işlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsini, əhalinin dayanıqlı məskunlaşmasını təmin edəcəyi qeyd olunub.

Müşavirədə, həmçinin Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli 942s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2024-2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı"nın icrası ilə əlaqədar əhalinin qayıdış ardıcıllığı nəzərə alınmaqla məşğulluq imkanlarının qiymətləndirilməsi, vakansiyalar üzrə işin aparılması, peşə təhsilinin və hazırlığının təşkili, ictimai işlərə və özünüməşğulluq proqramına cəlb edilməsi və digər bu kimi aktiv proqramların dəstəklənməsi istiqamətində işlərin icrasının gedişi barədə də müzakirələr aparılıb.

Dövlət proqramının icrasına nəzarət işlərinin operativ və dayanıqlı həlli üçün aidiyyəti dövlət qurumlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

# Laçın dünən və bu gün

**1992-ci il mayın 16-dan 17-nə keçən gecə Şuşa şəhərindən və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçən ermənilər mayın 18-də Laçını işğal etdilər.**

İşğal nəticəsində Laçın rayonunun əhalisi doğma yurdlarından didərgin düşdülər. 300-dən artıq həm hərbi, həm də mülki şəxs həlak oldu və itkin düşdü. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə erməni vandalizminin qurbanı oldu. Ermənistan tərəfindən rayonda dövlət və özəl mülkiyyətə ağır zərər vuruldu. 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan edildi. 77 min nəfərdən çox olan Laçın sakinləri 30 ilə yaxın Azərbaycanın müxtəlif bölgələrində əzab-əziyyətlər içində yaşadılar.

Ermənistanın Azərbaycana qarşı kəskinləşən hərbi təcavüzü şəraitində BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələri qəbul edərək, Azərbaycan ərazilərinin işğalını pislədi. Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb etdi. Lakin Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməkdən boyun qaçıraraq, işğal olunmuş Azərbaycan ərazilərinin ilhaq edilməsinə (anneksiya) yönəlmiş siyasətindən əl çəkmədi.

Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının və ölkələrinin bacarmadıqlarını Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu həyata keçirdi. 2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində 30 illik işğala son qoyuldu. Uzun illər Azərbaycan torpaqlarını işğalda saxlayan Ermənistan ordusu darmadağın edildi. Azərbaycan Prezidentinin diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi, yenilməz qətiyyəti və ordumuzun şanlı Zəfəri Ermənistanı kapitulyasiyaya və əraziləri boşaltmağa məcbur etdi.

Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin 10 noyabr 2020-ci ildə imzaladığı birgə bəyanata əsasən, 2020-ci il dekabrın 1-də Laçın rayonu Ermənistan ordusu tərəfindən boşaldıldı. Burada qanunsuz məskunlaşmış erməni əhali çıxarıldı. Noyabrın 9-u Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdi. 2022-ci ilin avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Siyasi şərhçilər Laçının işğaldan azad edilməsini Azərbaycanın hərbi və diplomatik qələbəsi kimi qiymətləndirdilər.

Artıq biz bu gün kədər və həsrət dolu zamanları yada salıb Laçının işğalından danışmırıq. Bu gün erməni işğalından azad olunmuş doğma diyarda aparılan böyük quruculuq işlərindən, keçmiş məcburi köçkünlərin öz ocaqlarına qayıtmasından bəhs edirik. Dövlətimizin başçısı İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı sərəncama əsasən, Laçın şəhərinin işğaldan azad edildiyi 26 avqust tarixi Laçın şəhəri günü kimi qeyd olunur. Laçınlılar bu əziz günü 30 il həsrətində olduqları və yenicə köçdükləri doğma evlərində qürurla və iftixarla qeyd edirlər.

Otuz ilə yaxın davam edən erməni vandalizminə məruz qalan Laçın bu gün ömrünün yeni, ən işıqlı dövrünə qədəm qoyub. İşğaldan azad olunmuş ərazilərimizin inkişafını daim xüsusi diqqətdə saxlayan Prezident İlham Əliyev bu günə qədər dəfələrlə Laçın rayonuna səfər edib. Laçına növbəti səfəri zamanı bu gözəl diyarda aparılan quruculuq işlərindən bəhs edən dövlət başçımız demişdir: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".

Laçında həyata keçirilən genişmiqyaslı quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır. Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərin tikilməsinə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilib. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq.

Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərə alaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək.

Bu gün Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində azad Laçın artıq sürətli inkişaf mərhələsinə qədəm qoyub. Laçın rayonunda keyfiyyətlə aparılan quruculuq işləri laçınlılarla bərabər, bütün Azərbaycan xalqını sevindirir. Ata-baba yurdlarına qayıdan sakinlər Laçında xoş və firavan bir həyat sürürlər.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***







# COP29 həm də sülhə çağırış tədbiri olacaq

**Bəşəriyyətin başı üzərində dolaşan iqlim dəyişikliyi kimi kabusu aradan qaldırmağın yolları hazırda dünya dövlətlərinin qarşısında duran əsas vəzifədir. Atmosfer qatında artan ozonun miqdarı, təbii fəlakətlər, planetdə hava şəraitinin anomal hala gəlməsi insanların həyatına və ərzaq təhlükəsizliyinə mənfi təsir göstərir.**

Təkcə bunlarmı? Yox, əlbəttə. Təbii resursların vəziyyəti və dövlətlərin dayanıqlı inkişafı da sual altındadır. Bir yandan da müharibələr. Bütün bunlar BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyasının (COP) əhəmiyyətini daha da artırır.

Azərbaycan iqlim dəyişikliyi ilə mübarizə istiqamətində önəmli addımlar atmaqla beynəlxalq arenanın diqqət mərkəzindədir. Bu baxımdan, COP29-un Bakıda keçirilməsi təsadüfi deyil. Bu, Azərbaycan dövlətinin karbon emissiyalarının azaldılması, bərpaolunan enerji mənbələrindən geniş istifadə edilməsi öhdəliyinə əməl etməsinin nəticəsidir. Azərbaycan öz iqlim siyasətini təkmilləşdirmək və COP29-a evsahibliyi etmək üçün genişmiqyaslı hazırlıqlar aparır, ekoloji dayanıqlılığı artırmaq məqsədilə bu yöndə tədbirləri reallaşdırır. Bu tədbirlərə günəş və külək enerjisi layihələrinin genişləndirilməsi, enerji səmərəliliyini artırmaq üçün yeni texnologiyaların və şəhər planlamasında "yaşıl standartlar"ın tətbiqi daxildir. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan olunması fakt kimi dünyaya nümayiş olunur. Orta və ali məktəblərdə ekoloji təhsil gücləndirilir, kütləvi informasiya vasitələrində davamlı olaraq maarifləndirmə işi aparılır, ictimaiyyət COP29-la bağlı məlumatlandırılır. Və bütün tədbirlər həyata keçirilərkən müasir texnologiya və innovasiyalara xüsusi önəm verilir. Xüsusilə də dövlət tullantıların idarə edilməsi, su resurslarının səmərəli istifadəsi və atmosferə atılan zərərli qazların azaldılması sahəsində yeni texnologiyaları tətbiq etməklə ekoloji dayanıqlılığı gücləndirməyə çalışır.

COP29-un Azərbaycanda keçirilməsi iqlim dəyişikliyi ilə mübarizədə ölkəmizin iradə və qabiliyyəti ilə yanaşı, liderlik rolunu da nümayiş etdirir. Bu konfrans dünyada gərginliyin azaldılmasına, sülhün bərqərar olunmasına da təsir göstərəcək. Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu yaxınlarda "Observer" qəzetinə müsahibəsində söyləyib ki, COP29-un keçiriləcəyi zaman dünyada hərbi əməliyyatlar dayandırıla bilər. Azərbaycan qlobal sammitin sülh sahəsində növbəti uğur hekayəsinə və sülh konfransına çevrilməsi üçün əlavə səylər göstərir və bundan sonra da göstərəcək: "Biz sülh gündəmini irəli aparmaq üçün çalışırıq. İqlim böhranı, ehtimal ki, ərzaq və su çatışmazlığını kəskinləşdirəcək, miqrasiyanı yüksəldə, dövlətlərə təzyiqi artıra və potensial olaraq sərhəd problemlərinə səbəb ola bilər. Təhlükəsizliyin bir çox elementi var və iqlim təsirlərinin, ətraf mühitin dəyişməsinin və ya ekoloji problemlərin milli təhlükəsizlik və sülhlə əlaqəli olduğunu inkar etmək olmaz. İqlim dəyişikliyi milli və qlobal təhlükəsizliyin bir hissəsidir".

Böyük Britaniyanın nüfuzlu "The Guardian" qəzetində bu məsələ ilə bağlı məqalə dərc olunub. Məqalədə bildirilir ki, COP29 BMT-nin iqlim sammiti təşkilatçılar tərəfindən tərtib edilmiş planlara uyğun olaraq, iqlim dəyişikliyi nəticəsində yarana biləcək münaqişələrin qarşısının alınmasına və mövcud gərginliyi azaltmaq üçün ekoloji məsələlər üzrə beynəlxalq əməkdaşlıqdan istifadəyə diqqət yetirən ilk "Sülh COP-u" olacaq. Məqalədə o da bildirilir ki, Azərbaycanın evsahibliyi edəcəyi COP29 zamanı dünya ölkələrindən Yay və Qış Olimpiya Oyunlarında olduğu kimi, bütün hərbi əməliyyatları dayandırmaq və barışığa əməl etmək tələb oluna bilər. Tədbir iki böyük müharibənin - Ukrayna və Qəzza zolağındakı münaqişənin tüğyan etdiyi və geosiyasi gərginliyi daha da artırdığı bir vaxtda keçiriləcək. 196 dövləti bir araya gətirəcəyi gözlənilən beynəlxalq sammitdə qlobal istiləşmə ilə bağlı təcili həll zərurətini hiss edən ölkələr arasında ümumi dil tapılarsa, bu, sülhün mühərrikinə çevrilə bilər. Həmçinin o da diqqətə çatdırılıb ki, bu yaxınlara qədər Azərbaycan qonşu Ermənistanla 30 ilə yaxındır davam edən münaqişə şəraitində olub. Yazıda Azərbaycan-Ermənistan münasibətlərinə də toxunularaq qeyd olunub ki, keçən ilin dekabrında Dubayda keçirilmiş COP28 iqlim sammitində Ermənistan Azərbaycanın bu il iqlim konfransına evsahibliyi etmək kampaniyasını dəstəkləyib. Bu, iki uzunmüddətli antaqonist tərəf arasında ilk beynəlxalq dəstək jesti kimi dəyərləndirilib.

COP29 konfransının gündəliyindəki problemlərin həllinə müasir elmin nəticəsində nail olmaq mümkün olsa da, o, faciəli iqlim dəyişikliyinin nə qədər tez bir zamanda baş verəcəyi sualına cavab tapa bilmir. Amma ekoloq və meteoroloqların fikrincə, bu dəyişikliyi dünyanın gücü və birliyi ilə təxirə salmaq lazımdır. Onun daha da artıb bəşəriyyətin ağrılı baş bəlasına çevrilməsinə yol vermək olmaz. Bu, bir çağırışdır və kökündə həm də müharibələrin bitməsi, sülhün bərqərar olması dayanır. Dünyada sülhün olmasını Azərbaycan qədər vacib sayan ölkələrin sayı bu gün azdır. Ölkəmiz müstəqilliyinin ilk illərindən başlayaraq qonşu dövlətin işğalçılıq siyasəti ilə üzləşib. Təxminən otuz il davam edən bu işğal nəticəsində Azərbaycan böyük məhrumiyyətlərlə üzləşib - işğal altına düşən ərazilərimizdə hər şey dağıdılıb, şəhər və kəndlərimiz, tarixi abidələrimiz yerlə yeksan edilib. Torpaqlarını müharibə ilə azad edən Azərbaycan savaş zamanı ekoloji pozuntuların miqdarı və ətraf mühitə dəyən zərərin həcminin nə qədər olduğunu daha yaxşı bilir. İşğaldan azad olunmuş ərazilərdə hələ də mina təhlükəsi qalmaqdadır.

Göründüyü kimi, Azərbaycanın COP29-la bağlı sülh çağırışı etməsi heç də təsadüfi deyil. Onun bu qlobal tədbir vasitəsilə gələcək üçün müəyyənləşdirəcəyi yeni hədəflər həm "yaşıl enerji"nin inkişafı üçün mühüm vasitə olacaq, həm də beynəlxalq və regional sülhə böyük töhfələr verəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin siyasi və iqtisadi nüfuzunun göstəricisidir





**Mayın 17-də Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş seminar keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən ədliyyə nazirinin müavini Eldar Nuriyev bütün sahələrdə dinamik inkişaf edən Azərbaycanda son illər həyata keçirilən çoxşaxəli, müasir çağırışlara cavab verən islahatların uğurlu nəticələr verdiyini, ölkəmizin beynəlxalq nüfuz və mövqelərinin möhkəmləndiyini bildirib. Ötən 20 ildə demokratik dəyərlərin cəmiyyətdə daha da möhkəmləndiyini, həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının uğurlu nəticələr verdiyini, vətəndaş cəmiyyəti təsisatlarının möhkəmləndiyini, beynəlxalq təşkilatlarla əməkdaşlığın yeni müstəvidə davam etdirildiyini diqqətə çatdıran Eldar Nuriyev ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi tədbirlərinin də xüsusi diqqət mərkəzində olduğunu vurğulayıb.

Ədliyyə nazirinin müavini xüsusi vurğulayıb ki, ölkəmiz regionun iri neft və qaz hasilatçılarından biri kimi müasir dünyanın yeni çağırışlarına əsas tutaraq, malik olduğu alternativ enerji mənbələrindən səmərəli istifadə istiqamətində mühüm tədbirlər həyata keçirir. Bu sahədə reallaşdırılan tədbirlərin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin nəticəsi olaraq, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının noyabrda Azərbaycanda keçirilməsinə qərar verilib. Eldar Nuriyev, həmçinin bildirib ki, nazirlik funksiyalarına uyğun olaraq tədbirə hazırlıqla bağlı üzərinə düşən vəzifələri reallaşdırır, vətəndaşların ekologiya hüququ sahəsində maarifləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol" mövzusunda mühazirəsində deyib ki, Prezident İlham Əliyevin ölkəmizin dinamik inkişafına, ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına imkan yaradan iqtisadi islahatlar strategiyası ölkənin təbii sərvətlərindən, intellektual resurslarından səmərəli istifadəyə əsaslanır. Akademik, həmçinin vurğulayıb ki, elmi əsaslara söykənən bu islahatlar iqtisadi potensialına görə dünyada 62-ci yerdə qərarlaşan Azərbaycanın 25 ən inkişaf etmiş, biznes üçün əlverişli mühitinin mövcud olduğu qabaqcıl ölkə sırasında yer tutmasını təmin edib. Onun sözlərinə görə, ölkəmizdəki xalq-iqtidar birliyindən qaynaqlanan ictimai-siyasi sabitlik amili, əlverişli biznes mühiti Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycanın "yaşıl enerji" sahəsində də investisiya cəlbediciliyini yüksəldib.

Akademik Urxan Ələkbərov çıxışında vurğulayıb ki, Azərbaycan qlobal miqyasda aktual olan "yaşıl enerji", karbonsuzlaşdırma, hidrogen istehsalı kimi layihələrin reallaşdırılmasının əsas təşəbbüskarlarından birinə çevrilib. Rektor xatırladıb ki, Prezident İlham Əliyevin hələ 2004-cü il 21 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" bu sahədə yol xəritəsi müəyyənləşdirərək, bərpa olunan enerji mənbələrindən istifadə məqsədilə əsaslı tədbirlərin həyata keçirilməsinə imkanlar açıb. "Beynəlxalq Enerji Agentliyi tərəfindən plana əsasən, 2050-ci ilədək dünya ölkələri tərəfindən atmosferə atılan karbon emissiyalarının tam şəkildə qadağan edilməsi nəzərdə tutulur. Paris İqlim Sazişini ratifikasiya edən Azərbaycan baza ili olan 1990-cı illə müqayisədə 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı könüllü öhdəlik götürüb və artıq bu öhdəliyi 40 faizə çatdırıb" - deyən akademikin sözlərinə görə, Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirilməsi, azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü dövlət siyasətinin təzahürüdür.

Çıxışını davam etdirən rektor diqqətə çatdırıb ki, iştirakçıların sayına, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə dünyanın ən mötəbər tədbirlərdən hesab edilən COP29-un Azərbaycanda keçirilməsi barədə qərarın qəbulu ölkəmizin siyasi və iqtisadi nüfuzunun, alternativ enerji istehsalı sahəsində zəngin potensiala malik olmasının göstəricisidir. Qeyd edilib ki, Prezident İlham Əliyevin 2021-ci il 3 may tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamı işğaldan azad edilmiş ərazilərin bərpası və yenidənqurulması ilə bağlı yeni müasir konseptual yanaşmaları özündə əks etdirir: "Hesablamalara görə, Azərbaycanın quruda 27 qiqavatdan çox külək və günəş enerjisi, Xəzər dənizində 157 qiqavat külək enerjisi potensialı mövcuddur. Qarabağ və Şərqi Zəngəzurda külək, günəş və hidroenerji potensialı 10 qiqavatdan çoxdur. Həmin potensial ölkədə ekoloji mühitin yaxşılaşdırılması və turizm cəlbediciliyinin artırılması ilə yanaşı, elektrik ixracı potensialının yüksəldilməsi baxımından da mühüm dividendlər vəd edir. Azərbaycanın "yaşıl enerji" sahəsində reallaşdırdığı layihələrin əsas məqsədlərindən biri də ölkədə elektrik enerjisi istehsalına sərf olunan böyük həcmdə təbii qaza qənaət olunması və Avropaya ixracın həcminin artırılmasıdır" - deyən Urxan Ələkbərov onu da əlavə edib ki, Prezident İlham Əliyevin 2022-ci ilin dekabrında Rumıniyaya işgüzar səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" Azərbaycanın alternativ mənbələr hesabına istehsal edəcəyi "yaşıl enerji"nin Gürcüstan ərazisindən - Qara dənizin dibi ilə çəkiləcək sualtı kabel vasitəsilə Avropa ölkələrinə ixracını nəzərdə tutur.

# G7 ölkələri QHT-lərinin bəyanatı: "COP29 ölkəsi olan Azərbaycan iqlim dəyişmələrinin təsirlərini azaltmaq üçün nümunəvi liderlik nümayiş etdirir"

**İtaliyada G7 ölkələrinin Vətəndaş Cəmiyyəti Sammitində iştirak edən bir sıra QHT-lər COP29 ölkəsi kimi Azərbaycana dəstək bəyanatı yayıb. AZƏRTAC xəbər verir ki, bəyanatı 8 ölkədən 30 QHT imzalayıb. Onların arasında Fransa QHT-sini və UNESCO-nu təmsil edən şəxslər də var.**




Bəyanatda deyilir: "Biz, aşağıda imzası olan vətəndaş cəmiyyəti təşkilatları dünya birliyini dayanıqlı gələcəyə doğru aparmaq kimi vacib missiya daşıyan, COP29 sədrliyini üzərinə götürən və tədbirə evsahibliyi edən Azərbaycanı dəstəkləyirik.

Planetimizin üzləşdiyi iqlim dəyişmələri probleminin ekoloji təsirləri ilə bağlı dərin narahatlıq keçirir və iqlim böhranını aradan qaldırmaq üçün atılan hər bir addımı yüksək qiymətləndiririk.

Azərbaycan dünya dövlətlərinə əməkdaşlıq, təcrübə mübadiləsi aparmaq və alyanslar yaratmaq üçün platforma təmin edir, iqlim dəyişmələrinin təsirlərini azaltmaq istiqamətində kollektiv səylərin təşviqində nümunəvi liderlik nümayiş etdirir.

Vətəndaş cəmiyyəti təşkilatları ilə konstruktiv qarşılıqlı fəaliyyətə üstünlük verən Azərbaycan COP29-dakı müzakirələri zənginləşdirəcək, inklüzivliyə töhfə verəcək və nəticədə Paris Sazişinin məqsədlərinə çatmaq üçün kollektiv səyləri inkişaf etdirəcək. Bu nailiyyət Azərbaycanın çoxtərəfli səmərəli diplomatiya bacarığını nümayiş etdirir və onun gələcək nəsillər üçün dayanıqlı gələcəyin formalaşmasında həlledici rolunu vurğulayır.

İnanırıq ki, COP29 dövlətlər arasında əhəmiyyətli əməkdaşlığa töhfə verəcək, iddialı vədləri artıracaq və konsensusa aparacaq.

Biz, COP29-a sədrlik edən Azərbaycanın və dünyanın digər vətəndaş cəmiyyəti qrupları ilə iqlim dəyişmələrinin qarşısını almaq və planetimizə gələcək vəd edən səylərimizlə həmrəylik üçün birləşirik".

Xatırladaq ki, son vaxtlar nüfuzlu xarici QHT-lər COP29 ölkəsi kimi Azərbaycana ardıcıl dəstək bəyanatları yayır. Bu günlərdə BMT-nin Vətəndaş Cəmiyyəti Konfransında iştirak edən xarici QHT-lərdən bir qrupu - 128 xarici QHT də Azərbaycanın qlobal iqlimlə bağlı fəaliyyətini alqışlayan bəyanat yaymışdı.

Bu bəyanatlar Azərbaycanın hamı üçün faydalı qlobal təşəbbüslərinin dünyada yüksək maraqla qarşılanmasını nümayiş etdirir.

# DİA-da "Azərbaycanda "yaşıl iqtisadiyyat" və COP29" mövzusunda mühazirə dinlənilib



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantları üçün Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Şahmar Hacıyevin "Azərbaycanda "yaşıl iqtisadiyyat" və COP29" mövzusunda mühazirəsi dinlənilib. Mühazirə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 6-cı sessiyasının təşkil edilməsi ilə bağlı DİA-nın Tədbirlər planına uyğun olaraq təşkil edilib.

DİA-dan AZƏRTAC-a bildirilib ki, Ş.Hacıyev çıxışında Azərbaycanın enerji siyasəti, həyata keçirilmiş enerji layihələri və COP29 məsələlərinə toxunub. O, enerji keçidi prosesini xüsusilə vurğulayıb və bununla bağlı bildirib ki, Azərbaycanın "yaşıl inkişaf strategiyası" və "yaşıl enerji" layihələri Cənubi Qafqazdan Avropaya "yaşıl enerji"nin ixracını və ölkənin "yaşıl enerji mərkəzinə" çevrilməsini hədəfləyir. Tərəflər Konfransının (COP29) ölkəmizdə keçirilməsi ilə əlaqədar qeyd edilib ki, bu beynəlxalq tədbir respublikamızda keçirilən ən mötəbər beynəlxalq tədbirlərdən biri olacaq. Bununla da COP29 beynəlxalq əməkdaşlığı dəstəkləmək istiqamətində mühüm platforma rolunu oynayacaq və ölkəmizə enerji keçidində və "yaşıl iqtisadiyyat"ın inkişafında müsbət təsir edəcəkdir.

Mühazirəni I kurs magistrantları dinləyiblər. Sonda magistrantların məsələ ilə bağlı sualları cavablandırılıb.

# "Middle East Monitor" jurnalı Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçid prosesindən yazıb

Birləşmiş Krallıqda nəşr olunan "Middle East Monitor" (Yaxın Şərq Monitoru) jurnalında ABŞ-nin Corc Vaşinqton Universitetinin tələbəsi, Azərbaycanlı Tələbələr Assosiasiyasının həmtəsisçisi Kənan Məmmədovun "Azərbaycanın yaşıl iqtisadiyyata keçidi" adlı məqaləsi dərc edilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, məqalədə ekoloji cəhətdən dayanıqlılığa diqqətin artdığı bir dünyada Azərbaycan iqtisadiyyatının dinamik inkişafı üçün mühüm addımların atıldığı, zəngin neft və qaz ehtiyatları ilə tanınan ölkəmizin hazırda yaşıl, davamlı gələcəyə doğru irəlilədiyi qeyd olunub.

Məqalədə, həmçinin Azərbaycanda keçiriləcək COP29-dan bəhs edilib. Azərbaycanın COP29-a evsahibliyi etməyə hazırlaşdığı bir vaxtda bu tədbirin ölkənin davamlı inkişafında mühüm rol oynayacağı vurğulanıb. Bildirilib ki, COP29-a evsahibliyi etməklə Azərbaycan qlobal ekoloji məqsədlərə sadiqliyini bir daha təsdiqləyir və Xəzər regionunda bərpaolunan enerjinin təşviqində qabaqcıl mövqe tutur.




# Bakıda "Ambisiyaların artırılması və fəaliyyətə təkan: COP-29 Dayanıqlı biznes forumu" keçirilib





**Bakıda "Ambisiyaların artırılması və fəaliyyətə təkan: COP-29 Dayanıqlı biznes forumu" keçirilib.**

AZƏRTAC xəbər verir ki, forumun işində ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Mərkəzi Bankın sədri Taleh Kazımov, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, Milli Məclisin deputatı Nigar Arpadarai, BMT-ni Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva, BMT-nin İnkişaf Proqramının Azərbaycandakı nümayəndəsi Alesandra Rokosalvo, iş adamları, biznes strukturlarının rəhbərləri iştirak ediblər.

Nazir Muxtar Babayev çıxış edərək bildirib ki, müasir dünyada iqlim dəyişiklikləri çoxsaylı problemlər yaradır və bu problemlər iqtisadiyyata mənfi təsir göstərir. Azərbaycan problemin qlobal xarakter daşıdığını təhlil edib və strategiya hazırlayıb. COP29-un Bakıda keçirilməsi də bu strategiyaya daxildir. Azərbaycanın yaşıl və alternativ enerji mənbələrindən istifadə etməsi üçün böyük potensialı var. Azərbaycan yaxın gələcəkdə Avropanın da "yaşıl enerji" ilə təmin olunmasında rol oynayacaq.




Mərkəzi Bankın sədri iqlim dəyişikliyi ilə əlaqədar həyata keçirilən tədbirlərin maliyyələşmə məsələlərinə toxunub. Qeyd olunub ki, Azərbaycan "yaşıl iqtisadiyyat"a keçidlə bağlı tədbirləri maliyyələşdirir. Lakin özəl sektor da fəal olmalı, "yaşıl keçid"lə əlaqədar layihələrdə iştirak etməlidir.

Milli Məclisin deputatı Nigar Arpadarai qeyd edib ki, belə tədbirlər biznes ilə hökumətin bir araya gətirilməsi, strategiyaların birlikdə həyata keçirilməsinə imkanlar yaradır.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı nümayəndəsi Alesandra Rokosalvo, BMT-nin Azərbaycandakı resident əlaqələndiricisi Vladanka Andreyeva ölkəmizin "yaşıl enerji" potensialından, Avropanın enerji təhlükəsizliyindəki rolundan danışıblar. Qeyd olunub ki, Azərbaycanın digər beynəlxalq tədbirlər kimi COP29-u da uğurla həyata keçirməsi üçün BMT və digər beynəlxalq təşkilatlar Azərbaycana hərtərəfli dəstək verməyə hazırdırlar.

Çıxışlardan sonra forum 4 panel iclası ilə işini davam etdirib. Panel iclaslarında iş adamları, şirkət rəhbərləri, Milli Məclisin deputatları, icra orqanlarının nümayəndələri iştirak ediblər. Həmçinin iqlim dəyişikliyinin iqtisadiyyata təsiri, karbon və digər zəhərli qazın atmosferə atılmasının qarşısının alınması tədbirləri, yeni texnologiyalardan istifadə edərək istehsal prosesində karbonun izinin itirilməsi və digər bu kimi məsələlər müzakirə edilib.

## *Nazir:* "Azərbaycanda dekorbonizasiya haqqında qanun layihəsi hazırlanır"

**"Bu gün iqlim dəyişiklikləri müxtəlif ölkələrdə böyük fəsadlar yaradaraq biznesin və ümumilikdə iqtisadiyyatın inkişafının qarşısını alır. AZƏRTAC xəbər verir ki, bu sözləri ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Ambisiyaların artırılması və fəaliyyətə təkan: COP-29 Dayanıqlı biznes forumu"nda deyib".**

O bildirib ki, Azərbaycan 2030-cu ilə qədər atmosferə atılan zərərli qazları 40 faiz azaldacaq.

"Bununla yanaşı Azərbaycan "yaşıl enerji"yə keçid üçün böyük tədbirlər həyata keçirir, sərmayələr cəlb edir. Bu gün görülən işlərin nəticəsində Azərbaycanın 2030-cu ilə qədər enerji təminatının 30 faizi "yaşıl enerji"dən ibarət olacaq. Azərbaycanın "yaşıl enerji" istehsalı ilə əlaqədar cəlb etdiyi sərmayələr nəticəsində günəş, külək, su-elektrik stansiyalarının tikintisi davam edir. Ölkəmizin "yaşıl enerji"yə keçidi üçün böyük potensialı var. Bu potensialdan təkcə hökumət deyil, özəl sektor, biznes strukturları da istifadə etməlidir. Azərbaycan Avropanın enerji təminatında mühüm rol oynayır və istehsal olunan enerjinin Avropaya ixracı da nəzərdə tutulub. Azərbaycanda hazırda dekorbonizasiya haqqında qanun layihəsi hazırlanır. Qanunda müəssisələrin tullantılarının tənzimlənməsi, yeni texnologiyalardan istifadə edərək tullantıların minimuma endirilməsi kimi məsələlər nəzərdə tutulub. Qanunun qəbulundan sonra atmosferə atılan zərərli maddələrin həcminin daha çox azalması müşahidə olunacaq", - deyə nazir əlavə edib.

M. Babayev qeyd edib ki, COP29-un Azərbaycanda keçirilməsi təsadüfi xarakter daşımır, Azərbaycan Prezidenti iqlim dəyişikliyinin təsirinin azaldılmasnı prioritet siyasət hesab edir.

## *Alessandra ROKASALVO:* "Azərbaycanın böyük "yaşıl enerji" potensialı var"

**"Azərbaycanın neft kapitalını insan kapitalına çevirməsi strategiyası uğurludur. Neft və qaz gəlirləri bir çox beynəlxalq əhəmiyyətli layihələr, eləcə də "yaşıl iqtisadiyyat"a keçid üçün Azərbaycanın siyasətinə təkan verir".**

AZƏRTAC xəbər verir ki, bu sözləri BMT-nin İnkişaf Proqramının Azərbaycandakı təmsilçisi Alessandra Rokasalvo Bakıda keçirilən "Ambisiyanın artırılması, fəaliyyətin verilməsi: COP29 Dayanıqlı biznes forumu"nda deyib.

Alessandra Rokasalvo bildirib ki, Azərbaycanın "yaşıl enerji" sahəsində də beynəlxalq layihələri var: "Azərbaycan gələcəkdə Avropaya nəinki neft və qaz, eləcə də "yaşıl enerji" də ixrac edəcək. Bunun üçün Azərbaycanın böyük potensialı var".

O bildirib ki, ekologiya və iqlim dəyişikliyi ilə əlaqədar həyata keçirilən tədbirlər üçün maliyyə mənbələri lazımdır. "BMT-nin "Yaşıl İqlim Fondu" bu sahədə real xarakter daşıyan layihələrə dəstək göstərir.

Son günlər iqlim dəyişikliyi Pakistan, Hindistan, Birləşmiş Ərəb Əmirliklərində özünü daha qabarıq formada göstərdi. Təkcə Pakistanda 13 milyon əhali zərər çəkdi, insanların evləri ilə yanaşı, əkin sahələri də dağıldı. İqlim dəyişikliyi sərhəd tanımadığı üçün Pakistanda baş verənlərə də biganə qalmaq olmaz.

İqlim dəyişikliyinin, qlobal istiləşmənin qarşısı yalnız kollektiv formada birgə səylərlə alınmalıdır. Bunun üçün biznes subyektləri də fəal olmalı, "yaşıl enerji" sahəsinə sərmayə yatırmalıdırlar", - deyə o bildirib.

# FAO, üzvləri və tərəfdaşları COP29-a hazırlaşır



**İtaliyanın paytaxtı Romada Avropa Regional Konfransının 34-cü Sessiyası keçirilib.**

FAO-nun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sessiyada müzakirə zamanı Avropa və Mərkəzi Asiyanın aqro-ərzaq sistemlərində genişmiqyaslı iqlim fəaliyyətinə təcili ehtiyac olduğu vurğulanıb.

Qeyd edilib ki, COP29 ərəfəsində iqlim dəyişikliyinə qarşı həssaslıq və koordinasiyalı yanaşma vacibdir.

İqlim dəyişikliyi Avropa və Mərkəzi Asiya regionu istisna olmaqla, bütün dünyada aqro-ərzaq sistemlərinə təsir göstərir. Bu, kənd təsərrüfatı məhsuldarlığının azalmasına gətirib çıxarır və ərzaq dəyər zəncirlərini pozaraq, bütün regionda ərzaq təhlükəsizliyi üçün ciddi təhdid yaradır. Uyğunlaşma və iqlim dəyişikliyinin yumşaldılması ərzaq və qida təhlükəsizliyinin təmin edilməsi baxımından vacibdir.

FAO, üzv ölkələr və tərəfdaşlarla birlikdə iqlim böhranının təsirləri ilə mübarizə aparmaq üçün qlobal çağırışlara cavab verir. Ölkə prioritetlərinə uyğun olaraq, FAO-nun İqlim Dəyişikliyi üzrə Strategiyası 2022-ci ildən 2031-ciilədək kənd təsərrüfatı sistemlərində iqlim fəaliyyətinə dəstək göstərir.

FAO-nun Avropa və Mərkəzi Asiya üzrə Regional Proqram rəhbəri Raymond Jehle FAO-nun İqlim Dəyişikliyi Strategiyasının tətbiqi üçün Avropa və Mərkəzi Asiyada regional çərçivənin hazırlanmasını və UNFCCC COP29-un bir hissəsi kimi aqro-ərzaq sistemlərinin inteqrasiyası üçün Azərbaycanla əməkdaşlığı xüsusilə vurğulayıb: "Bakıda keçirilməsi planlaşdırılan COP29, iqlim fəaliyyətində milli və regional prioritetləri vurğulamaq və iqlim dəyişikliyi kontekstində kənd təsərrüfatının transformasiya potensialına diqqət yetirmək imkanı təqdim edir".

Sessiyada Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini, COP29 Təşkilat Komitəsinin üzvü İlhamə Qədimova Azərbaycanın iqlim fəaliyyətində dayanıqlı aqro-ərzaq sistemlərinin rolu ilə bağlı aparıcı müzakirələrə sadiqliyini vurğulayıb. O, aktual problemin həlli üçün qlobal birliyin və qətiyyətli fəaliyyətin zəruri olduğunu bildirib.

İ.Qədimova deyib: "Biz dünya liderlərinin ekoloji dayanıqlığa üstünlük vermələrini və konfrans zamanı sözügedən qlobal problemə birgə diqqət ayırmalarını görmək istəyirik".

Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı nazirinin birinci müavini Nino Tandilaşvili iqlim dəyişikliyinə və kənd təsərrüfatına birgə yanaşmanın təsir gücünü qeyd edib. O qeyd edib ki, aqro-ərzaq sistemi həllərinin Milli Müəyyən edilmiş töhfələr, Milli Uyğunlaşma Planları və uzunmüddətli emissiyaların azaldılması strategiyaları kimi milli planlara inteqrasiyası iqlim dəyişikliyi ilə effektiv mübarizə üçün çox vacibdir: "Vahid fəaliyyətə yönəlmiş bu diqqət hökumətin siyasətində və müdaxilələrində öz əksini tapır".

COP29-da əsas prioritetin iqlim maliyyəsinin təmin edilməsi, xüsusən də kənd-ərzaq sistemlərində uyğunlaşma və emissiyaların azaldılması olacağını bildirən İ.Qədimova deyib: "Dayanıqlı Transformasiya üçün ərzaq və kənd təsərrüfatı (FAST) tərəfdaşlığı potensialının yaradılmasına dəstək və yüksək keyfiyyətli investisiyaların təmin edilməsi iqlimin maliyyələşdirilməsində vacibdir".

FAO-nun mütəxəssisi Culya Volf aqro-ərzaq sistemlərinə sərmayələrin iqlim dəyişikliyinə qarşı əsas həll yolu olduğuna diqqət çəkib: "Artan sərmayələr olmadan biz Paris Sazişində müəyyən edilmiş hədəflərə çata bilməmək və ərzaq təhlükəsizliyi məqsədlərimizdə güzəştə getmək riski ilə üzləşə bilərik. Bu, bizim müdafiə edəcəyimiz əsas mesajdır".

Ümumdünya Fermerlər Təşkilatının Təbliğat, Siyasət və Tərəfdaşlıq üzrə Təcrübə lideri Luiza Volp isə aqro-ərzaq sistemlərinin transformasiyasında fermerlərin rifahının xüsusi nəzərə alınmalı olduğunu deyib: "Çünki onlar təkcə iqlim dəyişikliyindən təsirlənmir, həm də həllin ayrılmaz hissəsidir".

Özbəkistan Respublikasının kənd təsərrüfatı naziri İbroxim Abduraxmonov iqlimlə bağlı effektiv fəaliyyət üçün regional əməkdaşlığın vacibliyini vurğulayaraq, iqlimlə bağlı milli və regional fəaliyyət prioritetlərinin uyğunlaşdırılması üçün əlaqələndirilmiş səylərin zəruriliyinə diqqət çəkib: "Hazırda Özbəkistan Mərkəzi Asiya İqlim Dialoqu vasitəsilə regional əməkdaşlığı asanlaşdırmaq üçün fəal yanaşma nümayiş etdirir".

# "Caspian Agro 2024" sərgisi çərçivəsində aqrar sahənin aktual mövzularına dair panel sessiyalar keçirilib

**Bakı Ekspo Mərkəzində "17-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi" çərçivəsində "Beynəlxalq Aqrar İnnovasiya Forumu" adı altında kənd təsərrüfatının müxtəlif sahələrinə dair panel müzakirələr keçirilib.**

AZƏRTAC xəbər verir ki, sərginin üçüncü günündə panel sessiyalar "İqlim hədəflərinə çatmaq üçün davamlı aqro-ərzaq sistemlərinə keçidin gücləndirilməsi. Bilik və innovasiyanın rolu", "Kənd təsərrüfatının dayanıqlı inkişafında müasir kənd təsərrüfatı texnikalarının rolu", "Xarici şirkətlərin uğurlu kənd təsərrüfatı təcrübələri və əməkdaşlıq prespektivləri" mövzularına həsr olunub.





Panellərdə iqlim dəyişmələrinin kənd təsərrüfatı sektoruna təsiri və bu təsirə qarşı mübarizə üsulları, ərzaq təhlükəsizliyinin təminatı baxımından qlobal çağırışlar və innovasiyaların roluna dair müxtəlif təqdimatlar keçirilib. Forumda müxtəlif dövlət qurumları, yerli özəl şirkətlər, eləcə də xarici şirkətlərin ixtisaslaşmış ekspertləri kənd təsərrüfatı və iqlim dəyişikliyinin aqrar sahəyə təsiri ilə bağlı öz bilik və təcrübələrini bölüşüblər.

Panel sessiyalarda çıxış edən natiqlər bildiriblər ki, dövlətin həyata keçirdiyi ardıcıl siyasət nəticəsində aqrar sahənin davamlı inkişafı davam edir. Bununla belə bu sahədə dayanıqlı inkişafa nail olmaq üçün dünyada mövcud olan trendlər dəyərləndirilməli, kənd təsərrüfatı məhsullarının istehsalı müasir dövrün çağırışlarına uyğun qurulmalıdır. Qeyd olunub ki, qlobal iqlim dəyişikliyinin bu sahəyə mənfi təsirlərinin azaldılması üçün "ənənəvi kənd təsərrüfatı istehsalı modeli"ndən "təsərrüfatın müasir idarəedilməsi"nə keçid günün əsas tələblərindən birinə çevrilir.

Mütəxəssislər hesab edir ki, iqlim dəyişikliyi və qlobal istiləşmə fonunda torpaq və su resurslarından səmərəli istifadənin təşkili aqrar sektorda innovasiya və texnologiyaların daha geniş istifadəsini zəruri edir. Bu baxımdan dünyada mövcud olan təcrübələrin mübadilə edilməsi, o cümlədən aqrar texnologiya transferi vacibdir. Vurğulanıb ki, Azərbaycanın kənd təsərrüfatı sektorunda aqrar innovasiyaların tətbiqi ildən-ilə genişlənir.

Panel sessiyalarda mövzular ətrafında fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ



Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığını bir daha təsdiq etdi. Azərbaycanla Belarus arasında qarşılıqlı hörmətə, etimada, dostluğa və əməkdaşlığa əsaslanan kreativ tərəfdaşlıq mövcuddur. Zamanın sınağından çıxmış bu münasibəti hər iki tərəf yüksək qiymətləndirir.

## Aleksandr LUKAŞENKO: "Torpaqlarınızı qaytarmağınız və dirçəltməyiniz əsrlərboyu yaddaşlarda qalacaq"

### Belarus da işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasında iştirak edəcək

İki ölkə arasında genişlənən və bundan sonra daha çox sahəni əhatə etməsi nəzərdə tutulan iqtisadi əlaqələr də məhz həmin münasibətlərə əsaslanır. Belarus Prezidentinin səfəri çərçivəsində imzalanan sənədlər də bunu göstərir. Prezident İlham Əliyevin və Prezident Aleksandr Lukaşenkonun iştirakı ilə imzalanan budəfəki Azərbaycan-Belarus sənədlərinə əsasən, ticarət, gömrük, turizm və idman, kənd təsərrüfatı, o cümlədən baytarlıq və bitki karantini, eləcə də bir sıra digər sahələrdə əməkdaşlıq xeyli şaxələnəcək. Ticarət dövriyyəsini iki dəfədən çox artırmaq hədəflənir. Bakı ilə Minsk, Gəncə ilə Qomel, Qəbələ ilə Qrodno arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair anlaşma memorandumlarının imzalanması bu şəhərlərin sakinlərinin dostluğunu möhkəmləndirməklə yanaşı, sıx iqtisadi əlaqələrin yaranmasına da təkan verəcək.

Lakin Azərbaycan-Belarus iqtisadi əlaqələrinin perspektivləri təkcə bunlardan ibarət deyil. Dövlətimizin başçısının Prezident Aleksandr Lukaşenko ilə geniş tərkibdə görüşdə dediyi kimi: "Bir çox məsələlər - ikitərəfli gündəlik, regional və beynəlxalq məsələlər üzrə ətraflı danışdıq. Nümayəndə heyətlərinin üzvləri dünən görüşüblər və bildiyimə görə, təmaslar çox səmərəli, müsbət olub. Həlli vacib olan çoxlu məsələlər var. Qarşılıqlı fəaliyyətimizin perspektivlərinə baxdıqda böyük potensialı, əmtəə dövriyyəsinin artmasını və sənaye kooperasiyasının, kənd təsərrüfatında əməkdaşlığın genişləndirilməsini görürük. Əlbəttə ki, biz azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin, müəssisələrinin iştirakına şad olardıq. Nümayəndə heyətlərinin üzvləri bu məsələni də müzakirə ediblər. Nümayəndə heyətlərinin tərkibi də çox mətləblərdən xəbər verir".

Həm də müzakirə edilən məsələlərin hamısı konkret xarakter daşıyır. Söhbət sənaye kooperasiyasından, Belarusda və Azərbaycanda birgə istehsalın təşkili və artıq bir çox illər öncə yaradılmış birgə istehsal potensialının artırılmasından gedir. Bu, ilk növbədə, maşınqayırmadır. Həmçinin hərbi-sənaye kompleksində, kənd təsərrüfatında, nəqliyyatda əlaqələrin inkişafı məsələləri, başqa sözlə desək, ölkələrimizin iqtisadiyyatının inkişafı üçün praktiki əhəmiyyət daşıyacaq məsələlər önə çəkilir.

Bütün bunlarla yanaşı, işğaldan azad edilmiş ərazilərimizin bərpası mövzusu da diqqət mərkəzindədir. Məlum olduğu kimi, ikitərəfli sənədlərin imzalanmasından sonra prezidentlər mətbuata bəyanatla çıxış ediblər. Dövlətimizin başçısı öz bəyanatında deyib: "Mən artıq bu barədə danışmışam, bir daha demək istəyirəm ki, Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştirak etməyə dəvət etmişəm. Hazırda gördüyümüz və həyata keçirəcəyimiz işlərin miqyası çox genişdir. Demək olar ki, ərazini sıfırdan bərpa etmək lazım gəlir, müqayisə üçün deyim ki, Livanın bütün ərazisi, üstəgəl, bütün bu ərazinin 50 faizi qədər sahəni. Bütün bunları, sadəcə, daşın daş üstündə qalmadığı ərazidə görüləcək işləri təsəvvür etmək üçün söylədim. İşğal illərində hər şey dağıdılıb. İnfrastrukturu, yaşayış sahələrini, ictimai binaları, tarixi abidələri və digərlərini sıfırdan bərpa etmək lazım gəlir. Ona görə də Belarus şirkətlərini bu prosesə fəal qoşulmağa dəvət edirik. Bu gün, həmçinin konkret tapşırıqlar verilib. Belarusun çox yaxşı şəhərsalma təcrübəsi, müasir texnologiyaları, - bu barədə də danışdıq, - aqroşəhərciklərin tikintisi təcrübəsi var. Əlbəttə, bizim birinci dərəcəli vəzifəmiz keçmiş məcburi köçkünləri tikiləcək doğma evlərinə mümkün qədər tez qaytarmaqdır. Həmçinin onları müvafiq işlə təmin etmək lazımdır ki, azad olunmuş ərazilərə qayıdanlar da yüksək əməkhaqqı olan işlərdə çalışsınlar".

Təsadüfi deyil ki, Belarus tərəfi də bizim azad edilmiş ərazilərdə görəcəyimiz işlərin miqyasını və əhəmiyyətini yaxşı bilir. Dost ölkənin Prezidenti hətta dövlətimizin başçısı ilə qələbədən xeyli əvvəl olan söhbətlərini də xatırladı: "...İkilikdə fəlsəfi fikir yürüdürdük və belə nəticəyə gəldik ki, müharibədə qələbə çalmaq olar. Bu, vacibdir, qələbəni qoruyub saxlamaq daha vacibdir. Üçüncüsü isə, Sizin də bu mövzuya toxunduğunuz kimi, biz ümumi fikrə gəldik ki, müharibədən sonra ən ağır dövr başlayacaq, azad etdiyiniz torpaqları dirçəltməyə, bərpa etməyə başlamaq lazım gələcək. Həmin ağır dövr gəlib çatdı, bu torpaqları dirçəltmək, insanları artıq qaytarmaq lazımdır, onların bəziləri şəhərdə anadan olub, problemlər ola bilər və sair. Qələbə çaldınız və onu qoruyub saxladınız. İndi dirçəliş dövrüdür. Bu, zaman, böyük zəhmət tələb edir, beş və ola bilər ki, on il ərzində həmin işlər yerinə yetirilməlidir".

Bu dirçəliş dövründə Belarus bizə dost kimi dəstək olacağını, Qarabağın və Şərqi Zəngəzurun yenidən tikilib qurulmasına qoşulacağını da bəyan etdi. Belə ki, Prezident Lukaşenko azad etdiyimiz ərazilərdə, xüsusilə aqrar torpaqlarda Belarus təcrübəsi üzrə aqroşəhərciklər və bütün infrastrukturu yaratmağa, iş yerləri açmağa, yeni komplekslər tikməyə, həmçinin fermer təsərrüfatları yaratmağa hazır olduqlarını bildirdi. Meşələrlə zəngin olan Belarusda taxta-şalban materialı boldur. Bu ölkədə taxta evlər tikmək təcrübəsi geniş yayılıb. Belarus dostlarımız Qarabağ və Şərqi Zəngəzur üçün də belə evlər qura biləcəklərini dedilər. Belə ki, Belarusda bu evlərin ayrı-ayrı hissələri lazım olan ünvanlara gətirilir və bir həftə ərzində bünövrəsi üzərində tikilib quraşdırılır. Əgər uyğundursa, bizim işğaldan azad olunmuş ərazilərimizdə bu cür evlər tikməyə hazırdırlar.

"Siz çox işlər görmüsünüz. Bu gün ona birbaşa dedim ki, siz cənnətdə yaşayırsınız. Sizin təbiətiniz cənnətdir. Torpaqlarınızı qaytarmağınız və onu dirçəltməyiniz əsrlərboyu, uzun illər yaddaşlarda qalacaq. Bütün bunları ona görə deyirəm ki, əgər həmin torpaqların dirçəldilməsi üzrə bu böyük prosesdə bizə yer tapılarsa, onda bu yükün altına girməyə hazırıq və bu, sizin üçün sərfəli olacaq. Məsuliyyətlə bildirirəm ki, biz bunu böyük məmnuniyyətlə və dünyada heç kimin edə bilməyəcəyi səviyyədə edəcəyik. Çünki Belarusun və Azərbaycanın qardaş xalqları arasında dərin hörmət və münasibətlər var".

Belarus Prezidentinin dediyi bu sözlərin şərhə ehtiyacı yoxdur. Bunlar dost ölkənin rəhbərinin Azərbaycana səfərinin mahiyyətini açmaqla yanaşı, dövlətlərimizin və xalqlarımızın bir-birinə münasibətini təcəssüm etdirir.

***Flora SADIQLI, "Azərbaycan"***

## Əlilliyi olan 33,8 min şəxsə reabilitasiya xidmətləri göstərilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin 4 ayında əlilliyi olan 33,8 min şəxsə reabilitasiya xidmətləri göstərilib.**

Onlardan 15,9 mini ambulator, 9 mini stasionar və icma əsaslı, digərləri səyyar və onlayn formada, sosial-psixoloji, habelə ippoterapiya istiqaməti üzrə reabilitasiya xidmətləri ilə təmin edilib.

Xatırladaq ki, həmin dövrdə əlilliyi olan 5,5 min şəxsə 40,2 min reabilitasiya vasitəsi də verilib.

## "GreenAgroHack" startap müsabiqəsinin qalibləri mükafatlandırılıb

**"Caspian Agro 2024" sərgisi çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin, Azərbaycan Texniki Universitetinin, "Bilişim Vadisi Bakı Mərkəzi"nin təşkilatçılığı və bir sıra akselerasiya, inkubasiya mərkəzlərinin tərəfdaşlığı ilə keçirilən "GreenAgroHack" hakaton yarışması yekunlaşıb.**

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində 15-16 may tarixlərində "Bakı-Ekspo" Mərkəzində 29 saat, 29 dəqiqə, 29 saniyə ərzində keçirilən yarışmada ölkənin ali təhsil müəssisələrinin tələbələri və orta məktəblərin şagirdləri iştirak ediblər. Startap müsabiqəsinə 19 ali təhsil müəssisəsi və 5 orta məktəbdən iştirakçılar qatılıblar. Hakaton yarışmasında 4 qalib komanda mükafata layiq görülüb.

Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Dövlət Universitetinin tələbələrini bir komandada birləşdirən "Ecoquad" yarışmada 1-ci yerə layiq görülüb. 29 saatın sonunda sözügedən komanda təsərrüfatlarda gübrələmə və dərmanlama işlərini həyata keçirən "Aqrorobot" innovativ həll yolunu təklif ediblər.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Memarlıq və İnşaat Universitetinin təmsil olunduğu "Ground Up" komandası "Hidrogen qazının alınması" həll yolunu təklif edərək 2-ci yerin qalibi olublar.

Hava, su, torpaq, rütubət və nəmlik göstəricilərini özündə toplayan və avtomat rejimdə çalışan suvarma texnologiyasının həll yolunu təklif edən Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, ADA Universiteti, Bakı Mühəndislik Universiteti və Xəzər Universitetinin tələbələrindən ibarət olan "Null" komandası 3-cü yerə layiq görülüb.

Ali təhsil müəssisələri ilə yanaşı, orta məktəblərin də iştirak etdiyi yarışmada Humanitar Fənlər Təmayüllü məktəb liseyi, 288, 13 və 42 nömrəli tam orta məktəbləri "Joshua Tech" komandası altında birləşərək "Fermerin dostu" mobil tətbiqini hazırlayıblar. Fermerlərə məsləhət xidmətini özündə ehtiva edən mobil tətbiqi hazırlayan "Joshua Tech" komandası 4-cü yerə yiyələnib.




## Qeyri-neft-qaz məhsulları ixracında artım dinamikası yüksəkdir

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi cari ilin birinci rübü və aprel ayının ixrac statistikasını açıqlayıb. Diqqəti cəlb edən odur ki, ötən ilin eyni dövrü ilə müqayisədə qeyri-neft məhsullarının ixracı artıb. Rüb ərzində xüsusilə aqrar sektora aid məhsulların ixrac dinamikası yüksək olub.**



Digər bir önəmli fakt isə məhsulların çeşidi ilə yanaşı, ixracın coğrafiyasının genişlənməsidir. Bu da onu göstərir ki, artıq xarici bazara rəqabətqabiliyyətli məhsullar ixrac etməyi bacarırıq. Hazırda dünya bazarlarında yer tutmaq üçün iki əsas şərtə əməl olunmalıdır - birincisi keyfiyyət, ikincisi qiymət. Başqa sözlə, xarici bazarda müştəri tapmağın yolu ucuz və keyfiyyətli məhsuldan keçir.

Qeyri-neft-qaz məhsulları ixracının artması ölkəmizə əlavə imkanlar yaradır. Əvvəla, bu, Azərbaycanın enerji daşıyıcılarının satışından asılılığının aradan qaldırılmasında yardımçı olur. Sonrası isə, bu növ məhsulların istehsalı daxili tələbatı ödəmək üçün bizi valyuta tələb edən idxaldan xilas edir. Yəni bu, həm də əlavə valyuta deməkdir. İndi dünyada baş verən geosiyasi proseslər göstərir ki, maliyyə sabitliyinə malik ölkələr daha üstün durumda olurlar.

İndi isə konkret rəqəmlərə müraciət edək. Mənbədə açıqlanır ki, cari ilin birinci rübü ərzində Azərbaycanın ümumi ixracının dəyəri 6 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 673,7 milyon dollar təşkil edib. Rüb ərzində yeyinti məhsulları üzrə ixracın dəyəri 195,3 milyon dollara bərabər olub. 3 ay ərzində pambıq ixracı 47, meyvə-tərəvəz ixracı 15,3, bitki və heyvan mənşəli piylər və yağların ixracı 7,2, üzvi kimyəvi birləşmələrin ixracı 2,1 faiz artıb. Hesabat dövründə aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 17,8 faiz artaraq 210,7 milyon dollara çatıb. Qeyri-neft-qaz məhsulları ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər isə 7,8 faiz artaraq 58,8 milyon dollar təşkil edib.

Yanvar-mart ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı birinci, pomidor ikinci, elektrik enerjisi üçüncü olub. Bu aylar Rusiya Federasiyasına 225,5 milyon, Türkiyəyə 150,3 milyon, Gürcüstana 59,9 milyon, Ukraynaya 24,2 milyon, Qırğızıstana 20,8 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib.

Sözügedən dövr qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "MKT İstehsalat Kommersiya" MMC, "P-Aqro" MMC, Muradova Sahibə Səlimət qızı, "My Fruit" MMC, "Technopack" MMC, "Mors Trading" MMC, "Baku Steel Company" QSC, "Soil Boons" MMC, "Khan-El" MMC, "Atena" MMC şirkətləri təmsil olunublar. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə SOCAR-ın "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra siyahıda "SOCAR Polymer" MMC, "Azərenerji" ATSC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti MMC, "Azərbaycan Dəmir Yolları" QSC şirkətləridir.

Birinci rübdə Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 4,7 milyon dollar dəyərində telekommunikasiya xidməti ixrac edib, konkret desək, dünyanın 47 ölkəsinə peyk telekommunikasiya xidmətləri göstərilib ki, bu da "Azərkosmos"un xidmət ixracından əldə etdiyi ümumi gəlirlərinin 78 faizinə bərabərdir. İlin ilk 3 ayı ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 1,5 milyon dollarla Birləşmiş Krallıq, 966,8 min dollarla Lüksemburq, 339,8 min dollarla BƏƏ, 208,6 min dollarla Pakistan və 197,4 min dollarla Almaniyadır.

Məlumatda həmçinin bildirilir ki, bu ilin aprel ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 38,8 milyon dollar dəyərində qeyri-neft məhsulları ixracı həyata keçirilib. Ay ərzində mərkəzə 162 müraciət daxil olub, 394 sertifikat təqdim edilib. İxrac ünvanları arasında İsveçrə, Gürcüstan, İtaliya, Rusiya, Türkiyə, Ukrayna, Türkmənistan, Almaniya, ABŞ, Avstriya, İspaniya, İsrail, Macarıstan, Moldova, Niderland, Rumıniya, Polşa, Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Malayziya, BƏƏ, Əfqanıstan, Fransa kimi ölkələr olub.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## "Gələcəkdə Avropa Azərbaycandan "yaşıl enerji" idxal edə biləcək"

**Bu barədə BMT-nin İnkişaf Proqramının (BMTİP) Azərbaycandakı rezident nümayəndəsi vəzifəsini icra edən Alessandra Rokkasalvo "Ambisiyaların artırılması və fəaliyyətə təkan: COP-29 Dayanıqlı biznes forumu"nda deyib.**

"Gələcəkdə bir çox Avropa ölkələri Azərbaycandan neft və qaz idxal etmək əvəzinə günəş və külək enerjisini, eləcə də, digər faydalı resursları idxal edə biləcəklər", - deyə o bildirib. Trend xəbər verir ki, Rokkasalvo Azərbaycanın beynəlxalq danışıqlar aparmaq, iqlim dəyişikliyi ilə mübarizə üzrə həll yolları axtarmaq və gələcək nəsillərin gələcəyini təmin etmək üçün COP29-a evsahibliyi edəcəyini deyib.

"BMTİP ilə Azərbaycan hökuməti arasında tərəfdaşlığı möhkəmləndirə, eləcə də iqlim dəyişikliyinə razılaşdırılmış və səmərəli cavab reaksiyası verə bildiyimiz üçün qürur duyuruq", o deyib.

O, həmçinin innovasiyaların özəl sektordan, elmi dairələrdən və analitik mərkəzlərdən qaynaqlanmasının çox vacib olduğunu qeyd edib.

"Bizim çox mühüm hədəfimiz var - qlobal temperaturun artmasını 1,5 dərəcəyədək məhdudlaşdırmaq", - deyə Rokkasalvo əlavə edib.

## Azərbaycan nefti bahalaşdı

**Dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 0,27 ABŞ dolları, yaxud 0,32% artaraq 84,21 ABŞ dolları təşkil edib.**

Trend xəbər verir ki, "Brent" markalı neftin iyul fyuçerslərinin qiyməti 83,52 ABŞ dolları təşkil edib.

Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 60 ABŞ dollarından hesablanıb.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## "Azərbaycanın 2030-cu ilədək enerji təminatının 30 faizi "yaşıl enerji"dən ibarət olacaq"

**"Bu gün iqlim dəyişiklikləri müxtəlif ölkələrdə böyük fəsadlar yaradaraq biznesin və ümumilikdə iqtisadiyyatın inkişafının qarşısını alır".**

Bu sözləri ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev deyib. "Ambisiyaların artırılması və fəaliyyətə təkan: COP-29 Dayanıqlı biznes forumu"nda çıxış edən nazir bildirib ki, Azərbaycan 2030-cu ilə qədər atmosferə atılan zərərli qazları 40 faiz azaldacaq.

"Bununla yanaşı, Azərbaycan "yaşıl enerji"yə keçid üçün böyük tədbirlər həyata keçirir, sərmayələr cəlb edir. Bu gün görülən işlərin nəticəsində Azərbaycanın 2030-cu ilədək enerji təminatının 30 faizi "yaşıl enerji"dən ibarət olacaq. Azərbaycanın "yaşıl enerji" istehsalı ilə əlaqədar cəlb etdiyi sərmayələr nəticəsində günəş, külək, su-elektrik stansiyalarının tikintisi davam edir. Ölkəmizin "yaşıl enerji"yə keçidi üçün böyük potensialı var. Bu potensialdan təkcə hökumət deyil, özəl sektor, biznes strukturları da istifadə etməlidir. Azərbaycan Avropanın enerji təminatında mühüm rol oynayır və istehsal olunan enerjinin Avropaya ixracı da nəzərdə tutulub. Azərbaycanda hazırda dekarbonizasiya haqqında qanun layihəsi hazırlanır. Qanunda müəssisələrin tullantılarının tənzimlənməsi, yeni texnologiyalardan istifadə edərək tullantıların minimuma endirilməsi kimi məsələlər nəzərdə tutulub. Qanunun qəbulundan sonra atmosferə atılan zərərli maddələrin həcminin daha çox azalması müşahidə olunacaq", - deyə M.Babayev əlavə edib.





# Mədəniyyət





● Ədəbi simalar

## Yazıçının əbədiyyət ünvanı

**Altmış bir illik ömrünün xeyli hissəsini ədəbiyyata bağışladı İsi Məlikzadə. Çünki istedadına söykənib dünyanın ən çox səbir, zəhmət istəyən peşələrindən birini seçib yazıçı olmuşdu. Bədii əsərlərində fərqli mövzulara toxunurdu, həyatı, eyni zamanda hərəsi bambaşqa bir aləm olan insanları, onların hisslərini, mübhəm duyğularını anladırdı oxucularına.**



O dövrün tələblərinə uyub qəhrəmanlarını müsbət, yaxud mənfi olaraq ayırmırdı. Hər kəsin qismətinə dümdüz, hamar ömür yolu düşmür axı. Həyatın gözlənilməz, bəzən olduqca mərhəmətsiz sınaqları ilə qarşılaşır insan. Hərdən nəinki taleyin zərbələrinə tab gətirmək, qəddini düzəldərək başını dik tutmaq, yaşamaq belə çətin olur. İnsan dözməkdən başqa yolu qalmadığını başa düşəndə həyatı ilə barışmış kimi görünür. Eynən İsi Məlikzadənin "Küçələrə su səpmişəm" povestinin qəhrəmanı Xəlil kimi. Özünün deyil, başqasının - əmisi oğlunun yerinə çəkdiyi cəza ilə birlikdə Xəlil arzuladığı, ümid etdiyi, xəyalını qurduğu gələcəyini itirir...

Həyatın verdiyi dərsləri ən nüfuzlu akademiyalardan, universitetlərdən belə almaq, öyrənmək mümkün olmur. Odur ki, bəzən dünyanın ən böyük, ən müdrik həqiqətini ən sadə - İsi Məlizadənin "Qatarda"da əsərindəki Dadaşov kimi insanlar söyləyir.

Yazıçı İsi Məlikzadə özü də əsərlərinin qəhrəmanları kimi maraqlı, enişli-yoxuşlu həyat yaşadı... O, varlı, imkanlı ailənin övladı deyildi. 1934-cü il mayın 1-də Ağcabədidə dünyaya gələn İsi Məlikzadənin atası Abbas kişi bərbər idi. Abbas kişinin böyük külfəti vardı. Ocağında səkkiz övlad böyüyürdü. İsi onun beşinci övladı və tək oğlu idi. Evdə yeddi bacının bircə qardaşı kimi əzizləndi. Oxuduğu Ağcabədi rayonu Xəlfərəddin kənd orta məktəbində isə bacarıqlı, fəal şagird kimi fərqləndi, rəğbət qazandı.

Orta məktəbi 1952-ci ildə əla qiymətlərlə başa vurdu. Ali təhsil almaq həvəsi ilə Bakıya gəldi. Ancaq ədəbiyyata sevgisi olan gənc fərqli bir təhsil ocağına üz tutdu. Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Neft-kimya fakültəsinə daxil oldu. 1957-ci ildə institutu uğurla bitirdi. Təyinat üzrə Əzizbəyov Neft Mədənlər idarəsində operator kimi fəaliyyətə başladı. İsi Məlikzadə neft-qaz mədən idarələrində on ilə yaxın çalışdı. Bununla belə, özünə daha doğma hiss etdiyi ədəbi mühitdən uzaq deyildi...

"Peşmançılıq" adlı ilk hekayəsi 1957-ci ildə "Ağcabədi pambıqçısı" qəzetində dərc edildi. Sonralar "Pioner qəzeti"ndə, "Pioner" jurnalında uşaqlar üçün yazdığı hekayələri maraqla qarşılandı. Satirik yazıları "Kirpi" jurnalında işıq üzü gördü. 1964-cü ildə ilk kitabının sevincini yaşadı. İsi Məlikzadənin "Həsrətin sonu" adlı ilk kitabı çapdan çıxdı.

1966-cı ildən "Ulduz" jurnalı redaksiyasında çalışdı. 1973-cü ilədək həmin jurnalın Publisistika şöbəsinin müdiri, məsul katib işlədi. Sonra müxtəlif illərdə Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari redaksiya heyətinin üzvü, "Azərbaycan" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri, "Ulduz" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri, "Mozalan" satirik kinojurnalında böyük redaktor, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında baş redaktor, Azərbaycan Dövlət Akademik Dram Teatrında ədəbi hissə müdiri oldu. 1990-cı ildə Azərbaycan Mədəniyyət Fondunun Qarabağ filialının sədri idi. 1994-cü ildən ömrünün sonunadək "Azərbaycan" jurnalında publisistika şöbəsinin müdiri işlədi. 1968-ci ildən Azərbaycan Yazıçılar İttifaqının (Azərbaycan Yazıçılar Birliyi) üzvü idi.

1969-1992-ci illərdə "Özgə anası", "Kövrək qanadlar", "Küçələrə su səpmişəm", "Yaşıl gecə", "Günəşli payız", "Dədə palıd", "Gümüşgöl əfsanəsi", "Şehli çəmənlərin işığı", "Dolaşaların Novruz bayramı" adlı kitabları işıq üzü gördü.

İsi Məlikzadənin ssenariləri əsasında "Ağ atlı oğlan", "Ömrün səhifələri", "Evin kişisi", "Gəl qohum olaq", "Gümüşgöl əfsanəsi", "Kişi sözü", "Küçələrə su səpmişəm", "Qatarda", "Qoca palıdın nağılı", "Pəncərə", "Güllələnmə təxirə salınır!" tamaşaçıların maraqla baxdıqları filmlər ərsəyə gəldi.

Bu qədər böyük işləri İsi Məlikzadə altmış bir ilə sığdıra bildi. 1995-ci ildə Bakıda ürək xəstəliyindən dünyadan köçdü. Yazıçı öz vəsiyyətinə uyğun olaraq Ağcabədidə dəfn olundu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Elm xadimləri

## Ana dilimizin ruhunu, müqəddəsliyini qoruyan alim

**Azərbaycan dilinin hərtərəfli inkişafında böyük xidmətləri olan alimlərimizdən biri də Yusif Seyidovdur. Bu gün elmi ictimaiyyətin böyük hörmət və ehtiramla 95 illiyini qeyd etdiyi professor Yusif Seyidov ana dilimizin inkişafı istiqamətində apardığı uğurlu tədqiqatları zamanı kifayət qədər dəyərli nəticələr əldə etmişdir. Görkəmli alim bir-birindən dəyərli əsərləri ilə Azərbaycan dilini daha da zənginləşdirmişdir.**



Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor Yusif Mirəhməd oğlu Seyidov 1929-cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. O, elmi yaradıcılığa 1952-ci ildə "Azərbaycan müəllimi" qəzetində dərc etdirdiyi "Azərbaycan dilinin qrammatikası haqqında" ilk məqaləsi ilə başlamışdı. 60 il Bakı Dövlət Universitetinin "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasında çalışmış, tələbələrə dərs demişdi.

Misilsiz və bənzərsiz tədqiqatları ilə Azərbaycan dilçiliyinə fərqli ab-hava gətirən alim "Nəsimi və onun dili" haqqında kitabında Azərbaycan dilinin inkişafı tarixində bu böyük şairin rolunu müəyyən etməyə çalışmışdı. Onun dilini klassik şeir dilimizin başlanğıc nümunələrindən biri kimi araşdırmışdı.

1955-ci ildə "Müasir Azərbaycan dilində feli bağlama tərkibləri" mövzusunda namizədlik dissertasiyası, 1965-ci ildə isə "Müasir Azərbaycan dilində söz birləşmələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etməsi Yusif Seyidovu qrammatist kimi tanıtmışdı. Amma alimin elmi yaradıcılığı sintaksis çərçivəsi ilə məhdudlaşıb qalmamışdı. Sonralar mövzu və mündəricə baxımından çox geniş miqyası əhatə etmişdi. Azərbaycan dilçiləri içərisində ən çox əsəri (15 cilddə) olan alim heç vaxt özünü təkrar etməmişdi. Həmişə ilklərə imza atmışdı, yeniliklərlə nəfəs almışdı.

Araşdırmalarından bir gün də olsun kənarda qalmayan professor Yusif Seyidov ilk dəfə olaraq linqvistik təhlilləri bədii nəsr nümunələri ilə aparmaq ənənəsini dilçilik elminə gətirmişdi. Alimin bütün elmi və pedaqoji fəaliyyəti milli ruha köklənmişdi.

Görkəmli alim 1985-2006-cı illərdə Təhsil Nazirliyi Elmi Metodik Şurası filologiya bölməsinin sədri olmuşdur. Ali Attestasiya Komissiyasının Ekspert Şurasının sədr müavini və sədri kimi fəaliyyət göstərmişdir. 2001-ci ildən Azərbaycan Dövlət Dil Komissiyasının üzvü olmuşdur. Professor Yusif Seyidov müntəzəm olaraq dövrü mətbuatda dil və ədəbiyyatşünaslıq məsələləri ilə bağlı bir-birindən dəyərli irihəcmli yazıları ilə çıxış etmişdi. Yazılarında bir qayda olaraq doğma ana dilimizin ruhunu, müqəddəsliyini qorumuş, bir vətəndaş kimi onu tədqiq və təbliğ etməyə çalışmışdır.

Professor Yusif Seyidovun rəhbərliyi altında onlarla namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdu. Elmin inkişafında və yüksəkixtisaslı kadrların hazırlanmasında göstərdiyi xidmətlərinə görə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Prezident təqaüdçüsü olmuşdur. 2000-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Daim hörmət və ehtiramla xatırlanan professor Yusif Seyidov 16 monoqrafiyanın, 17 dərslik və dərs vəsaitinin, 300-dən çox elmi məqalənin müəllifidir. Alimin dərs dediyi tələbələr, yetişdirdiyi alimlər onun başladığı dəyərli işləri bu gün şərəflə davam etdirirlər. Görkəmli alim Yusif Seyidov 18 noyabr 2013-cü ildə Bakı şəhərində vəfat etmişdi. Görkəmli alimin şərəfli ömür yolu gələcək nəsillər üçün həmişə nümunə olacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Yay konsert mövsümünün təntənəli açılışı olacaq




Mayın 31-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında dünya opera səhnəsinin ulduzu italyan Tenor Fabio Andreotti və Q. Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə yay konsert mövsümünün təntənəli açılışı olacaq.

Filarmoniyadan bildirilib ki, proqramda məşhur ariyalar və cazibədar Neapolitan mahnıları yer alır. İlk dəfə yay səhnəsi saysız-hesabsız ətirli qızılgüllərlə bəzədiləcək ki, bu da tamaşaçıların hər konsertdən təəssüratlarını maksimum dərəcədə artıracaq və musiqi gecələrinə romantika, əyləncə və həssas bir atmosfer bəxş edəcəkdir.

Payıza qədər filarmoniyanın yay konsert mövsümü məşhur sənətçilərin və yüksələn istedadların ifaları ilə musiqisevərləri sevindirəcəkdir.

● Milli dəyərlərimiz

## Azərbaycan xalçaları Riqada ilk dəfə sərgilənib

Hələ qədim dövrlərdən Azərbaycanda özünəməxsus xalçaçılıq ənənələri olub. Xalqımızın yalnız həyat tərzi, məişəti, adət-ənənələri deyil, eyni zamanda tarixi, mədəniyyəti, təfəkkürü müxtəlif əsrlərdə toxunmuş xalçalarda əksini tapıb. Odur ki, xalçalar Azərbaycanın zəngin mədəni irsinin ən gözəl nümunələri hesab edilir. Ölkəmizdə bu sənətə qədim zamanlardan çox böyük hörmətlə, qayğı və məsuliyyətlə yanaşıblar. Azərbaycan xalçaları dünyada da məşhur olub. Bir çox ölkələrin məşhur muzeylərinin ən gözəl eksponatlarına çevrilib.

Xalçaçılıq sənətinin Avropada tanıdılması məqsədilə və Azərbaycan ilə Latviya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində bu ölkədə səfirliyimizin və "Azərxalça" ASC-nin təşkilatçılığı ilə Riqadakı Dekorativ İncəsənət və Dizayn Muzeyində xalçalarımızdan ibarət "Yaddaşın genetik kodu. Azərbaycan xalçaları" adlı sərgi açılıb.

"Azərxalça"dan verilən məlumata görə, sərginin açılış mərasimində Latviyadakı səfirimiz Elnur Sultanov çıxış edib. O, 2024-cü il ərzində Azərbaycan və Latviya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyini və bu əlamətdar hadisə münasibətilə xalqımız tərəfindən əsrlər boyu qorunub saxlanılmış milli xalçaçılıq sənətinin gözəl nümunələrinin Riqada ilk dəfə nümayişinin sevindirici hal olduğunu bildirib. Səfir sərgidə qonaqlara təqdim olunan Azərbaycan tar ifasının tədbirə xüsusi rəng qatdığını, Azərbaycan xalçaçılıq və tarın hazırlanma və ifaçılıq sənətlərinin UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edildiyini diqqətə çatdırıb.

Elnur Sultanov Azərbaycanın xalçaçılıq sənətini Latviyada daimi əsasda nümayiş etdirilməsi məqsədilə "PAŞA Holdinq" Məhdud Məsuliyyətli Cəmiyyəti və "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə "Azərxalça" tərəfindən müasir üslubda toxunulmuş üç xalçanın Latviyanın Dekorativ İncəsənət və Dizayn Muzeyinə hədiyyə edilməsini Azərbaycan mədəniyyətinin Latviyada təbliğinə vacib töhfə verəcəyini qeyd edib.



"Azərxalça" ASC-nin yaradıcı qrupu və idarə heyətinin sədri Emin Məmmədov çıxışında Azərbaycanın hər zaman milli-mənəvi dəyərlərinə yüksək qiymət verərək öz mədəniyyətini bütün dünyaya tanıtmaq yolunda təqdirəlayiq addımlar atdığını nəzərə çatdırıb.

Azərbaycan xalq-tətbiqi sənətinin və onun bir qolu olan xalçaçılığın xalqın milli mədəniyyəti tarixində özünəməxsus yer tutduğunu vurğulayan Emin Məmmədov sərgidə nümayiş olunan xalçaçılıq məktəblərindən danışıb, "Azərxalça" ASC-nin əsas məqsədinin xalçaçılıq ənənəsinin qorunub saxlanması və bu sənətin daha da inkişaf etdirilməsi olduğunu söyləyib. Cəmiyyətin istehsal etdiyi xalçaların ərsəyə gəlməsində yerli və xarici rəssamlarla, eləcə də dizaynerlərlə əməkdaşlıq çərçivəsində ənənəvi xalçalara istinadla müasir xalçalar yaradıldığını və beləliklə, xalça sənətinin daim inkişaf etdiyini diqqətə çatdırıb.

Sərgidə Latviya Mədəniyyət Nazirliyinin parlament katibi Aqnese Latse, Dekorativ İncəsənət və Dizayn Muzeyinin rəhbəri İnese Baranovska və Latviya Milli İncəsənət Muzeyinin kolleksiyalar üzrə direktor müavini İveta Derkusova da çıxış ediblər. Onlar unikal xalça kolleksiyasının sərgidə nümayişini Latviyanın mədəni həyatında vacib hadisə olduğunu deyiblər və "PAŞA Holdinq" MMC və "PAŞA Bank" ASC tərəfindən Dekorativ İncəsənət və Dizayn Muzeyinə hədiyyə edilən üç xalçaya görə təşəkkürlərini bildiriblər. Qeyd olunub ki, Azərbaycan və Latviya ornamentləri arasında rast gəlinən oxşarlıqlar diqqəti cəlb edir və bu oxşarlıqlar hər iki ölkənin mədəniyyətinə təsir göstərmiş qarşılıqlı mədəni əlaqənin əksidir.

Tədbirə Latviya Hökuməti və Parlamentinin üzvləri, diplomatik missiyaların rəhbərləri, yerli mədəni, ictimai və mətbuat dairələrinin nümayəndələri və Latviyada yaşayan Azərbaycan icmasının üzvləri də qatılıb. Sərgidə xalçalarla yanaşı, böyük ekran vasitəsilə xalçaçılıq sənətini, eləcə də tanınmış xalça toxucularından bəhs edən film nümayiş olunub.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Milli Xalça Muzeyi Beynəlxalq Muzeylər Günü münasibətilə silsilə tədbirlər keçirəcək

**Beynəlxalq Muzeylər Günü münasibətilə Azərbaycan Milli Xalça Muzeyində bir sıra tədbirlər təşkil olunacaq. Muzeydən bildirilib ki, saat 11:00-dan 19:00-dək "Açıq qapı" aksiyası və Azərbaycan dilində ödənişsiz ekskursiyalar reallaşacaq.**




Bununla yanaşı, dahi şair Məhəmməd Füzulinin 530 illiyinə həsr olunan "Sənətdə bənzərsiz eşq" sərgisi açılacaq.

Sərgidə Xalq rəssamlarından Lətif Kərimovun "Füzuli", "Şəbi-hicran", Eldar Mikayılzadənin "Şəbi-hicran", "Leyli və Məcnun", Aydın Rəcəbovun "Füzuli dünyası", sənətşünaslıq üzrə elmlər namizədi Cəfər Mücirinin "Füzuli", rəssam Gülmurad Bəbirovun "Füzuli" xalçaları nümayiş olunacaq.

Ekspozisiyada Xalq rəssamı Kamil Əliyevə aid "Füzuli" (1958) xalçasının eskizi, Rafiq Qəmbərovun "Füzuli" dekorativ pannosu, həmçinin ilk dəfə olaraq görkəmli sənətkar Lətif Kərimovun Füzuliyə dair kitablara çəkdiyi bədii tərtibatlardan elementlər yer alacaq. Dahi şairin zəngin irsinin təcəssümü olan bu sənət nümunələri Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasındandır. Sərgi mayın 30-dək davam edəcək.

Muzeyin balaca dostları üçün Uşaq şöbəsinin əməkdaşları "Leyli və Məcnun" kölgə teatr tamaşası hazırlayıb. Tədbir çərçivəsində, həmçinin ustad dərslərinin keçirilməsi planlaşdırılıb.

## "Uzundərə" xalq rəqsi

**Şuşada yaranmış bu xalq rəqsi haqqında müxtəlif rəvayətlər mövcuddur. Ağdamla Göytəpə kəndi arasında Uzundərə adlanan bir yer var.**

Deyildiyinə görə, qədimdə ya Dağlıq, ya da Aran Qarabağdan gəlin aparanda həmin dərədən keçər və toy adamları burada bir qədər dincələrmişlər. Kişilər, qadınlar vaxtlarını boş keçirməmək üçün musiqinin müşayiəti ilə rəqslər edər, çalıb-oxuyarmışlar. İnsanlar bu rəqslərdən birini - ən məşhurunu həmin yerin adı ilə "Uzundərə" adlandırmışlar. Ənənəvi toy rəqsi olan "Uzundərə"ni, adətən, qızlar, gəlinlər, bəzən də yaşlılar ifa edirlər. Rəqs olduqca



cazibəli, aram, incə, lirik melodiya üzərində qurulmuşdur. Zərif və emossional musiqi və xoreoqrafik kompozisiyalı "Uzundərə" üçün adi gəzişmə, süzmə və s. hərəkətlər xarakterikdir. Bu rəqs qadın ifası üçün daha səciyyəvi, daha uyğun və münasib olduğuna görə, əsasən, gəlin gətirilən vaxt ifa olunur. Bəzi yerlərdə isə bu rəqsi kişilər, yaxud qadınla kişi oynayır. Rəqs Qafqaz xalqları arasında da geniş yayılmışdır.

Üzeyir bəy Hacıbəyli "O olmasın, bu olsun" operettasında bu xalq rəqsindən geniş istifadə etmişdir.

*"Azərbaycan"*

## Azərbaycan PATA-nın sammitində təmsil olunur

**Azərbaycan Asiya-Sakit Okean Turizm Assosiasiyasının (PATA) Çinin Makao şəhərində keçirilən illik sammitində təmsil olunur.**

Dövlət Turizm Agentliyindən bildirilib ki, "Liderlərin dialoqu: Gələcəyə əsaslanan səyahət və turizm siyasətləri" adlı panel müzakirəsində çıxış edən Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid Azərbaycanda məsuliyyətli və dayanıqlı turizmin inkişafı məqsədilə




atılan addımlardan bəhs edib. O, Basqal kimi icma əsaslı turizmin inkişafı ilə bağlı icra olunan uğurlu dövlət layihələrindən, "Xınalıq və Köç yolu mədəni landşaftı"nın UNESCO-nun Ümumdünya İrs Siyahısına salınması nümunəsindən danışıb. Dövlət Turizm Agentliyinin turizm siyasəti və strategiya şöbəsinin müdiri Məhəmməd Muradov səfər çərçivəsində turizm təhsilinin biznesin ehtiyaclarına uyğunlaşdırılması, bu istiqamətdə PATA regionunda universitetlər və biznes arasında əməkdaşlıq imkanlarının təşviqinə həsr olunmuş hökumət nümayəndələrinin iclası çərçivəsində müzakirələrdə iştirak edib. Qeyd edək ki, Azərbaycanın 2019-cu ildən üzv olduğu təşkilatın illik sammitləri turizm sənayesindəki cari çağırışların müzakirəsi üçün beynəlxalq platforma kimi çıxış edir.

# Fərdi yaradıcılıq sərgisi açılıb

**Mayın 17-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Əməkdar rəssam Həmzə Sadiqovun 75 illiyi münasibətilə fərdi yaradıcılıq sərgisi açılıb.**



Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş "Rənglərin harmoniyası" adlı sərgidə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva rəssamın həyat və yaradıcılığından bəhs edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Anar İbrahimov yubilyarı təbrik edərək bildirib ki, Əməkdar rəssam Həmzə Sadiqovun taleyi, həyatı həmişə vətənə bağlı olub. Bunu təkcə yaradıcılığında deyil, çalışdığı vəzifələrdə, fəaliyyətində də hər zaman sübut edib.

Həmzə Sadiqovun ötən əsrin 90-cı illərində Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizin davamlı inkişafı, xalqımızın rifahı naminə apardığı mübarizənin ön cərgələrində olduğunu diqqətə çatdırdığını deyən Anar İbrahimov Sədərək döyüşlərindəki fədakarlıqlarını yüksək qiymətləndirib. Həmzə Sadiqovun yaradıcılığını təhlil edən Ali Məclisin sədr müavini Əməkdar rəssamın realizm üslubunda yaratdığı əsərlərin Naxçıvana yeni bir baxışla baxmağa böyük imkan yaratdığını bildirib. Anar İbrahimov rəssamın yaradıcılığından hələ çox gəncin ilham alacağına əminliyini ifadə edib, Həmzə Sadiqova yeni yaradıcılıq uğurları arzulayıb.

Əməkdar rəssam Həmzə Sadiqov əməyinə verilən diqqətə görə minnətdarlıq edib və tədbirin ona yeni yaradıcılıq stimulu verdiyini bildirib. Sonra sərgiyə baxış olub.

Sərgidə Əməkdar rəssam Həmzə Sadiqovun müxtəlif janrlarda ərsəyə gətirdiyi 60-a yaxın əsəri nümayiş olunub. Əsərlərdə Naxçıvan motivi üstünlük təşkil edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

## *2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 102 (9557) 17 may 2024-cü il CÜMƏ
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Etimada, qarşılıqlı hörmətə, dostluğa əsaslanan KREATİV TƏRƏFDAŞLIQ
Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri
Fransa kanak xalqının azadlıq istəyini qanla boğur
Ağdam şəhərinin 189,7 kilometrlik daxili yolları baş plana uyğun tikilir
Avropaya yeni mənbədən və yeni marşrutla qaz axını
TAP-ın təməlinin qoyulmasından 8 il keçir
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Azərbaycan hərbi pilotlarının iştirak etdiyi "Anadolu Ankası-2024" beynəlxalq təlimi başa çatıb

**Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anadolu Ankası - 2024" ("Anatolian Phoenix - 2024") beynəlxalq axtarış-xilasetmə təlimi başa çatıb.**







Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bağlanış mərasimində çıxış edənlər beynəlxalq təlimdə icra olunan fəaliyyətlərin təhlili barədə danışıblar. Tədbirin sonunda iştirakçı heyətlər tərəfindən qarşılıqlı hədiyyələr təqdim edilib.

Qeyd edək ki, təlimdə hərbi pilotlarımız tərəfindən Su-25 ML hücum təyyarələri ilə şərti düşmənin yerüstü hədəflərinin aşkarlanması, onlara aviasiya zərbələrinin endirilməsi və irəliləyən qruplara yaxın hava dəstəyinin verilməsi üzrə tapşırıqlar qarşılıqlı əlaqədə müvəffəqiyyətlə yerinə yetirilib.

# Sankt-Peterburqda XXVII Beynəlxalq İqtisadi Forum keçiriləcək

**Beynəlxalq İqtisadi Forum (SPIEF) dünyanın ən böyük və ən əhəmiyyətli biznes tədbirlərindən biridir. Forum 27 ildir ki, davamlı inkişafın təmin edilməsi məqsədilə qlobal iqtisadiyyatın əsas məsələlərinin müzakirəsi və dünyanın qabaqcıl təcrübə və səriştələrinin mübadiləsi üçün aparıcı platforma statusunu qazanıb.**




SPIEF 1997-ci ildən hər il keçirilir. 2006-cı ildən forum Rusiya Federasiyası Prezidenti Vladimir Putinin himayəsi və iştirakı ilə keçirilir.

2021-ci ildə SPIEF koronavirus pandemiyası səbəbindən məcburi fasilədən sonra dünyada ilk və ən böyük şəxsi biznes tədbiri oldu.

SPIEF dialoq və işgüzar əlaqələrin inkişafı üçün analoqu olmayan məkandır. Bu, Rusiyada və xaricdə biznesin inkişafı üçün tərəfdaşlar tapmaq, müştərilər və təchizatçılar dairəsini genişləndirmək, birbaşa qərar qəbul edənlərlə əlaqə saxlamaq, potensial investorların və aparıcı medianın diqqətini cəlb etmək üçün bir fürsətdir.

SPIEF - 2023-də real və virtual formatlarda 130 ölkədən 17 000-dən çox adam iştirak edib. Forumda ümumi dəyəri 3 trilyon 860 milyard rubl olan 900-dən çox saziş imzalanıb.

Russian-news.ru saytı xəbər verir ki, bu il iyunun 5-dən 8-dək keçiriləcək XXVII Foruma 111 ölkə və ərazidən altı mindən çox iştirakçı gələcək - bunlar yalnız hazırkı rəsmi rəqəmlərdir və getdikcə artır.

Biznes proqramının çox gərgin olması planlaşdırılır. Dörd tematik blok olacaq: birincidə ölkələrin iqtisadi, sənaye və enerji suverenliyinin qorunması ilə bağlı hər şey müzakirəyə çıxarılacaq.

İkincisi daxili iqtisadi potensialın inkişafı ilə bağlıdır: perspektivli ərazilər, turizm və infrastruktur.

"Texnoloji" bölməsində internetdə vətəndaşların hüquqlarının müdafiəsi və süni intellektdən istifadə daha dərindən araşdırılacaq. Dördüncüsü isə "cəmiyyətin sağlamlığı" haqqındadır: incəsənətin insana təsiri, demoqrafiya, təhsil, mədəniyyət və idmana investisiyalar.

Ümumilikdə, 100-dən çox panel sessiyası və müzakirələr - hər biri Rusiyanın 2030-cu və 2036-cı illərə qədər gələcək üçün təsdiq edilmiş milli inkişaf məqsədlərini əks etdirir.

SPIEF - 2024 proqramı həmçinin biznes dialoqlarını da əhatə edəcək: Rusiya ilə Çin, Afrika, Latın Amerikası, Cənubi Afrika Respublikası, EAEU - ASEAN və digər ikitərəfli görüşlər planlaşdırılıb.

***"Azərbaycan"***

# "Redaksiya siyasəti və peşə davranış qaydaları" mövzusunda təşkil olunan təlim proqramı yekunlaşıb

**Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə media nümayəndələri üçün mayın 15 və 17-də keçilən "Redaksiya siyasəti və peşə davranış qaydaları" mövzusunda təlim proqramı başa çatıb.**

AZƏRTAC xəbər verir ki, təlimin keçirilməsində əsas məqsəd media nümayəndələrini peşə etikası qaydalarını tənzimləyən, onların xəbərlərinin qərəzsiz və obyektiv olmasını təmin edən prinsiplər və təlimatlar üzrə maarifləndirmək olub. Bundan əlavə, təlim zamanı iştirakçılara hüquqi standartlar, mediada dərc olunan və (və ya) yayımlanan informasiyaya dair tələblər, redaksiya və jurnalistlərin maraq toqquşması, jurnalist nüfuzunun qorunması, onun etik məsuliyyəti və öhdəlikləri haqqında məlumat verilib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini, Əməkdar jurnalist Natiq Məmmədli "Media subyektlərinin redaksiya siyasəti", "Jurnalistlərin peşə davranış qaydaları və sosial şəbəkələrdə fəaliyyət" adlı sessiyalarda çıxış edərək media nümayəndələri ilə sözügedən mövzularda geniş fikir mübadiləsi aparıb. Təlim zamanı "Rəqəmsal mühitdə media brendinin qorunmasında yol verilən pozuntular" və "Sosial şəbəkələrdə jurnalist nüfuzunun qorunması problemləri" mövzusunda vörkşop da təşkil olunub.

Təlimin sonunda iştirakçılar sertifikatla təltif olunublar.

# Şuşa-Laçın yolunda gözoxşayan təbiət mənzərələri









Dağların qoynu ilə çəkilən Şuşa-Laçın yolu ilin bütün fəsillərində olduğu kimi, baharda da əsrarəngiz təbiət mənzərələri ilə diqqət çəkir.

Şuşadan Laçınadək irəlilədikcə yolboyu açılan əsrarəngiz gözəlliklər - zümrüd meşələr, yaşıl yamaclar, dumandan örpək bağlayan qoca dağlar, rəngbərəng dağ çiçəkləri, saf dağ havası insanı valeh edir.

***AZƏRTAC***

# Yağışlı hava şəraitinin mayın 21-dək davam edəcəyi gözlənilir



Mayın 19-u günün ikinci yarısı şimal və qərb rayonlarından başlayaraq mayın 21-i axşamadək hava şəraitinin arabir yağıntılı olacağı gözlənilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ayrı-ayrı yerlərdə (Naxçıvan MR, Qarabağ və Şərqi Zəngəzur, Qazax-Gəncə, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Mərkəzi Aran, Lənkəran-Astara) yağıntıların leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var.

Çaylarda, o cümlədən Kür, Araz, Qanıx və Qabırrı çaylarında sululuğun artacağı, Böyük və Kiçik Qafqazın, Lənkəran-Astara bölgəsinin ərazisindən axan bəzi çaylardan qısamüddətli daşqın və sel keçəcəyi gözlənilir.

***29.06.2019-cu il tarixdə Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən Məhərrəmov Məhərrəm İsa oğlunun adına verilmiş 012-19 saylı veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4356**
**Sifariş 1065**

**Qiyməti 60 qəpik**